www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  2 iyul 2014-cü il  Çərşənbə  № 168 (5877)  Qiyməti  40 qəpik

**Xəbər**

## Bir nəfəri dərman, bir nəfəri sirkə turşusu öldürdü

yazısı səh.4-də

**Gündəm**



### Ərdoğan namizəd oldu; AKP-dən istefa verir...

Baş nazir ailəsindən və dostlarından halallıq istədi və tutduğu bütün rəsmi vəzifələrdən gedəcəyinin dedi

yazısı səh.4-də

### Bakıdakı avropalıların müxalifətlə görüşünə imkan verilmədi

yazısı səh.8-də

### Sevinc Babayevanın oğlu türmədən oğlunun şəklini istəyib

yazısı səh.3-də

### ABŞ Azərbaycan məmurlarına sanksiya anonsu verib

yazısı səh.6-da

### NATO Əməkdaşlıq İnstitutu hökumət üçün "Yol xəritəsi" hazırlayıb

yazısı səh.7-də

### "Yeni Müsavat" və "Azadlıq" 6 günlük iş rejiminə keçdilər

yazısı səh.7-də

### Vidadi İsgəndərli DİN-də üç saat dindirilib

yazısı səh.6-da

### Leyla Yunus ATƏT PA-nın sessiyasına buraxılmamasından danışdı

yazısı səh.4-də

### Neft yenidən bahalaşıb

yazısı səh.5-də

### Siyasi məhbuslardan xəbər var

yazısı səh.3-də

### Üç "pilot nazir"in fəaliyyətinə üç baxış

yazısı səh.12-də

**Ramazan ayının 4-cü günü**

İftar 21.31 İmsaq (azan) 4.44 (QMI-nin cədvəli)

4-cü günün duası: "İlahi, Sənin əmrini bərpa etmək üçün mənə qüvvət ver! Səni zikr və yad etməyin şirinliyini mənə dadızdır! Öz kərəminlə məni şükür etməyə hazır et! Məni Öz hifzinlə və pis işlərdən qoruyan örtüyünlə qoru! Ey, görənlərin ən Bəsirətlisi!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN.

## Qərb istəyinə nail oldu

# BAKIDA RUSİYA ƏLEYHİNƏ QƏTNAMƏ QƏBUL EDİLDİ

Amerikalı senatorun hazırladığı sənəd gərgin müzakirələrə səbəb oldu; hakimiyyət Moskva-Vaşinqton duelində riskli mövqe sərgiləməkdən yayındı




yazısı səh.9-da

## Vasif Talıbovdan marketlərə "Hell" qadağası

Naxçıvan Ali Məclisinin sədri "Red Bull"una rəqib enerji içkisinin bazarını bağlayır

yazısı səh.12-də



### Hafiz Məmmədov tam iflas ərəfəsində

yazısı səh.6-da



### SMDT rəhbərliyindən Rəbiyyət Aslanovaya sərt sözlər

yazısı səh.11-də



Elman Abdullayev

### Azərbaycan XİN-dən "üç rayon qaytarılır" xəbərinə reaksiya

yazısı səh.13-də

**2 iyul 2014**

# Putin Azərbaycanı Avrasiya Birliyinə çağırdı


Vladimir Putin

**Rusiya prezidenti Vladimir Putin Avrasiya İttifaqının MDB-nin hələ ki ona üzv olmayan bütün ölkələri üçün açıq olduğunu bildirib. Musavat.com-un Rusiya informasiya qaynaqlarına istinadən verdiyi məlumata görə, bunu o, Rusiya diplomatları ilə görüşdə bəyan edib.**

"Biz digər ölkələr üçün də açığıq. Qonşularla qarşılıqlı iqtisadi əməkdaşlığın inkişafı, dost əlaqələrin daha da möhkəmləndirilməsi - Rusiyanın xarici siyasətinin uzunmüddətli perspektivə hesablanmış əsas, strateji istiqamətidir. Avrasiya məkanında iqtisadi inkişafın güclü, biznes və sərmayəçilər üçün cəlbedici mərkəzi yaradılır, ümumi bazar formalaşdırılır", - deyə Kreml başçısı vurğulayıb.

Putin tezliklə Ermənistanın da yeni quruma üzv olacağını, Qırğızıstanla danışıqların isə "irəliləmə mərhələsində" olduğunu bildirib.

# Ekmələddin İhsanoğlu danışdı


Ekmələddin İhsanoğlu

**Türkiyə müxalifətinin prezidentliyə əsas namizədi Ekmələddin İhsanoğlu baş nazir Rəcəb Tayyib Ərdoğanın ona rəqib olmasından danışıb. ANS PRESS-in məlumatına görə, Ekmələddin İhsanoğlu Ərdoğana uğurlar arzu edib.**

"Xeyirli-uğurlu olmasını arzu edirəm. Bu seçkinin çox mədəni və demokrat şəkildə keçməsini istəyirəm. Türkiyə öz seçimini etməlidir".

Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğan dünən hakim Ədalət və İnkişaf Partiyası tərəfindən prezidentliyə namizəd göstərilib.

# İraqda əməliyyatlar davam edir

## Samirradakı müqəddəs ziyarətgaha raket atıldı, İraq ordusu Səddamın generalının oğlunu öldürdü

**İraqda bu ilin iyun ayından şiddətlənən terror hücumları və İŞİD yaraqlılarının hücumları nəticəsində 2 minədək insan öldürülüb. Bu barədə İraqın Səhiyyə, Daxili İşlər və Müdafiə nazirliklərinin birgə məlumatında bildirilir. Məlumata görə, iyun ayı ərzində 1393 mülki şəxs, 380 polis əməkdaşı və 149 hərbçi qətlə yetirilib.**

İyun ayının 10-dan başlayaraq İŞİD qruplaşması İraqın iri şəhərlərinə hücuma başlayıb, Mosul və Tikrit kimi şəhərlər ələ keçirilib. Hazırda İraq ordusu ilə savaşan yaraqlılar Samirra şəhərində yerləşən İmam Həsən Əsgərinin (ə) hərəmini raket atəşinə tutublar. Terrorçular tərəfindən atılan 4 raket ziyarətgahın həyətinə düşüb, bir nəfər ölüb, 32 nəfər isə yaralanıb. Qeyd edək ki, 10-cu imam Əli əl-Nəqi (ə) və 11-ci imam Həsən əl-Əsgərinin (ə) qəbri Samirra şəhərindəki "əl-Əsgəri" məscidində yerləşir. Samirra şəhərində yerləşən İslam müqəddəslərinin məzarları 2006-cı və 2007-ci illərdə terrorçuların hücumuna məruz qalaraq dağıdılıb.

"İraq və Şamda İslam Dövləti" Suriyanın Riqqə şəhərində hərbi parad keçirib. İŞİD-in twitter səhifəsinə istinadla verilən xəbərə görə, paradda təşkilatın ənənəvi silahları ilə yanaşı, İraq və Suriya ordusundan qənimət kimi götürdüyü tanklar, eləcə də bir neçə "Skud" raketi nümayiş etdirilib.

Bu arada Livanın "əl-Əhəd" xəbər agentliyi bir neçə gün əvvəl İordaniya sərhəd qoşunları ilə İŞİD yaraqlıları arasında toqquşmaların olması ilə bağlı xəbər yayıb. Xəbərdə qeyd olunur ki, İordaniyanın cənubundakı Maan qəsəbəsində İordaniya təhlükəsizlik qüvvələri ilə İŞİD terrorçuları arasında baş verən toqquşma nəticəsində polis mərkəzi və bir neçə dövlət binası yandırılıb. Eyni zamanda xəbərdə İŞİD yaraqlılarının İraqın İordaniya ilə sərhəddə yaxın ərazidə yerləşən "ər-Rətbə" qəsəbəsini ələ keçirdiyi bildirilir.

Ötən gün Türkiyə mediası Səddam Hüseynin generalı, sabiq İraq diktatorunun ən yaxın adamlarından olan İzzət əl-Durinin ikinci oğlunun öldürülməsi xəbərini yayıb. Xəbərdə qeyd olunur ki, İraq ordusunun Səlahəddin əyalətinin Tikrit şəhəri ərazisində keçirdiyi əməliyyat zamanı İzzət əl-Durinin oğlu İbrahim öldürülüb. Məlumatda generalın böyük oğlu Əhmədin iyunun 14-də Tikritdə keçirilən əməliyyat zamanı 50 yaraqlı ilə birlikdə öldürüldüyü qeyd olunur. Qeyd edək ki, Səddam Hüseynin vətəni Tikrit şəhəri İraqda keçmiş rejim tərəfdarlarının ən güclü olduğu bölgə hesab olunur.

❑ KƏNAN

**Başsağlığı**

**Müsavat Partiyasının Füzuli rayon təşkilatı Kinyaz bəyə anasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# Elmar Məmmədyarov İsa Qəmbərin müraciətinə baxır

**"Bizə daxil olan Müsavat Partiyasının müraciətinə baxılır". Bu barədə Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Elman Abdullayev publika.az-a açıqlamasında Müsavat başqanı İsa Qəmbərin XİN rəhbəri Elmar Məmmədyarova partiyanın qurultayının keçirilməsi üçün yer probleminin həlli ilə bağlı müraciətinə münasibət bildirərkən deyib.**

E.Abdullayev deyib ki, ümumiyyətlə, XİN-ə daxil olan müraciətlər kənara atılmır.

"Bizə müraciət daxil olursa, buna mütləq baxılır", - deyə o bildirib.

Qeyd edək ki, iyunun əvvəlində Müsavat başqanı İsa Qəmbər partiyanın qurultayına yer ayrılması ilə bağlı yaranmış problemlə əlaqədar hazırda Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarova müraciət edib. Müraciətdə E.Məmmədyarovdan AŞ Nazirlər Komitəsinin sədri kimi problemin həllinə yardım etməsi istənilib.


Elmar Məmmədyarov



# Qəzetimiz yazdı, icra hakimiyyəti uçurtdu

## Yerli hakimiyyət təmsilçisi: "O tikili necə olubdursa bizim nəzərimizdən yayınıb"...

**30.06.2014-cü il tarixində "Qara Qarayevdə növbəti "yaşıl soyqırım"?" başlıqlı yazımıza Nizami Rayon İcra Hakimiyyətindən reaksiya gəlib. Belə ki, adını qeyd etdiyimiz yazıda vətəndaşın müraciəti əsasında baxış keçirdiyimiz ərazidə ağacların kəsilməsi faktına rast gəlmişdik. 3 azman ağacın kəsildiyi bildirilən məkanda yeni obyektin tikintisi reallaşdırılırdı. 24 kvadratmetrlik obyektin hansı məqsədlə tikildiyi məlum deyildi. Bakının Qara Qarayev prospektində yerləşən bu məkanda çalışan əməkdaşlar obyektin rəsmi formada tikildiyini bildirərək, hər bir rəsmi prosedurun qaydasında olduğunu söyləmişdilər.**

Lakin 01.07.2014 tarixində redaksiyamıza daxil olan zənglə durumun heç də belə olmadığı məlum oldu.

İyulun 1-də günorta radələrində redaksiyamıza zəng vuran Nizami Rayon İcra Hakimiyyətinin Təsərrüfat şöbəsinin böyük məsləhətçi - memarı Azər Məmmədov həmin obyektin qanunsuz olaraq tikildiyini bildirdi:

"O tikili necə olubdursa bizim nəzərimizdən yayınıb. Siz sağ olun ki, bu faktı ortaya çıxartdınız. Artıq o tikili sökülübdür. Özünüz də gedib müşahidə edə bilərsiniz".

Zəngdən sonra əraziyə baş çəkərək, obyektin sökülməsi prosesinə şəxsən şahid olduq.

❑ Fəridə Abdıyeva

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# ANS-də azan mübhəmi

## İddialar gündəmi bürüyüb, rəhbərlik susur

**"İslam dinin atributu olan azanın Ramazan ayında ANS kanalında səsləndirilməsi təmin olunacaq". Bunu aznews.az-a açıqlmasında Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin İçərişəhərdəki məscidlər üzrə səlahiyyətli nümayəndəsi Hacı Surxay Məmmədli ANS-də Ramazan ayında azanın səsləndirilməsinin qadağan olunması məsələsinə münasibət bildirərkən deyib. S. Məmmədli vurğulayıb ki, azan İslam dininin atributlarındandır və onun Azərbaycanda səsləndirilməsi də bir müsəlman ölkəsi kimi vacibdir: "Hesab edirəm ki, azanın ANS-də səsləndirilməməsinin səbəblərini araşdırmaq lazımdır. Mən bunun təfərrüatını bilmirəm və bu haqda geniş heç nə deyə bilmərəm".**

Axund Ramazan ayı rəhmət ayı olduğuna görə ANS-də də azanın verilməsinin təmin olunacağına ümid etdiyini qeyd edib.

Xatırladaq ki, aktual.az-ın məlumatına görə, ANS televiziyası bu il Ramazan ayında azanın yayımlamaqdan imtina edib. Xəbərdə bildirilib ki, azanın yayımlanmasına hökumət tərəfindən qadağa qoyulub. Hətta efirə azan veriləcəyi təqdirdə ANS kanalının bağlanacağı haqda da xəbərdarlıq edilib.

Əməkdaşımız gün ərzində ANS-dən bu məsələ ilə bağlı rəsmi açıqlama almağa cəhd etsə də, buna nail olmayıb.

❑ SEVİNC

# Orxan Zeynalovun məhkəməsində cinayət işinin əsas şahidi Kseniya Popova ifadə verib

**Moskva sakini Yeqor Şerbakovu qətlə yetirməkdə şübhəli bilinərək həbs olunan Azərbaycan vətəndaşı Orxan Zeynalovun cinayət işi üzrə məhkəmə baxışı davam etdirilib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, Moskva Şəhər Məhkəməsində keçirilən prosesdə qətlin yeganə şahidi Kseniya Popova ifadə verib. O, Orxan Zeynalovla Yeqor Şerbakovun arasında nə üstündə mübahisə düşməsi ilə bağlı suala aydınlıq gətirə bilməyib. Belə ki, Kseniya Popovanın ifadəsində bəzi ziddiyyətli məqamlar olub. Hakim dövlət ittihamçısından Kseniya Popovanın ibtidai istintaqa verdiyi ifadəni səsləndirməyi xahiş edib.**

Dövlət ittihamçıları da Kseniya Popovanın ibtidai istintaqa verdiyi ifadə ilə məhkəmədə səsləndirdiyi fikirlər arasında ziddiyyətlərin olduğunu etiraf ediblər.

Prokuror Kseniya Popovanın məhkəmədə tamamilə başqa cür ifadə verdiyini bildirib.

Ona yenidən mübahisənin nə üstündə düşdüyü barədə sual verilib. K. Popova isə bu barədə danışmaq istəməyib. O, hadisəni ətraflı xatırlaya bilmədiyini söyləyib: "Hadisənin üstündən nə qədər keçib, ətraflı yadımda deyil".

Kseniya Popova Yeqor Şerbakovun hadisə baş verən vaxt küçədə yüksək səslə intim mövzuda danışdığını etiraf edib.

Daha sonra prosesdə digər şahidlər, Kseniya Popovanın anası, qonşuları ifadə veriblər.

Proses sabah digər şahidlərin ifadələri ilə davam etdiriləcək.

# Təhdid: ermənilər Qazağa iddia etməyə başladı

**Ermənistanın Tavuş vilayətində fəaliyyət göstərən Beynəlxalq Həmyerlilər Birliyinin sədri Sergey Barsaqyan BMT-nin Ermənistan nümayəndəliyinin, ATƏT-in İrəvan ofisinin, Beynəlxalq Qızıl Xaç Komitəsinin Ermənistan təmsilçiliyinin rəhbərlərinə məktubla müraciət edib.**

Tavuş vilayəti Azərbaycanın Qazax rayonu ilə həmsərhəddir.

"Media forum" saytı "Armtoday.info"ya istinadla xəbər verir ki, Barsaqyan yazır: "Azərbaycanın atəşkəs rejimini pozmasının qarşısını almaq üçün tədbirlər görülməsini xahiş və tələb edirik. Heç bir tədbir görməsəniz, böyük ictimai etiraz hərəkatına başlayacağıq. Məsələ dinc yolla həllini tapmasa, problemi güc yolu ilə həll etməyə (belə imkanımız var) məcbur qalacağıq. Bütün dünyadakı həmyerlilərimizi səfərbər edərək Tavuş könüllü sərhəd briqadası təşkil edəcəyik. Briqada üzvləri Qazax rayonunun hərbi yolla Tavuşa birləşdirilməsində tam israrlı olacaq".

1988-ci ildə başlayan Qarabağ müharibəsində ermənilər Qazax rayonunun 7 kəndini də zəbt ediblər.



# Ukrayna 250 terrorçunu məhv edib

**İyulun 1-də Ukraynanın doğusunda antiterror əməliyyatları davam edib. Dnepropetrovsk hava-desant briqadası terrorçuların Slavyansk yaxınlarındakı təlim düşərgəsini bombalaması nəticəsində 250 terrorçu məhv edilib. Xəbəri unian.net saytı Ukrayna Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən yayıb.**

Xəbərdə bildirilir ki, həlak olanların 1/3-i çeçenlərdir. Böyük itki verən terrorçular Novoaleksandrovka yaxınlığına çəkilib. Ukrayna hərbi aviasiyası axşam saatlarında terrorçulara yenidən havadan zərbə endirməyə başlayıb. Həlak olanların sayı çox olsa da, dəqiq rəqəm səsləndirilmir.

Müdafiə Nazirliyindən verilən xəbərə görə, döyüşlərə ali baş komandan prezident Petro Poroşenko nəzarət edir. Prezident bu həftə güc strukturlarının rəhbərliyində kadr islahatları ilə bağlı Ali Radaya müraciət də göndərəcək. Bu haqda jurnalistlərə prezidentin Donetsk və Luqansk vilayətlərində konfliktin dinc yolla nizamlanması üzrə səlahiyyətli nümayəndəsi deputat İrina Geraşenko informasiya verib: "Prezident güc nazirliklərində ciddi təmizləməyə hazırlaşır. Ali Radanın prezidentin təşəbbüslərini dəstəkləyəcəyinə ümid edirik".

İyunun 30-dan iyulun 1-nə keçən gecə isə Ukrayna Silahlı Qüvvələri Luqanskda itki verib. Kəşfiyyat zamanı zirehli transportyor minaya düşüb. 6 hərbçi ağır bədən xəsarətləri alıb. Onlardan 4-ü təcili Kiyev hərbi hospitalına gətirilib. Donbasdakı atışmalarda isə terrorçular 5 hərbçini yaralayıb. Döyüşlərdə ərazini terrorçulardan təmizləyən Silahlı Qüvvələrin bölmələri 9 minanı da zərərsizləşdirə biliblər.

Donetskdən gələn xəbərlərdə bildirilir ki, gecə saatlarında döyüşlər səngisə də, sübhdən başlayan hərbi əməliyyatlar hava qaralana qədər davam edir. İyunun 30-da Donetskdə terrorçular Ukrayna hərbi uçağını vurmağa təşəbbüs edib. Ancaq atılan silahlar hədəfə yetməyib. Pilotun peşəkarlığı sayəsində uçaq eniş edə bilib.

❑ Aygün MURADXANLI

# İki polis polkovnikinə general rütbəsi verildi

**İyulun 1-də prezident İlham Əliyev Daxili İşlər Nazirliyinin zabitlərinə ali xüsusi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, polis general-mayoru Fazil Quliyevə polis general-leytenantı, polis polkovnikləri Şərif Əsədullayev və Fəxrəddin Pənahova polis general-mayoru rütbəsi verilib.**

YENİ MÜSAVAT
N 168 (5877) 2 iyul 2014

# Siyasi məhbuslardan xəbər var

## NİDA-çılar apelyasiya məhkəməsinə hazırlaşır, Nemət Pənahlı isə hələ də təkadamlıq kamerada qalır



**İyulun 11-də həbsdə olan NİDA-çı gənclərin Bakı Apelyasiya Məhkəməsində apelyasiya məhkəməsi olacaq. Gənclərin valideynləri Azərbaycanda müstəqil məhkəmə olmadığından, növbəti məhkəmə prosesində də heç bir müsbət addım olmayacağını düşünürlər.**

Şahin Novruzlunun atası İbrahim Novruzlu Azərbaycan məhkəmələrindən müsbət heç nə gözləmədiyini bildirdi: "Nəsə 3 gündür zəng etmir, zəngini gözləyirik. Amma sabah Şahinlə görüşəcəyik. Ayın 11-i də növbəti məhkəməsidir. Amma yerli məhkəmələrdən heç nə gözləmirik".

**Zaur Qurbanlının atası Araz Qurbanlı** beynəlxalq təşkilatların təsiri ilə oğlunun, eləcə də digər siyasi məhbusların azadlığa çıxacağını dedi: "Zaurla görüşürük, telefonla danışırıq. Şikayəti, narahatlığı yoxdur. Elə indi görüşdən çıxmışıq. Ayın 11-i apelyasiya məhkəmələri olacaq. Məhkəmədən ədalətli heç nə gözləmirik. Ola bilər, onlar beynəlxalq təşkilatların təzyiqi ilə azad edilsin".

**NİDA VH-nin İdarə Heyətinin həbsdə olan digər üzvləri - Rəşad Həsənov və Üzeyir Məmmədlinin ailəsi ilə danışmaq mümkün olmadığına görə onlar haqda məlumatı qurumun təmsilçisi Aygün Pəncəliyeva verdi:** "Bugünlərdə Üzeyirlə də, Rəşadla da telefonla danışmışam. Elə bir şikayətləri yoxdur. Günlərini mütaliə ilə keçirirlər. Yeni kitablar istəyirlər. Səhhətləri də normaldı".

**Gənc siyasi məhbus, blogger Əbdül Əbilovun anası Növcahan Əbdülova oğlunun durumunun yaxşı olduğunu dedi:** "Bu yaxınlarda Əbdüllə görüşdüm. Vəziyyəti yaxşıdır. Bundan başqa telefonla zəng edir. İndi oruc tutur. Soruşdum, oruc tutursan, bəs nə yeyib, nə içirsən. O da dedi ki, su ilə də olsa keçinirəm". **Növcahan xanım oğlu tutulandan sonra ailə vəziyyətlərinin çox ağırlaşdığını dedi:** "Heç yerdən kömək olmur. Özüm də işləmirəm, xəstəyəm, pensiya da almıram. Hərdən qohum-əqrəbalarımız kömək edir".

**Siyasi məhbus Nemət Pənahlının durumu ilə də maraqlandıq. Onun həyat yoldaşı Həcər Pənahlı heç bir yenilik olmadığını dedi:** "Nemətin səhhəti, saxlanma şəraiti əvvəlki kimdir. Heç bir dəyişiklik yoxdur. Dörd divardır, bir də özüdür. Həmin otaq boyda da bir yer var, üstü açıqdır, oradan da hava gəlir".

Xatırladaq ki, 2011-ci il iyunun 17-də Nəsimi Rayon Məhkəməsi Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri, xalq hərəkatının liderlərindən biri olmuş Nemət Pənahlını 6 il müddətinə azadlıqdan məhrumetmə haqda hökm çıxardıb. O, Cinayət Məcəlləsinin 221.3-cü (silahdan və ya silah qismində istifadə edilən əşyaların tətbiq etməklə xuliqanlıq və qəsdən sağlamlığa az ağır zərər vurma) maddəsi ilə ittiham olunub.

❑ **Nərgiz YAQUBLU**

# "Məncə, bir an öncə biriləri özünə gəlsin, bu zarafatı dayandırsın"

## Türkiyəli Səlcuq Ağlayandan Ayxan Məmmədovun həbsinə ilginc reaksiya

**"Mandat alveri" qalmaqalının əsas fiqurlarından olan, 2012-ci ilin dekabrında dünyasını dəyişən Sevinc Babayevanın oğlu Ayxan Məmmədovun həbsindən bir həftə ötüb. Bu günlər ərzində yaxınlarından heç kim A.Məmmədova baş çəkə bilməyib. Yaxın dostlarının "Yeni Müsavat"a verdiyi məlumata görə, A.Məmmədov onlara məktub yazaraq, türmədə lazım olan bəzi geyim, təmizlik əşyaları və 8 aylıq oğlunun şəklini istəyib. Ailəsi bu əşyaları hazırlasa da, onu kimin vasitəsilə göndərəcəyini bilmir. Yaxınları isə A.Məmmədovun türmədən çıxması, həbsinin haqsızlıq olduğunu bildirmək üçün hara müraciət edəcəkləri barədə məlumatsızdırlar. Onlar bir neçə il öncə Məşhədə gedib, Məşədi olmuş Ayxanın bu cür əməldə əli olmadığını düşünür və haqsızlığın aradan qaldırılmasını istəyirlər.**



### Sevinc Babayevanın oğlu türmədən öz oğlunun şəklini istəyib

Bu arada ölümündən öncə S.Babayevanı İstanbulda himayə etmiş türkiyəli iş adamı Səlcuq Ağlayan da A.Məmmədovun həbsindən şok keçirib. **"Yeni Müsavat"ın müxbiri ilə söhbətində S.Ağlayan** dedi ki, əgər hər şey mətbuatda yazılanlar kimidirsə, yəni A.Məmmədov mağazadan oğurluq edibsə, bu, yaxşı hərəkət deyil: "Deməli ki, xətaya yol verib. Əgər bu suçu edibsə, xətadır. Amma lap bu suçu etsə də, onun əvəzi bu qədər ağır olmamalıdır. Baş verənləri heyrətlə izləyirəm. Elə bir lətifədir. İnsanlar ölkəni soyurlar, bu qədər cəza almırlar. Bizdə də bir sürü nazir oğulları var idi. Rza Zərrabı zatən xatırlayırsız. Ölkəni soydular, amma bu qədər cəza almadılar, indi azadlıqda gəzirlər. Bu uşaq da lap marketdən oğurluq da etsə, bu qədər cəza almamalı idi".

**S.Ağlayan bildirdi ki, Azərbaycan qanunlarına bələd olmasa da, bir insanın mağazadan oğurluq etməsinə görə 3.5 il cəza verilməsinin normal olduğunu düşünmür. Onun sözlərinə görə, inkişaf etmiş ölkələrdə oğurluğa görə bu qədər cəza olmur:** "Ancaq diktator ölkələrdə belə cəzalar ola bilər. O gün saytınızda oxudum ki, Ayxanın sifarişlə tutulma ehtimalı var. Heç nəyi dəqiq bilmirəm. Bircə ondan əminəm ki, gec-tez hər şey üzə çıxacaq. Ona görə də hər kəs nə etdiyinə diqqət etməlidir".

**S.Ağlayan bir insan kimi A.Məmmədovun düşdüyü vəziyyətə də təəssüfünü bildirdi. Onun sözlərinə görə, bu gənc yaxın zamanda anasını itirib, yenicə ailə həyatı qurub və uşağı dünyaya gəlib:** "Yaşlı bir nənəsi var. O qadına da baxmalıdır. Amma götürüb onu həbsə atıblar. Bir az vicdan yaxşı şeydir. Onun düşdüyü psixoloji durumu da nəzərə almaq lazımdır. Bir dəfə mərhəmət göstərməklə bir gəncin taleyini başqa yönə yönləndirə bilərlər. Bu dünyanın hirsinə qapılmamaq lazımdır. Ölüm də var. Əsas hesab o biri dünyada veriləcək. Kim haqsız bir şey edibsə, orda hesabını verəcək. Bunu yaşayanlar düşünsünlər. Qərarları da ona görə versinlər".

S.Ağlayan dedi ki, yaxın zamanlarda bir işlə bağlı Bakıya gələcək. Müsahibimiz gəldiyi zaman S.Babayevanın ailəsini, oğlu Ayxanı ziyarət etmək istədiyini dedi: "Mən istəyərəm, amma bilmirəm, onlar buna icazə verərmi? Mən hər zaman deyirəm ki, ilahi ədalət hər gün həqiqəti üzə çıxarır. Kimsə hesab etməsin ki, etdiyi yanına xeyir qalacaq. Məncə, bir an öncə biriləri özünə gəlsin, bu zarafatı qurtarsın, o uşağı da ordan çıxarsın, bağışlasın onu".

❑ **Sevinc TELMANQIZI**

# İnqilabın meyvəsi



**Kənan RÖVŞƏNOĞLU**

## "Ərəb baharı"nın yeganə uğur qazandığı ölkə olan Tunis artıq inkişaf mərhələsini yaşayır

**Ötən gün marketdə xurma almaq üçün məhsullara baxanda gözümə yeni quru və formalı xurmalar dəydi. Satıcı yeni gəldiyini dedi, baxdım üzərində Tunisdə istehsal olunduğu yazılırdı. İnqilabın meyvəsi Azərbaycana da gəlir artıq. Uzun illər Azərbaycan bazarında İran və İsrail xurmaları üstünlük təşkil edib. Tunis məhsulları bazarda təzədir.**

Tunis xurmaları yadıma bir məsələni saldı. Bir neçə gün əvvəl xəbərlərdə rastıma çıxdı ki, Tunisdə turizm sürətlə inkişaf edir. Artıq avropalıların əsas seçimi Tunisdir. Ərazinin həm Avropaya yaxınlığı, həm də qiymətlərin həddən artıq ucuz və sərfəli olması, nəhayət, ən mühümü ölkədə sabitliyin əldə olunması Avropa turistlərini Tunisə cəlb edir. 2010-cu ilin dekabrında baş verən üsyan və hakimiyyət dəyişikliyindən sonra Aralıq dənizinin sahilində yerləşən bu gözəl ölkədən turistlərin ayağı kəsildi. Səbəb real idi, çünki inqilab və başlayan xaosun bürüdüyü ölkəyə bir qayda olaraq turist gəlmir.

Ancaq indi artıq inqilabdan 3 ildən artıq vaxt keçib və ölkədə iqtisadi vəziyyət getdikcə stabilləşir. Doğrudur, işsizlik, siyasi böhranlar hələ tam aradan qaldırılmayıb, ancaq bütün bunlara rəğmən Tunisdə xarici turistlərə qarşı hələlik heç bir hücum qeydə alınmayıb. Ölkə hökuməti radikal islamçı qruplaşmaları ifşa edərək, ləğv edib. Bugünlərdə Avropa mediasına verdiyi müsahibədə Tunisin yeni baş naziri Mehdi Cümə avropalıları Tunisə dəvət edirdi. "Bu gün Tunis küçələrində həyatın keçmişdə olduğu kimi davam etdiyinə sizi inandıra bilərəm. Havalar çox gözəldir və biz də bu gözəl zamanın, sakit Tunisin həyatın zövqünü yaşayırıq" - deyə Cümə bildirib.

"Ərəb baharı" ilk dəfə Tunisdə başladı. 1988-ci ildən etibarən ölkəni "dəmir yumruqla" idarə edən Zeynalabidin bin Əlinin hökuməti başdan ayağa korrupsiyaya bulaşmışdı, ölkədə kasıblıq, işsizlik geniş yayılmışdı, əsas gəlirli sahələr hakim ailənin, o cümlədən prezidentin həyat yoldaşı Leyla Trablisinin şirkətlərinin nəzarətində idi. Böyük turizm imkanlarına, Aralıq dənizinin sahillərindəki gözəl iqliminə, o cümlədən cənub-şərqdə enerji ehtiyatlarına rəğmən Tunis regionun ən kasıb ölkələrindən idi. 10 milyonluq əhalisi olan ölkədə işsizlik, yoxsulluq, ən əsası sosial ədalətsizlik və korrupsiya hökm sürürdü. Sidi Buezid şəhərində küçə ticarətçisi Məhəmməd Buəzizinin bələdiyyə işçilərinin küçədə ticarət etdiyi arabasını almasına etiraz edərək özünü yandırması ilə alovlanan inqilab Tunisdə bir ay ərzində hakimiyyətin devrilməsi ilə nəticələndi. Və eyni zamanda ərəb regionunda böyük bir inqilab hərəkatının başlanmasına səbəb oldu. Tunisdə başlayan inqilab bütövlükdə Yaxın Şərq və Şimali Afrika regionunda 4 ölkədə hakimiyyət dəyişikliyinə, yerdə qalan dövlətlərdə isə etiraz aksiyaları, hökumətlərin *(İordaniya, Mərakeş, qismən Küveyt)* istefaya getməsi, bir neçə ildir davam edən etirazlara və toqquşmalara (Suriya, Bəhreyn) səbəb oldu. Ancaq təəssüf ki, bu ölkələrdən yalnız Tunis inqilab sınağından uğurla çıxdı. Tunisdən dərhal sonra inqilabın baş verdiyi Misirdə artıq ötən il əks-inqilab baş verdi və hərbçilər hakimiyyəti ələ aldılar. Tunislə Misirin qonşusu olan Liviyada isə Qəzzafi artıq dünyada olmasa da, ölkədə radikal islamçı silahlı qruplarla ordu qüvvələri arasında qızğın döyüşlər gedir, bir çoxlarına görə xaos davam edəcək və Liviya hətta bölünə bilər. Yəmən inqilabı isə Əli Abdullah Salehin devrilməsi ilə nəticələnsə də, bu ölkədə hələ də normal siyasi sistem formalaşmayıb. Ölkədə radikal islamçılarla bağlı təhlükə günü-gündən böyüyür.

Tunisdə inqilabın tez və uğurlu nəticələnməsi isə bir sıra səbəblərlə bağlıdır. Birincisi, ölkədə güclü siyasi institutlar vardı. Mülayim islamçı "ən-Nahda" hərəkatı Tunisdə böyük nüfuza malik olsa da, hərəkat ölkədə radikal islamın yayılmasına qarşı çıxdı, eyni zamanda milli birlik hökumətinin qurulmasına dəstək verdi. Məhz inqilabdan dərhal sonra Tunisdə yaranan 150-dək siyasi partiya ölkədə müxtəlif siyasi cinahların, o cümlədən solların ciddi təşkilatlarının olması Tunisdə zəngin siyasi palitranın olması ilə yanaşı, bu ölkədə normal siyasi sistemin qurulacağına ümidləri artırıb. Tunis "ərəb baharı" dalğasında hələlik özünü doğruldan yeganə ölkə olaraq qalmaqdadır.

YENİ MÜSAVAT
N 168 (5877) 2 iyul 2014

## Ərdoğan namizəd oldu, AKP-dən istefa verir...


Rəcəb Tayyib Ərdoğan

**AKP-nin aylardır ki, maraqla gözlənilən prezidentliyə namizədi açıqlanıb. AKP-nin Çankaya Köşkünə namizədini Mehmet Əli Şahin açıqlayıb.**

Medianews.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, baş nazir təxminən 4 min AKP-çinin qatıldığı yığıncaqda partiya üzvlərinə səslənib:

«Prezident tərəfsiz olsun deyərkən, prezidentin dövlət tərəfindən millətin qarşısında dayanmasını istəyirlər. Bu dövr artıq bağlandı».

Ərdoğan ailəsindən və dostlarından halallıq istəyib və necə prezident olacagından danışıb. O, tutduğu bütün rəsmi vəzifələrdən istefa verəcəyini bildirib.

Türkiyə qanunlarına görə, prezidentliyə namizədliyini irəli sürən şəxs üzv olduğu partiyadan və tutduğu dövlət vəzifəsindən, həmçinin Türkiyə Böyük Millət Məclisi üzvlüyündən istefa verməlidir.

Ərdoğan 10 avqust tarixində keçiriləcək prezident seçkilərində hər kəsi tərəddüd etmədən özünə səs verməyə çağırıb: "Mən baş nazir olduğumda yalnız AKP-çilərin verdiyi səslərlə nazir olmadım, 77 milyonun baş naziri oldum. Və 10 avqustda da mənə səs verən və verməyən hər kəsin prezidenti olacağam. Buna heç kimin şübhəsi olmasın".



## Elektrik enerjisinin bahalaşması erməniləri küçələrə tökdü

**Ermənistanda ev abonentləri üçün elektrik enerjisinin qiyməti avqust ayının 1-dən 9,9 faiz bahalaşacaq. Modern.az saytı Ermənistan mətbuatına istinadən xəbər verir ki, bu haqda qərar respublikanın ictimai xidmətlərin tənzimlənməsi üzrə komissiyada qəbul olunub.**



Elektik enerjisinin qiymətinin bahalaşmasına etiraz edən ermənilər bu saatlarda paytaxt İrəvanda aksiya keçirirlər. Polislə aksiya iştirakçıları arasında zaman-zaman qarşıdurma da baş verir.

Ermənistan müxalifətinin nümayəndələri hesab edirlər ki, elektrik enerjisinin bahalaşması əhalinin ölkədən çıxıb getməsi prosesini daha da sürətləndirəcək.

## Bir nəfəri dərman, bir nəfəri sirkə turşusu öldürdü

**İyunun 28-də Bakı şəhər sakini Xatirə Gözəlova evində sirkə turşusundan zəhərlənib. Modern.az Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, xəstəxanaya yerləşdirilən X.Gözəlova iyunun 29-da orada dünyasını dəyişib.**

İyunun 30-da dərmandan zəhərlənərək xəstəxanaya yerləşdirilən Gəncə şəhər sakini Turanə Qurbanova da orada ölüb. Digər məlumata görə, Bakı şəhər sakini Nərman Həsənov, Abşeron rayonu Fatmayı kənd sakini Vəsilə Məmmədova, Gəncə şəhər sakinləri Pərvanə Kərimova dərmandan zəhərlənmə ilə xəstəxanalara gətiriliblər.

# Leyla Yunus ATƏT PA-nın sessiyasına buraxılmamasından danışdı

### "Azərbaycandakı qanunsuzluqları dünyaya çatdıracağımdan çəkindiklərinə görə iclasa qatılmama imkan vermədilər"

**İyunun 28-dən etibarən Bakıda ATƏT-in Parlament Assambleyasının 23-cü illik sessiyası keçirilir. Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus iştirak etmək üçün qeydiyyatdan keçməsinə rəğmən toplantıya buraxılmayıb. Hüquq müdafiəçisi sessiyaya buraxılmamasını Azərbaycan hakimiyyətinin növbəti özbaşınalığı adlandırıb.**

Hüquq müdafiəçisi baş verən qanunsuzluqlarla bağlı "Yeni Müsavat"a açıqlama verib: "Mənim elektron poçtuma sessiyada iştirak etmək üçün dəvətnamə gəlmişdi. Sessiyadan bir gün öncə həmin yerə getdim. Mənə şəxsiyyət vəsiqəmi göstərməyimi dedilər. Mən də vəsiqəmi göstərdim. Onlar iclasa buraxılmayacağımı bildirdilər. Bunların qanunsuz olduğunu bildirərək, dəvətnaməni göstərdim. Amma onlar buna məhəl qoymadılar. Stul tapıb, qapının ağzında oturdum. Daha sonra 5 nəfər mənə yaxınlaşıb, stulun lazım olduğunu deyərək, durmağımı tələb etdilər. Buna etiraz etdim. Hətta sessiyaya buraxılmağım üçün tədbirin təşkilatçılarından mənə yaxınlaşan da oldu. Onlara "bura Azərbaycandır, heç kəs ağalıq edə bilməz" cavabını verdilər. İspaniyadan gələn qonaq da mənim tədbirdə iştirak hüququmun olduğunu bildirdi. 1 saatdan artıq


Leyla Yunus

gözlədikdən sonra məcburiyyət qarşısında qalıb oranı tərk etdim".

**Leyla Yunus tədbirə buraxılmamasının səbəblərindən də danışıb:** "Onlar məndən qorxurlar. Açıq danışacağımdan, Azərbaycanda olan qanunsuzluqları dünyaya çatdıracağımdan çəkindiklərinə görə məni sessiyaya buraxmadılar. Anlamırlar ki, mən avropalı deputatlarla, səfirliklərlə görüşmüşəm. Onların hər biri mənimlə ayrı-ayrılıqda görüşdülər. Görüşüm zamanı bütün həqiqətləri onlara dedim. Azərbaycan iqtidarı çalışır ki, müstəqil səslər olmasın. Yalnız onların sözlərini deyən səslər olsun".

**Hüquq müdafiəçisi iki aydan çoxdur ki, davam edən istintaqı barədə də danışıb:** "İstintaq demək olar ki, aparılmır. Sonuncu dəfə mayın 29-da mənə zəng ediblər. İstintaqa gəlməyimi dedilər. Onlara bildirdim ki, qanunsuz saxladığınız sənədlərimi qaytarın, mən 1 saatdan sonra istintaqa gələcəm. Prokurorluğun mətbuat xidməti bununla bağlı açıqlama verdi. Biz də onlara sərt cavab verdik. Onlardan qanunla işləməyi tələb etdik. Qanunla işləyə bilmədiklərini, qanunu pozduqlarını bizdən yaxşı anladılar. Mən hər zaman qanunu tələb edəcəm".

**Leyla Yunus aprelin 19-da həbs olunan "Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun istintaqı ilə bağlı da suallarımızı cavablandırdı:** "Rauf Mirqədirov aprelin 19-da həbs olunub. İndiyə qədər iki dəfə dindirilib. Onun işi demək olar, dondurulub. Casus olması barədə heç bir sübut yoxdur. Onun işindən QHT-lərə, mətbuata təzyiq kimi istifadə edirlər. Nəticədə "Ayna-Zerkalo" kimi qəzet bağlanılıb. İndiyə qədər prokurorluğun istintaqa təzyiqi var. Ermənilərlə bu və ya digər formada görüşənlər istintaqa çağırılır. Heç bir sübut yoxdur, istintaq getmir. Bunlar ondan ibarətdir ki, mətbuata, vətəndaş cəmiyyətinin üzvlərinə daim təzyiqlər olsun. Bu baxımdan Raufun işi göz qabağındadır".

❑ **Cavanşir ABBASLI**

# Qəhrəman Qarabağ döyüşçüsünün 67 yaşı oldu

### Üç oğlu ilə Qarabağ savaşında iştirak etmiş komandir Hacı Əkbər Rüstəmov






**Qarabağ döyüşçüsü, şəhid atası Hacı Əkbər Rüstəmov iyulun 1-də 67 yaşını tamamladı. Azərbaycan torpaqları uğrunda vuruşmuş, Qarabağ torpaqlarının düşməndən müdafiəsində oğlunu şəhid vermiş Əkbər Rüstəmovun 67 yaşı tamam oldu. Bu təvazökar və mehriban insanı ad günü münasibətilə təbrik edirik.**

Əkbər Rüstəmov son 15 ildə-müqəddəs Həcc ziyarətində olandan sonra dostları, yaxınları arasında həm də Hacı Əkbər kimi çağırılır. Əkbər müəllim 1988-ci ildən milli-azadlıq hərəkatına qoşulub. AXC-nin yerli təşkilatının fəallarından olub. Daha sonra könüllü özünümüdafiə taboruna yazılıb. 845 saylı hərbi hissənin 4-cü bölüyünün komandiri kimi döyüşlərdə iştirak edib. Ə.Rüstəmovla yanaşı oğlanları Sarvan, Sənan və Kənan da Qarabağ uğrunda gedən döyüşlərə qatılıb. Dəfələrlə ölümlə üz-üzə qalan Əkbər Rüstəmov oğlu Kənanla birlikdə Xocalı soyqırımı törədilən gecə yüzlərlə dinc sakinin erməni vəhşiliyindən qurtarılmasında iştirak edib.

1992-ci il may ayının 15-də Ağdamın Abdal-Gulablı kəndi uğrunda gedən döyüşlərdə oğlu, qəhrəman kəşfiyyatçı Sənan Rüstəmov şəhid olub. Oğul itkisi Əkbər müəllimin döyüş ruhunu sarsıda bilmir. 1993-cü ilin mart ayının 1-də Ağdam Şəhər İcra Hakimiyyəti başçısının şəhər üzrə nümayəndəsinin müavini təyin olunur. 1993-cü ilin 22 iyulunda Bakıda olduğu vaxt Ağdam cəbhəsində yaranan vəziyyətlə əlaqədar oğlanları Sarvan və Kənanla yenidən orduya qayıdan Əkbər Rüstəmov həmin səfərbərliyə çağırır və döyüş bölgəsinə yollanır. Bundan sonra müxtəlif hissələrdə xidmət edən komandir 4 oktyabr 1995-ci ildə ordudan tərxis olunur.

Hacı Əkbər Rüstəmov Azərbaycan xalqının Milli Qəhrəmanı olmağa layiq oğullardan biridir. Onun və oğullarının keçdiyi döyüş yoluna nəzər saldıqda bu ailəyə Azərbaycanın dəyərli, qəhrəman ailəsi adını verməmək mümkün deyil. Hacı Əkbər yaşının bu çağında da Qarabağ müharibəsi başlasa döyüşə qatılmağa hazırdır. Mətbuata açıqlamalarında o, dəfələrlə şəxsən bunu deyib.

**Hacı Əkbər yaşının bu çağında da Qarabağ müharibəsi başlayanda döyüşə qatılmağa hazırdır. Bunu Hacı Əkbər 67 yaşının tamam olduğu gün "Yeni Müsavat"ın təbrikini qəbul edərkən söylədi:** "Nə qədər ki, torpaqlarımız işğal altındadır, mən vətənin əsgəriyəm. İstənilən döyüşə hazıram. 8 illik döyüş təcrübəm var, yaşımın bu vaxtında da düşmənlə döyüşməyə getmək iqtidarındayam. Bu, mənim və övladlarımın, nəvələrimin yoludur. Torpaqlarımız uğrunda özümün və oğlanlarımın döyüşməsindən qürur duyuram. Mən bütün sözlərimi tam səmimiyyətlə deyirəm".

**Keçmiş komandir işğal olunmuş bir neçə rayonu Rusiyanın Ermənistana təsir göstərərək geri qaytarılacağı barədə son vaxtlar yayılan məlumatların doğrulacağına inanmadığını da dedi:** "Əvvəla, biz Qarabağı bütöv azad etməliyik. Çünki Şuşasız, Laçınsız, Kəlbəcərsiz Qarabağ, Qarabağsız Azərbaycan yoxdur. Bizim başımıza bəlaları ermənilər Rusiyanın köməyi ilə gətiriblər. Rusiya heç vaxt Azərbaycanın torpaqlarını geri qaytarmağa kömək etməz. İndi Rusiya bizi aldatmaq istəyir. Torpaqlarımızın azadlığı ancaq hərbi əməliyyatlardan keçir. Azərbaycan ordusuna arxalanmalıdır. Biz o vaxtlar döyüşərkən əksəriyyətimizdə ov tüfəngləri idi. Tək-tək adamlar avtomatla döyüşürdülər. Silah-sursat yox idi. İndi belə deyil. Silah, texnika problemimiz yoxdur. Azərbaycan qısa müddətdə hərbi yolla torpaqlarını azad edə bilər".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 168 (5877) 2 iyul 2014

**İyulun 1-də Şirvan Apelyasiya Məhkəməsində Müsavat başqanının həbsdəki müşaviri Yadigar Sadıqovun şikayətinə baxılıb. 3 saata yaxın davam edən məhkəmə prosesində ciddi ziddiyyətlər ortaya çıxıb. Məhkəməyə təqdim olunan sübutlar, şahid ifadəsinin alınması məhkəməni ifşa edib.**



# Şahid Yadigar Sadıqovun xeyrinə ifadə verdi

## İsa Qəmbərin müşavirinin apelyasiya məhkəməsi davam edir

Məhkəmə ilə bağlı daha ətraflı məlumatı isə “Yeni Müsavat”a Yadigar Sadıqovun hüquqlarını müdafiə komitəsinin sədri **Elman Fəttah** verdi.

O, müdafiə tərəfinin məhkəməni ifşa edəcək vəsatətlər irəli sürdüyünü, hakimin də bu vəsatətləri rədd etdiyini bildirdi: “Məhkəmədə hər iki vəkil-Xalid Bağırov və Adil İsmayılov iştirak edirdi. Ekspertiza rəyindən sonra müdafiə tərəfi yeni sübutlar əldə edib. Mübahisəli məqamlar həddindən artıq çoxdur. İbtidai istintaqda müstəntiq eyni saatda həm zərərçəkəni təcili tibbi yardımla müalicəyə göndərib, həm də dindirib. Dindirmə ilə bağlı təcili yardımın müayinəsi vaxt baxımından üst-üstə düşür. Ona qoyulan diaqnoz ümumiyyətlə xəsarətlə əlaqədar olmayıb. Ona görə də əlimizdə olan əsaslı, mötəbər vəsatətləri hakimə təqdim etdik. Hakim müdafiə tərəfinin verdiyi vəsatəti bir neçə yerə parçalayaraq, yalnız ekspertin dindirilməsi hissəsini qüvvədə saxladı. Ekspert rəyi ilə bizim təqdim etdiyimiz sübutlar arasında çox ciddi təzadlar var. Buna görə də hakim təkrar ekspertiza ilə bağlı vəsatəti rədd etdi, sadəcə, ekspertin dindirilməsi hissəsini təmin etdi”.

**E.Fəttah məhkəmədə dindirilən şahid Şahin Ağayevin ifadəsi ilə bir daha məhkəmənin ifşa olunduğunu söylədi:** “Məhkəmədə Şahin Ağayev adlı şahid dindirildi. Şahidin ifadəsindən açıq-aydın göründü ki, ümumiyyətlə istintaqın iddia etdiyi xuliqanlıq hadisəsi qətiyyən baş verməyib, belə bir hadisə olmayıb. Yadigar Sadıqovun döydüyü iddia olunan Rəşid Kərimov həmin gün özü Yadigar Sadıqova yaxınlaşıb, onu provokasiyaya cəlb etməyə cəhd göstərib və buna nail olmayıb, heç bir xuliqanlıq hadisəsi də baş verməyib. Məhkəmədə Rəşid Kərimovun özü iştirak etmirdi. Bununla bir daha sübut olundu ki, nəinki xuliqanlıq hadisəsi, ümumiyyətlə həmin gün heç bir hadisə olmayıb. Bu, sadəcə, demokratiya uğrunda vuruşan Yadigar Sadıqovu həbsdə saxlamaq, ondan qisas almaq üçün hakimiyyətin oyunudur. Yadigar Sadıqovun həbsi sırf siyasi sifarişli həbsdir”.

E.Fəttahın sözlərinə görə, apelyasiya mərhələsi hələ yekunlaşmayıb, növbəti məhkəmə iclası iyulun 22-si saat 15:00-a təyin olunub.

Xatırladaq ki, Y.Sadıqov ötən il iyunun 27-də Lənkəran sakini Rəşid Kərimovun şikayəti əsasında şübhəli şəxs kimi həbs edilib. R.Kərimov bildirir ki, iyunun 25-də Sadıqov onu döyüb. Onun müraciəti KİV-lərdə yayılıb və onun əsasında Lənkəran Rayon Polis İdarəsi Y.Sadıqov barəsində Cinayət Məcəlləsinin 221.3 (silah və ya silah kimi istifadə edilən predmetdən istifadə ilə xuliqanlıq) maddəsi ilə ittiham verib. O, 6 il müddətinə azadlıqdan məhrum olunub.

❑ **Nərgiz YAQUBLU**

# Neft yenidən bahalaşıb

## Ekspertlər bildirirlər ki, yaxın aylarda neftin qiyməti 105-110 dollar həddində qalacaq

**Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin dəyəri 0,21 dollar bahalaşaraq 1 barelə görə 105,58 dollar təşkil edib.**



“APA-Economics”in məlumatına görə, ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri 0,06 dollar bahalaşaraq 112,42 dollar olub.

“Caspian Barrel” isə son 100 ildə Azərbaycanın dünya neft bazarından xüsusi çəkisinin necə dəyişməsi barədə yazıb. 1900-cü ilin yekunlarına görə, Azərbaycanda 9 milyon 836 min ton neft hasil olunub. Bu, Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytında öz əksini tapıb. Neft tariximizi əks etdirən digər məlumatlara görə isə həmin il Azərbaycanda hasilat dünya neft hasilatının yarısına bərabər olub.

Demək, bu fotoda əks olunan rəqəmdəki faizlə götürsək, Rusiya İmperiyasının digər bölgələrində, Bakı və Abşeronu çıxmaqla, payı cəmi 1,6 faiz təşkil edib.

“Caspian Barrel” BP Statistical Review of World Energy məcmuəsindəki məlumatlara əsaslanıb bildirir ki, 2013-cü ilin yekunlarına görə Azərbaycanın dünya neft hasilatındakı payı 1,17 faiz təşkil edib. Son illər Azərbaycanın dünya neft bazarından xüsusi çəkisi məhz bu göstərici ətrafında cərəyan edib.

**Ekspertlərin bahalaşma ilə bağlı mövqeyi birmənalı deyil. Ekspert Zöhrab İsmayılın sözlərinə görə, neftin bahalaşması artıq dayanıb:** “Bahalaşma iyunun ikinci on günlüyündə baş vermişdi. Əgər iyunun 20-də London birjasında brent markalı xam neftin qiyməti 115 dollara çatmışdısa, bu gün artıq qiymət 112 dollara düşüb. Daha doğrusu, qiymətin enməsi iyunun son 10 günlüyündə başlayıb”.

**Ekspert Samir Əliyevin sözlərinə görə, əslində proqnozlar 2014-cü ildə neftin ucuzlaşacağını göstərirdi. Beynəlxalq proqnozlar bu il neftin hər barelinin 60-80 dollar civarına düşəcəyini deyirdi. Ancaq göründüyü kimi, proqnozlar özünü doğrultmadı. S.Əliyevin sözlərinə görə, bu gün dünya bazarında neftin ucuzlaşması üçün atılan addımlara rəğmən baş verən siyasi gərginlik bu addımların effektini aşağı salır:** “Dünyanın ən böyük neft idxalçısı olan ABŞ həm neft istehsalını artırmaq, həm də neft ixracına qoyulan məhdudiyyətləri yumşaltmaq siyasəti yürüdür. Üstəgəl, İrana tətbiq edilən embarqonun yumşaldılması bazara müsbət impuls verir. Faktiki olaraq neftin bahalaşması fundamental səbəblərlə bağlı deyil. Neft regionunda hərbi əməliyyatların genişlənməsi bazarı daim gərginlikdə saxlayır və neftin ucuzlaşmasına imkan vermir.

Baş verən geosiyasi proseslər proqnozlara yenidən baxmağa vadar edib. Hazırda Brent markalı neftin bir barelinin qiymətinin 2015-ci ildə $104,80, 2016-cı ildə $102,10 olması proqnozlaşdırılır. Baş verən proseslər neftin 2014-cü ildə 100 dollardan aşağı düşməsi ehtimalını azaldır. Hərbi əməliyyatların sənginməsi üçün aylar ötəcək. Güman ki, neftin qiyməti 105-110 dollar həddində qalacaq".

**İqtisadçı Qadir İbrahimli isə bildirir ki, bahalaşma ənənəvi qaydada neft gəlirlərinin artmasına səbəb olacaq. Qeyri-adi təsirləri olmayacaq:** “Yəqin ki, bir azdan Avropa alternativ enerji mənbələrinə çıxış əldə etdikdən sonra neft ucuzlaşacaq. Qərb istəyir ki, alternativ enerji mənbələrinə çıxış imkanları əldə etsin, Rusiyanın enerji silahını əlindən almaqla ona təsir etsin. Neftin qiymətinin ucuzlaşması Rusiyanın gəlirdən məhrum olması deməkdir”.

❑ **RÖYA**

# Azandan azmaq...



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Dindar deyiləm. Namaz qılmıram, oruc tutmuram. Ancaq təbii ki, dini kimliyim var, İslam daşıyıcısıyam, müsəlmanam... Qismətimdən, uşaqlıqdan bu günə qədər yaşadığım yerlərdə - evimizin yaxınlığında məscid olub. Sanki qulaqlarım vərdiş edib hər səhər, axşam azan səsi eşitməyə. Bu ecazkar, ekzotik səda ilə gözlərini açmaq, yarıyuxulu azanı dinləyib yenidən yatmağın başqa bir ləzzəti var mənim üçün.**

Bəzən axşamlar evə tez gedəndə uşaqlarımı da götürüb şam azanı zamanı qəsəbəmizdəki məscidin həyətinə gedirik, oradakı balaca bağda gəzişirik, “Şollar suyu” adlanan bulaqda su içib, əl-üzümüzü yuyub gəlirik. Uşaqlarım üçün də xüsusi maraq doğurur məscid ziyarəti. Bəzən azan səsi eşidiləndə məndən tələb edirlər ora getməyi...

Türkiyədə olarkən apardığım müşahidələr zamanı şahidi olmuşdum ki, buradakı turistlər, qeyri-müsəlmanlar azan səsinə xüsusi diqqətlə qulaq asır, onu ekzotik səs kimi qiymətləndirirlər. Bütün müsəlman ölkələrində, hətta müsəlman ölkəsi olmayan, ancaq İslam daşıyıcılarının kompakt yaşadıqları ərazilərdə azan səsi eşidilir. Çox az-az adam tapılar ki, azan səsinin qeyri-adi bir rahatlıq gətirmədiyini iddia etsin.

Dindar, qeyri-dindar olub-olmamağımızdan asılı olmayaraq, müəyyən bir ateist kəsim istisna olmaqla (hərçənd tanıdığım bir ateist var, o, azanda xüsusi bir çəkicilik olduğunu, rahatlıq gətirən çağırış olduğunu etiraf edir - E.M) biz müsəlmanıq. Azərbaycan da dünyada İslam ölkəsi kimi tanınır. Təbii, burada din dövlətdən ayrıdır. Bizim ölkəmizdə, dövlətimizin ərazisində fəaliyyət göstərən radiolar, telekanallarda azan səsinin eşidilməsi təbiidir, hətta zəruridir. Telekanallarda düşük müğənnilərin, “rəngli”lərin bayağı ifalarına gen-bol yer ayıranlar da başa düşməlidir ki, efirlərdən heç olmasa müqəddəs Ramazan ayında azan səsinin eşidilməsi ehtiyacı, tələbatı var.

Dinin dövlətdən ayrı olduğu digər ölkələrdə telekanallarda dini verilişlər verilir, vaxtaşırı azan səsləndirilir. Əgər ölkə əhalisinin təxminən 90 faizi müsəlmandırsa, ən azı 20 faiz inanclı kəsimdirsə, onlar mütləq nəzərə alınmalıdır.

ANS televiziyası digər telekanallardan fərqlənərək Ramazan ayında ənənəvi olaraq iftardan öncə - Şam namazı zamanı efirində azan səsləndirirdi. ANS hansısa radikal dini qruplaşmaya aid deyil, hansısa dini missiya həyata keçirmir. Sadəcə, bildiyim qədər bu telekanalın rəhbərliyində dini inanclı şəxslər var və onlar heç olmasa bu müqəddəs ayda insanların qulağına İslam atributunu duyurmaq istəyiblər. Heç şübhəsiz doğru addımdır, düz işdir. Ancaq telekanala azan səsləndirməyi qadağan etmək istəyirlər, hətta buna ötən günlər ərzində nail olublar da.

Nədən? Dövlət kanalı olmayan, özəl televiziya olan ANS-də azan səsləndirmək kimə nə ziyan gətirə bilər? Normal məntiqlə burada hansısa zərərli cəhət axtarmağın özü qəbahətdir. Ancaq görünən budur ki, kimlərsə bundan bir bəhanə kimi yararlanaraq ANS-lə şəxsi problemində bir təzyiq vasitəsi olaraq yararlanmaq istəyir, ya da kimlərsə xoş görünməyə çalışır, hansısa xarici dairələrin sifarişi icra olunur.

Bu dövlətin başçısı inauqurasiya zamanı həm də Qurana əl basırsa, İslami dəyərlərin qorunması məsələsində həssaslıq nümayiş etdirirsə, kimlərinsə müqəddəs Ramazan ayında ANS-in efirində azan səsləndirməsini yasaqlamağa çalışması dövlətin din siyasətinə qarşı çıxmaq anlamına gəlmirmi?

Ola bilər, hansısa güclü qüvvə İslamdan kənardır, azan səsi ona xoş deyil. Ancaq bu milyonlarla müsəlmanın, oruclu insanların efirdən azan səsi eşitmək haqqının tapdanmasına səbəb olmamalıdır.

Biz demokratik dövlətiksə, üstəlik müsəlman ölkəsiyiksə, müstəqil bir telekanalın efirindən azan səsləndirilməsinin yasaqlanması cəhdi, hətta buna görə telekanalı qapatmaqla hədələmək yumşaq desək, imansızlıqdır.

Qulaqlarımızın azan eşitməsinin bizlərə, dövlətimizə, vətəndaşlarımıza ancaq faydası var, bunun üzərində mübahisəyə belə ehtiyac yoxdur...

YENİ MÜSAVAT
N 168 (5877) 2 iyul 2014



# ABŞ Azərbaycan məmurlarına sanksiya anonsu verib

## “Azərbaycanda da bir sıra məmurlara sanksiyaların tətbiqini istisna eləmirəm, ancaq...”



Ərəstun Oruclu

**ABŞ Konqresinin Helsinki Komissiyasının həmsədri, respublikaçı konqresmen Kris Smit AzadlıqRadiosuna müsahibəsində Azərbaycanda insan haqlarını pozan məmurlar üçün Maqnitski aktı təhlükəsinin olub-olmadığı barədə maraqlı açıqlamalar verib.**

“Rusiyada insan haqlarını pozan şəxslərlə bağlı Maqnitski aktı var. Sizcə, bu aktı Azərbaycanda insan haqlarını pozan şəxslərə qarşı da tətbiq etmək lazımdırmı” sualına cavabında **Kris Smit** deyib ki, ABŞ prezidentinin ayrı-ayrı şəxslərə qarşı viza qadağası və başqa sanksiyalar tətbiq etmək üçün səlahiyyəti var. Prezident istəsə, bu cür sanksiyaları tətbiq edə bilər: “Mən 2004-cü ildə qəbul edilən Belarus Demokratiya Aktının müəllifiyəm. Həmin qanun Aleksandr Lukaşenko ilə bağlı bir sıra şəxslər haqqında sanksiyalara səbəb oldu. Yenə də prezidentin belə bir səlahiyyəti var və istəsə onu işlədə bilər. Maqnitski aktı ona Konqres tərəfindən "yaşıl işıq" idi, amma prezidentin indi də səlahiyyəti var".

**Konqresmen deyib ki, sanksiyalar dövləti yox, konkret şəxsləri hədəf almalıdır:** “Mənim düşüncəm budur ki, sanksiyalar nə qədər fokuslanmış olsa, o qədər yaxşıdır. Sanksiyalar repressiyalardan əziyyət çəkən xalqları deyil, repressiyaları tətbiq edən şəxsləri hədəf alsa, yaxşıdır.

Biz İranla bağlı eyni şeyi etdik. Bəzi sanksiyalardan bütövlükdə xalq əziyyət çəkirdi. Biz ayrı-ayrı şəxslərə tətbiq etdik. Məncə, gediləsi yol budur".

**“Şərq-Qərb” Araşdırmaları Mərkəzinin sədri Ərəstun Oruclu Kris Smitin bu açıqlamasını şərh edərkən bildirdi ki, açıqlama anons hesab edilə bilər:** “Bu açıqlamada əslində təəccüblü bir şey yoxdur. Rusiyalı məmurlara qarşı "Maqnitski qanunu"nun qəbulundan və tətbiqindən sonra söz-söhbətlər gedirdi ki, onu başqa ölkələrə də tətbiq eləmək, ya da ki, bəzi ölkələrə dair ona uyğun qanunlar hazırlamaq lazımdır. Söhbət Azərbaycana gəlib çıxırsa, biz bilirik ki, uzun müddət ABŞ Azərbaycanda hüquq və azadlıqların mərhələ-mərhələ məhdudlaşdırılmasına göz yumub. Çünki ortada bir enerji əməkdaşlığı olub. Əslində 2014-cü il də bu baxımdan Azərbaycan hakimiyyəti üçün ciddi bir dövr idi. Ona görə ki, bir sıra məsələlər 2014-cü ilin sonuna yekunlaşmaq üzrədir. O cümlədən Əfqanıstandan ABŞ qoşunlarının çıxarılması və bir sıra regional məsələlər bu ilin sonuna yekunlaşmalıdır. Bu tərəfdən də Rusiyanın Avrasiya İttifaqı yaratmaq və Azərbaycanı da oraya daxil etmək istəyinin ortaya çıxmasından sonra Rusiyanın istəyini yerinə yetirmək istəyində olan məmurların ABŞ-a qarşı kampaniya başlatmasına Vaşinqton sanksiyalarla cavab verə bilər. Cənab Kris Smitin açıqlaması da əslində bir anons və xəbərdarlıq kimi də qəbul olunmalıdır".

**ABŞ rəsmisi qeyd edib ki, Azərbaycan nə qədər ki, öz xarici siyasət kursunu birmənalı şəkildə müəyyənləşdirmək istəmir, təzyiqlər güclənəcək. Təzyiq metodlarından biri də məmurlara sanksiyalar məsələsi ola bilər:** “Cənab Kris Smit əslində məmurlara sanksiyanın mexanizmini də göstərib ki, bu, prezident Obamanın səlahiyyətinə aid məsələdir. ABŞ artıq fərqindədir ki, insan haqları pozuntularına görə ölkələrə sanksiyalar zərərlidir, xalqlar bundan əziyyət çəkir. Ona görə də ən düzgün üsul kimi insan haqlarını pozan məmurların özlərinə qarşı sanksiyaların tətbiqi hesab edilir. Azərbaycanda da bir sıra məmurlara sanksiyaların tətbiqini istisna eləmirəm. Ancaq bu hadisənin indi baş verəcəyini düşünmürəm”.

❑ **E.SEYİDAĞA**

# Hafiz Məmmədov tam iflas ərəfəsində

## “Bakı” klubunun futbolçuları belə bahalı maşınlarını satırlar

**“Hafka” ləqəbli iş adamı Hafiz Məmmədovun ətrafında yaranan qalmaqal böyüyür. Üzləşdiyi maliyyə böhranını heç cür aradan qaldıra bilməyən Məmmədovun bütün layihələri iflasa uğrayır. Mətbuat Hafiz Məmmədovun prezidenti olduğu “Bakı”da 5 aydır ki, məvaciblərin verilmədiyini bildirir. Bunu komandanın futbolçuları da etiraf edirlər. Hətta 5 aydır məvacib ala bilməyən futbolçular bahalı maşınlarını da satmalı olublar.**



Hafiz Məmmədov

“Bakı” növbəti mövsümün hazırlıqlarına isə hələ də start verməyib. Azərbaycan premyer-liqasında çıxış edən klublar xaricdə təlim-məşq toplanışı keçdikləri halda “Bakı” Biləcəridən kənara çıxa bilməyib. Təbii ki, bütün bunların səbəbi Hafiz Məmmədovun biznesində çöküş yaşamasına bağlıdır.

AFFA-dakı mənbələrdən publika.az saytına verilən məlumata görə, “Bakı” bu mövsüm Azərbaycan çempionatında iştirak etməyə bilər. Belə ki, klubdan uzun müddətdir məvaciblərini ala bilməyən futbolçular AFFA-ya müraciət ediblər. Bundan əlavə, “Bakı” növbəti mövsüm premyer-liqada iştirak etmək üçün bank təminatını da verə bilməyib.

Artıq “Bakı”nın durumu AFFA-da müzakirə olunub. Qurumun baş katibi Elxan Məmmədov AFFA prezidenti Rövnəq Abdullayevə məsələ ilə bağlı məruzə edib. Rövnəq Abdullayev 1-2 həftə də gözləməyi məsləhət görüb. “Bakı”nın maliyyə problemləri bu müddətdə də həllini tapmasa, real addımlar atılacaq. Belə ki, “Bakı” rəsmən müflis elan olunacaq, bütün futbolçulara azad agent statusu veriləcək. Komanda Azərbaycan Premyer-Liqasında çıxışını dayandıracaq.

Mənbənin verdiyi məlumata görə, “Bakı”nın əvəzinə elitada “Rəvan” çıxış edə bilər. Rəsmi qərar qəbul olunandan sonra məsələ ilə bağlı “Rəvan” rəhbərliyinə müraciət olunacaq.

Ancaq bu komandanın “Bakı”nı elitada əvəz edəcəyi müəmmalıdır. “Rəvan”ın sponsoru, “Nurgün Motors” şirkətlər qrupunun sahibi Nuru Əliyevlə Hafiz Məmmədov qudadır. Məhz bu məqamı nəzərə alsaq, Nuru Əliyev mənəvi amilləri əsas gətirərək “Rəvan”ın “Bakı”nı əvəz etməsinə razılıq verməyə bilər.

Yaxın günlərdə bütün bu məsələlərlə bağlı konkret qərarların qəbul olunacağı gözlənilir.

# Vidadi İsgəndərli DİN-də üç saat dindirilib

## Hüquq müdafiəçisinin hədə və təhdidlərlə bağlı ifadəsi alınıb



Vidadi İsgəndərli

**İyunun 30-da Daxili İşlər Nazirliyi (DİN) Ağır Cinayətlərə dair İstintaq İdarəsinin mühüm işlər üzrə müstəntiqi Samir Məcidov hüquq müdafiəçisi Vidadi İsgəndərlini dindirib. V.İsgəndərli musavat.com-a bildirdi ki, müstəntiq iş üzrə bütün materialları toplayıb, məsələni icraata götürüb və üç saatdan çox ifadəsi alınıb. Onun dindirilməsinə səbəb hüquq müdafiəçisinə olan təzyiqlərlə əlaqədar DİN-ə etdiyi müraciətdir.**

V.İsgəndərli deyir ki, nəqliyyat naziri Ziya Məmmədov və onun Göyçayın icra başçısı olan qohumu Mənsur Məmmədovun fəaliyyəti haqda kəskin çıxışlarından sonra təzyiqlərə məruz qalıb, özünə və ailəsinə qarşı hədə, təhdid dolu zənglər edilib.

V.İsgəndərlinin sözlərinə görə, mayın 6-da ona zəng edərək evini bomba ilə partlatmaqla hədələyiblər. Hüquq müdafiəçisi 102 xidmətinə zəng edib, 30 nəfərdən ibarət əməliyyat qrupu göndərilib.

“İki gün sonra Göyçayın polis rəisi İslam Hümbətov zəng edib, məni hədələyən şəxsi müəyyən etdiklərini və onu tutduqlarını dedi. Göyçay polisində izahatımda yazdım ki, bu şəxs Mənsur və Ziya Məmmədovun adamıdır. Siz burada heç nə edə bilməyəcəksiniz, bu materialı Bakıya göndərin. Bu ərizəni yazıb, Bakıya gəldim”.

**Hüquq müdafiəçisi Bakıya qayıdandan sonra Göyçayın icra başçısının təkidi ilə onu hədələyən şəxs - Emil Məmmədov barəsində cinayət işi başlanıb. Ancaq həbs edilməyib. Hüquq müdafiəçisi DİN-ə müraciət edib, Göyçaydakı qərar ləğv olunub:** “İş nazirliyin Ağır Cinayətlərə dair İstintaq İdarəsinə həvalə olunub. Mənim müstəntiq tərəfindən 3 saatdan çox dindirilməsi bu işin gedişində müsbət haldır. Emil Məmmədov bu hadisələrdə fiqurdur. Ondan istifadə edirlər. Mənə qarşı təhdidlərin, hədələrin hardan gəldiyi məlumdur”.

❑ **E.SALAMOĞLU**

# KXCP hakimiyyətə və partiyalara çağırış etdi

## “Bələdiyyələr yerlərdə real gücü olmayan əhəmiyyətsiz qurumlara çevrilib”

**KXCP bu ilin dekabrında keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı ictimaiyyətə müraciət edib. Partiyanın mətbuat xidmətindən “Yeni Müsavat”a verilən xəbərə görə, müraciətdə bildirilir ki, yarandığı gündən icra hakimiyyətinin əlavəsinə çevrilmiş bələdiyyələrin yerli idarəetmədən uzaq formal fəaliyyət göstərdiyi şəraitdə artıq dördüncü dəfədir ölkəmizdə bələdiyyə seçkiləri keçiriləcək.**

Seçkilərin saxtalaşdırılması, zəruri qanunvericilik bazasının olmaması, mövcud qanunların icra edilməməsi, hakimiyyət orqanlarının üzərilərinə götürdüyü öhdəlikləri yerinə yetirməmələri nəticəsində bələdiyyələr yerlərdə real gücü olmayan əhəmiyyətsiz qurumlara çevrilib. Ölkədə azad, şəffaf və ədalətli seçkilərin keçirilməməsi yerli idarəetmə orqanlarının normal formalaşmasına imkan vermir. Ölkəmizdəki bütün seçkilər, o cümlədən bələdiyyə seçkiləri kütləvi qanunsuzluqlarla keçirildiyindən bələdiyyələr icra hakimiyyətlərinin maraqları əsasında formalaşır.

**Müraciətdə sonra bildirilir ki, seçkilər bütün mərhələlər üzrə kobud qanun pozuntuları şəraitində, qeyri-demokratik mühitdə keçirilir:** “Seçki qanunvericiliyi yarıtmaz, seçki əraziləri qanunazidd, seçki komissiyaları bir qrupun nəzarətində, seçici siyahıları gerçəklikdən uzaq, qeyri-demokratik seçkiqabağı mühit, total saxtakarlıqla müşahidə edilən seçki günü, şikayətlərin obyektiv araşdırılmaması, ümumiyyətlə tamamilə icra hakimiyyətlərinin maraqları çərçivəsində və nəzarətində keçirilən seçkilər son iyirmi ilin acı gerçəkliyidir”.

**Müraciətdə KXCP yerli idarətmə orqanlarının demokratik yollarla formalaşması, 2014-cü il bələdiyyə seçkilərinin azad, ədalətli və şəffaf keçirilməsi üçün hakimiyyət orqanlarına çağırış edib:** “Hakimiyyət orqanlarını Seçki Məcəlləsində beynəlxalq təşkilatların tövsiyələrinə uyğun olaraq islahatlar aparılması, seçki komissiyalarının siyasi qüvvələrin iştirakı ilə tarazlaşdırılması, seçici siyahılarının nəhayət dəqiqləşdirilməsi, seçkiqabağı demokratik mühitin yaradılması, seçki günü saxtakarlıqların qarşısının alınması, seçki şikayətlərinin obyektiv araşdırılmasının təmin edilməsi və icra hakimiyyəti orqanlarının seçkilərə qanunsuz müdaxilələrinin qarşısının alınması üçün zəruri tədbirlər görməyə çağırırıq”.

Sənədin sonunda siyasi partiyalar, vətəndaş cəmiyyəti, ziyalılar, gənclər, qadınlar, ümumiyyətlə, cəmiyyətin bütün təbəqələri yüksək fəallıqla 2014-cü ilin bələdiyyə seçkilərinə qoşulmağa çağırılır.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 168 (5877) 2 iyul 2014

**"Yeni Müsavat" və "Azadlıq" qəzetləri bu həftədən etibarən 6 günlük iş rejiminə keçir. İndiyə qədər həftənin bütün günlərini iş başında keçirən qəzet kollektivləri şənbə günü istirahət edəcək. Bu qərarın icrası sentyabrın ilk həftəsinə qədər davam edəcək. İki aylıq şənbə günü istirahətindən sonra qəzetlərin yenidən həftəlik iş rejiminə keçəcəyi gözlənilir.**

# "Yeni Müsavat" və "Azadlıq" 6 günlük iş rejiminə keçdilər

## İki qəzet arasındakı razılıqdan sonra bu qərar qəbul edilib; qəzetlər sentyabrın ilk həftəsinə qədər bu şəkildə fəaliyyət göstərəcək







Hazırda ölkəmizdə həftəlik iş rejimində "Yeni Müsavat" və "Azadlıq" qəzetləri fəaliyyət göstərir. İki qəzet arasındakı razılıqdan sonra bu qərar qəbul edilib.

Qərarın qəbul edilməsinə səbəb kimi qəzetlərin yayımına yaradılan süni əngəllər, xüsusilə yay aylarında insanların istirahət zonalarına getmələri göstərilir. Digər səbəblərdən biri də bazar günü istirahət olduğuna görə qəzetlərin tirajının kəskin şəkildə azalmasıdır.

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov** 6 günlük iş rejiminə keçilməsinin səbəbləri barədə bunları deyib: "Yay ayları olması, satışda yaradılan süni əngəllər, əl yayımının sıradan çıxarılması qəzetlərin tirajının azalmasına səbəb olub. Bunun nəticəsində belə bir məsələ ortaya çıxıb ki, qəzetlərin çap versiyasının fəaliyyət göstərməsi tam ziyandır. Qəzetlər artıq özünü doğrultmur. Yay olduğunu, əməkdaşların istirahət hüququnu nəzərə alaraq, belə qərara gəlmişik ki, iki ay müddətində bazar günü çıxan nömrəni dayandıraq. Sentyabr ayından bazar gününün yenidən bərpa olunacağına ümid edirik. Bu addımı atmağımız qəzetin hissə-hissə bağlanması anlamına gəlmir. Sadəcə, yayı nəzərə alıb, bu addımı atmışıq. İnşallah, sentyabr ayından yenidən fəaliyyətimizi bərpa edəcəyik".

**"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifov yay fəsli olduğuna görə bu həftədən etibarən 6 günlük iş rejiminə keçdiklərini bildirdi:** "Bildiyimiz kimi, ölkəmizdə həftəlik iş rejimində fəaliyyət göstərən mətbuat orqanları "Azadlıq" və "Yeni Müsavat" qəzetləridir. Hər iki qəzet arasındakı razılıqdan sonra belə bir qərara gəldik ki, 6 günlük iş rejiminə keçək. Yay fəslində insanlar istirahət etmək üçün başqa yerlərə gedirlər. Bu da istər-istəməz yayıma mane olur. Bundan əlavə, qəzetlərin yayımına mane olan amilləri, əməkdaşlarımızın istirahət hüquqlarını nəzərə alaraq, belə qərar verdik. Həftənin şənbə gününün istirahət üçün seçilməsinin bir sıra səbəbləri var. İlk növbədə, bazar günü qəzetlərin satışının zəif olmasını nəzərə almaq lazımdır. Çünki bazar günü birmənalı olaraq, əksər yerlərdə istirahət günüdür. Ona görə də insanlar bazar günü müxtəlif yerlərdə istirahət edirlər. Amma nəzərə alsaq ki, 1-ci gün qəzetlərin satışında fərqlənən gündür. Bu gün də qəzetlər daha çox satılır. O baxımdan bazar günü iş üçün əlverişli gündür. Onu da qeyd edim ki, sentyabr ayının ilk həftəsindən etibarən bazar gününün iş rejimi kimi bərpa olunma ehtimalı var".

**Sonda onu qeyd edək ki, bu həftədən etibarən həftənin bazar günləri köşklərdə artıq "Yeni Müsavat" və "Azadlıq" qəzetləri olmayacaq. Dəyərli oxucularımız bu qəzetləri 1-ci gündən etibarən ala bilərlər.**

❑ **Cavanşir ABBASLI**

# NATO Əməkdaşlıq İnstitutu iqtidarla müxalifəti dialoq masasına əyləşdirmək istəyir

## Qərb üçün müxalifətin güclənməsi zərurəti meydana çıxır

**"NATO Əməkdaşlıq İnstitutu Azərbaycan hökuməti üçün "Yol xəritəsi" hazırlayıb". Bu açıqlama ilə NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov öz facebook səhifəsində çıxış edib. O, "Yol xəritəsi" ilə bağlı məlumatın bugünlərdə ictimaiyyətə təqdim ediləcəyini deyib:**


Fərrux Məmmədov

"Bu, Avropa Birliyi ilə assosiativ saziş imzalamaq üçündür. Bugünlərdə "Yol xəritəsi"nin təfərrüatını KİV-lər vasitəsilə Azərbaycan cəmiyyətinə çatdıracağıq. "Yol xəritəsi"nin əsas şərtlərindən biri prezidentin aparıcı müxalifət partiya liderləri ilə danışıqlar üçün eyni masaya oturmasıdır. Bu, ümumilikdə dövlətçilik işidir və hər kəsin fikir və maraqlarının öyrənilməsi vacibdir. NATO Əməkdaşlıq İnstitutu bu prosesə vasitəçilik edəcək. Artıq demokratiya dönəmidir və hər kəs bu prosesə hazır olmalıdır".

Qeyd edək ki, sözügedən təşkilat NATO və digər nüfuzlu Qərb institutları ilə əməkdaşlıq edən qurumdur. Yaxın vaxtlarda Qərbin Azərbaycan iqtidarı ilə müxalifətini danışıqlar masası arxasında görmək və bu cür addımlarla hazırda zəif dövrünü yaşayan, hakimiyyətə təsir etmək gücündə olmayan müxalifəti gücləndirmək istəyini ortaya qoyacağı barədə bu təşkilatın məlumatlı olması istisna deyil.

Bəs belə cəhdlər alınacaqmı? Hakimiyyət buna razılaşacaqmı?

**"Atlas" Araşdırmalar Mərkəzinin sədri, siyasi ekspert Elxan Şahinoğlu hesab edir ki, Qərbin Azərbaycanda müxalifətlə iqtidarı danışıqlar masası arxasında görmək və müxalifətin dirçəlməsində marağı ola bilər. Bu marağın gerçəkləşməsi üçün də təşəbbüslər olması mümkündür. Lakin Azərbaycan hakimiyyətinin bu cür məsələlərdə kənardan müdaxiləni qəbul etmədiyi bəllidir:** "Şəxsən mən də bu cür daxili məsələlərdə kənar müdaxilənin əleyhinəyəm. Normal dövlətlərdə hakimiyyətlə müxalifətin dialoqu, müxalifətə fəaliyyət şəraiti yaradılması kənar müdaxilələrlə baş vermir. Fakt ondan ibarətdir ki, belə dialoq hazırda Azərbaycanda yoxdur. Bunun üçün ən yaxşı variant ölkənin daxilində tərəflərin özünün qarşılıqlı anlaşmasıdır. Azərbaycan prezidenti İlham Əliyevin AŞPA sessiyasında çıxışında və keçirdiyi görüşlərdə də bu məsələlər qaldırılıb. Mən bilən dövlət başçısı da müxalifətlə danışıqların başlanmasına etirazını bildirməyib. Dialoq xatirinə danışıqlar da nəticə vermir. Ona görə də iqtidarla müxalifət arasında danışıqlarda real olaraq konkret məsələlər irəli sürülməlidir, müzakirələr getməlidir. Əslində yaxşı olardı ki, müxalifətin böyük spektri parlamentdə olardı və parlament çərçivəsində dialoq olardı. Bu zaman kənardan müdaxilələrə ehtiyac da qalmazdı.

Müxalifət fəallaşmaq üçün kənardan dəstək gözləməməlidir. Müxalifət o qədər güclü olmalıdır ki, hakimiyyət məcbur olub onlarla danışıqlar masası arxasında əyləşsin. Hansısa beynəlxalq təşkilatların istəyi və "Yol xəritəsi" ilə Azərbaycan hakimiyyətinin müxalifətlə masa arxasında əyləşməsi real görünmür. Hazırkı durumda müxalifətin güclənməsini beynəlxalq təşkilatlar istəyə bilər. Ancaq iqtidarın diqtəni qəbul etməsi gözlənilən deyil".

❑ **Etibar SEYİDAĞA**

# Bu yol müsəlmanları hara aparır?



**Hüseynbala SƏLİMOV**

**Müqayisələr qüsurlu olur. Ola bilsin, bu müqayisə də bir o qədər də uğurlu olmayacaq. "Əli və Nino" romanında ötəri olsa da abreklərdən bəhs edilir. Onlar cinayət törətdiklərinə görə öz tayfalarından qovulan, tənha həyat yaşayan, quldurluqla məşğul olan və özünü bütünlüklə şərə həsr edən insanlar olublar.**

Nədənsə Yaxın Şərqdə, xüsusən də İraqda və Suriyada baş verən proseslər haqqında fikirləşəndə bu detal yadıma düşdü - indi çox az adam tapmaq olar ki, İŞİD və onun əməlləri haqqında düşünməsin.

İyunun 29 -da onlar tutduqları əraziləri xilafət, öz liderlərini isə xəlifə adalandırdılar. Axı niyə belə olur? Niyə azacıq imkan düşən kimi müsəlman dünyasında istənilən proses radikal, bəzən də ekzotik dini hərəkata transformasiya edir? Bunun kökləri nədir?

Bəri başdan deyək ki, adam İŞİD-i ənənəvi müsəlman hərəkatı adlandırmağa da çətinlik çəkir. Bunlar necə müsəlmandırlar ki, Kəbəni darmadağın edəcəkləri ilə hədələyirlər?

Müsəlman dünyası, dini qüvvələr çox rəngarəngdir, amma biz elə bir islam cərəyanı tanımırıq ki, o, Kəbəni inkar etsin. Düzdür, müsəlman dünyasında və dini cərəyanlar arasında pirləri, namaz qılarkən möhürdən istifadə edilməsini və s. inkar edən dini təmayüllər var. Ancaq bunu Kəbə ilə bağlı eşitməmişik, çünki onu ziyarət etmək müsəlmanlığın doqquz şərtlərindən biridir.

Qayıdaq Yaxın Şərqə, İraqa. Bu ölkədə nə baş verdi? Diktator devrildi, hamı güman etdi ki, nəhayət ki, bu torpağa dinclik və rahatlıq gələcək. Normal siyasi sistem bərqərar olacaq. Amma belə olmadı. Ölkədə terror gücləndi, dini qarşıdurmalar, etnik çəkişmələr gücləndi.

Etiraf etmək lazımdır ki, bir çox əcnəbi politoloqlar, ərəb dünyası və Yaxın Şərq üzrə mütəxəssislər bunu görür və xəbərdarlıq edirdilər. Təəssüf ki, elə bu məsələdə də geosiyasi meyarlar üstünlük təşkil etdi - böyük güclər regionun siyasi reallıqları ilə hesablaşmaq istəmədilər. Nəticəsi də bu oldu.

Burada hər bir ölkə yaşadığı siyasi sistemə layiqdir fikrini yada salmaq istəməzdik. Amma reallıqlar var və bir çox hallarda bu reallıqlar özləri ilə hesablaşmağa vadar edir.

Bəzən düşünürsən ki, bəlkə müsəlmanlara onların istədiklərini etməyə imkan vermək lazımdır? Amma dərhal da yadına düşür ki, onlar artıq bunu ediblər və hansısa ciddi nəticə alınmayıb. İran və yaxud da elə Səudiyyə Ərəbistanı dini dövlət deyilmi?

Xristian dünyasında bir kiçik, cırtdan teokratik dövlət-Vatikan var və bununla da kifayətləniblər. Bəzi müsəlman təriqətləri, dini-siyasi cərəyanlar bəlkə bunu təqlid etmək istəyirlər?

Amma buna da oxşamır. Ona görə ki, onların böyük siyasi, bəzən də həddən böyük siyasi iddiaları olur. Axı xilafət təkcə sırf dini dövlət mənasına gəlmir, həm də imperiya anlamını verir.

Müsəlman dünyasında yalnız Türkiyədə mühafizəkarlıqla yeniliyin, dünyəviliklə diniliyin üzvi əlaqəsi qurulub. Düzdür, Türkiyə daha çox dünyəvi və demokratik dövlətdir, amma bu ölkənin ən azı üfüqi, ictimai həyatında dinin rolu düşünülən qədər də az deyil.

O ki qaldı bəzi ərəb dövlətlərinə və İrana, onlar islama və onun obrazına çox böyük zərbə vurdular. Yeni qurulacaq dövlətlər də bu təcrübəni davam etdirəcəklərsə, onların qurulmasına heç ehtiyac yoxdur.

Burada bir detalı da qeyd etmək lazımdır. Avtoritar siyasi sistemlər, dinc mübarizə metodlarına yer olmayan ölkələr bəlkə də özləri də hiss etmədən bir çox hallarda radikal mübarizə üsullarını stimullaşdırırlar.

Bir anlığa düşünək. İnsanın təbiəti elədir ki, o, az müqavimət tələb edən yolu seçir. Normal, orta statistik insan avtoritar siyasi sistemdə mübarizədən çəkinir *(biz də baş sındırırıq ki, niyə Azərbaycanda güclü siyasi-ictimai hərəkat yoxdur?)* Səbəbi də sadədir. O qorxur, çəkinir. Belə şəraitdə xüsusi dərəcədə əqidəli insanlarla bahəm, dini fanatlara yol açılır. Məhz onlar düşünür ki, mübarizələrinin bu dünyada əvəzi olmasa da o biri dünyada bunun on qatı olacaq. Bəli, onlar buna inanırlar, hətta özlərini Allahın əsgərləri adlandırırlar...

İndi düşünürük ki, bütün bunlar Azərbaycandan çox uzaqdır, bəlkə də bir ekzotikadır. Amma unutmayaq ki, Suriyada döyüşən azərbaycanlıların sayı 300-ə yaxındır...

Düşünmək vaxtı deyilmi?..



# "Narkomanların" siyasi birliyi

Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycan rejimi özünü həmişə Putinin oxşarı kimi aparır. İndi Putin aşırı aqressivləşib, dünyaya meydan oxuyur, planetdə dövlətlərin sərhədlərini aşkar pozur, heç bir beynəlxalq qanun-qayda tanımadığını bəyan edir. Şübhəsiz, bunun zərərini Rusiya ödəyəcək. Necə ki, tarixi boyunca belə qan-qan deyən çarlarının, başçılarının bəlasına rus xalqı düşüb.**

Diqqət eləsəniz, son vaxtlar yapokratiya liderlərinin ritorikası eynilə Putinvaridir. Məsələn, qabaqlar xaricdən tənqid olanda deyirdilər düzələcək, hər yerdə problem olur, demokratiya qarpız deyil bazardan alasan və sairə. İndi isə tamam inkar edirlər, dünyanı yalan danışmaqda suçlayırlar və qəti xəcalət çəkmirlər. "Yalan deyirsən, bizdə siyasi məhbus nədir, ümumiyyətlə məhbus yoxdur, qurd quzu ilə oynayır, kommunizm qurulub!", "Korrupsiyanın kökünü tam kəsmişik, ASAN-xidmətin təcrübəsini qalaktikaya yayırıq, hər həftə Marsdan marsiançıklər gəlir, rüşvət verməmədən doğum haqda şəhadətnamənin surətini çıxardıb rədd olurlar", "Demokratiya tam qurulub, söz azadlığı 200 faizə qalxıb, sərbəst toplaşma hər gün, hər yerdə toplaşır" və sairə. İqtidarın son günlərdəki qırmızı ritorikası budur. Xoşun gəlmir, çıx get ölkədən. Ya da Kürdəxanıya, Şüvəlana göndərək. Bizdə demokratik seçim var.

Bu cür "qaza gəlməyin" səbəbi tək Putin deyil, elə öz qazımızın da təsiri var. Neft qarışıq qazımızın. Mən siyasi dustaqların məhkəmələrində neçə illərdir iştirak edirəm. Açıq görürəm ki, bu proseslərdə ədalətin, qanunların eybəcərləşdirilməsi ildən-ilə kəskinləşir. Misal üçün, 2003-cü ilin siyasi dustaqlarının hüquqları 2005-ci ildəki dustaqlardan az pozulmuşdu. Hətta eyni ilin içində fərq var. Məsələn, NİDA Vətəndaş Hərəkatına bir-iki ay qabaq hökm oxudular. İndi başqa bir eks-NİDA üzvü, Facebook sosial şəbəkəsində aktivliyinə, hakim ailəyə yönəlmiş tənqidlərinə görə şərlənib tutulan Ömər Məmmədovun prosesi gedir, burda haqsızlıq NİDA-nın 7 üzvünə qarşı olandan bəlkə 7 dəfə çoxdur. Ola bilsin Ömər rejimin caynağına tək keçib, ilk anlarda köməksiz görüblər və sairə. Bütün hallarda Ömər Məmmədova istintaqda, zindanda verilən işgəncələr, ona qarşı qanunsuzluqlar 20 ildir siyasi proseslərdə vəkillik edən Əlayıf Həsənovu da təəccübləndirib, o da dünənki prosesdə bunu hakimin nəzərinə çatdırdı.

Yeri gəlmişkən, Əlayif bəyin çıxışı çox gözəl idi, hətta bir dəfə zala toplaşanlar onu alqışladılar. Sitat: "Ömər Məmmədovu ekspertlər yoxlayıblar, rəy veriblər ki, bu adamın qanında, orqanizmində narkotik maddə tapılmadı, narkotik istifadəçisi deyil. Ardıyca isə yazıblar ki, amma buna baxmayaraq narkoloji dispanserdə uçotda durması məsləhətdir". Doğrudan da çox əcaib bir rəydir. Oxucular bağışlasın, hətta həyasız rəydir. Narkoman olmayan adamı narkoloji dispanserə nə üçün qeydiyyata salırlar?

Əlayif bəydən növbəti sitat: "Son illər hakimiyyət siyasi proseslərdə ittiham verdiyi gənclərə adətən narkotik maddə qoyur. Belə çıxır ki, bu gənclərin hamısı narkomandır, ancaq hakimiyyəti dəyişmək istəyirlər. Dünya tarixində narkomanların hələ belə bir siyasi ittifaqı, birliyi qeydə alınmamışdı". Zal gülür, əl çalır, hakim isə əsəbləşir. Çıxılmaz vəziyyətə, qəfəsə salınanın biri də o hakimdir. Şərə alət olmaq şərin özü qədər murdar hərəkətdir. Hətta alət daha murdardır, çünki iyrəncliyin birbaşa içindədir. Şərə nə var, bəzən o əyninə frak geyib allı-güllü salonlarda kürü yaxmacı marçıldadır, Firəngistandan gələn qonaqlarla tvist oynayır.

"Bu gənclər sabah sizi ittiham edəcəklər" - vəkilin hakimə dediyi bu sözlər də qiymətli sözlər idi.

# Bakıdakı avropalıların müxalifətlə görüşünə imkan verilmədi

## Əli Kərimlini "Fairmont" hotelinə buraxmadılar



**ATƏT Parlament Assambleyasının toplantısında iştirak etmək üçün Bakıya gələn avropalı təmsilçilərin budəfəki fərqli davranışları diqqət çəkdi. Söhbət komitə iclaslarında belə rəsmi Bakı ilə münasibətlərdə prinsipial davranan, xüsusilə də insan haqları və demokratiya məsələlərində güzəştsiz mövqe tutub hətta ev sahibləri ilə sərt polemikalara girən Avropa təmsilçilərinin Azərbaycan müxalifəti ilə görüşlərdən yayınmasıdır.**

Son vaxtlar bir ənənə formalaşmaqda idi. Belə ki, Avropa ölkələrindən gələn prezident və nazirlər, o cümlədən demokratik təsisatların rəhbərləri müxalifətlə görüşləri səfər protokollarına əlavə edirdilər. Bu isə Qərbin müxalifətlə iş prinsiplərinə yeni çalarlar əlavə etdiyi, hakimiyyətə mesaj verdiyi barədə versiyaların ortaya çıxarmışdı. Ötən həftənin sonlarından start götürən ATƏT PA-nın Bakıdakı toplantılarının gedişində isə bunu müşahidə etmədik.

**Bu arada məlum olub ki, hətta AXCP sədri Əli Kərimli ATƏT Parlament Assambleyasının keçirildiyi hotelə buraxılmayıb. Bu barədə Əli Kərimli facebookda yazıb:** "Bildiyiniz kimi, ATƏT Parlament Assambleyasının iclasları Bakıda - onun ailəsinə məxsus olan "Fairmont" hotelində *("Alov qüllələri"ndə)* keçirilir. Parlament Assambleyasının bir neçə üzvü mənimlə görüşmək istəmişdilər. Bu məqsədlə məni onların tədbirinin keçirildiyi "Fairmont" hotelinə dəvət etmişdilər. Ölkəmizə növbəti utanc gətirəcək hadisə də orada baş verdi. Təhlükəsizlik qüvvələri 3 nəfər avropalı deputat və ATƏT katibliyinin nümayəndəsinin mənimlə hotelin foyesində görüş keçirməsinə imkan vermədilər. Görüşümüzün dayandırılmasını tələb etdilər. Məni belə münasibət təəccübləndirməsə də, avropalı deputatlar qarşılaşdıqları hadisədən şoka düşmüşdülər. Onlar hökumətin mənə son 8 ildə pasport vermədiyini, partiyamızın dəfələrlə qərargahdan çıxarıldığını bilsələr də, görünür, bu qədərini gözləmirdilər. Xeyli mübahisə etdilər. Belə münasibətin qəbuledilməz olduğunu dəfələrlə vurğuladılar, xeyri olmadı. Bu dəfə də avropalı deputatlar bizim "təhlükəsizlik" qüvvələrini təəccübləndirdilər. Mənimlə birlikdə hoteli tərk etdilər. Şəhərdə kafelərin birində görüşümüzü davam etdirdik. 2 saat ərzində hər şeydən danışdıq. Amma hiss edirdim ki, görüşümüzün sonuna qədər onlar hoteldə üzləşdikləri hadisənin təsiri altındaydılar". Əli Kərimli kafedəki görüşdən foto da paylaşıb. ATƏT PA təmsilçilərinin bu fakta ciddi reaksiya verməməsi də suallar doğurur.



ATƏT-in sözügedən toplantılarının gedişində diqqət çəkən məqamlar da oldu. Qarabağ Azadlıq Təşkilatının ermənilərin Bakıya səfərinə qarşı keçirdiyi davamlı aksiyalar, o cümlədən qurumun İnsan hüquqları, demokratiya və humanitar məsələlər üzrə Komitəsinin rəhbəri İsabel Santos "Turan"a müsahibəsində "Təxminən 3 həftə əvvəl mən Vyanadakı mərkəzi ofis vasitəsilə Məmmədli ilə görüş xahişi ilə müraciət etdim. Ümid edirəm ki, bu gün-sabah mənə belə bir imkan veriləcək", deyə bildirib. AŞPA sədrinin də bundan öncə REAL sədri İlqar Məmmədovla görüşmək istəyi barədə məlumat yayılmışdı. Ancaq hələ ki söhbət həbsdəki tanınmış ictimai-siyasi xadimlərdən gedir.

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, ATƏT da daxil, bir sıra beynəlxalq qurumların Azərbaycan hakimiyyətinə münasibəti kifayət qədər sərtdir:** "Biz müşahidə edirik ki, Azərbaycan hakimiyyəti münasibətləri yumşaltmağa çalışır. Amma gördüyümüz kimi, qəbul olunan qərarlar kifayət qədər prinsipialdır. Assambleyanın gedişində də bu aydın sezilir. Müxalifətlə görüşə gəldikdə, onlar bura gəlməyiblər ki, nəyisə müşahidə etsinlər, yaxud görüşlər keçirsinlər. Sadəcə olaraq, iclasın formatına uyğun olaraq toplantılara qatılırlar. Amma orda iştirak edən Helsinki Vətəndaş Assambleyası, İnsan Haqları Evi və digərləri görüşlər keçirir. Məsələn, mənim onlarla görüşlərim nəzərdə tutulub. Vətəndaş cəmiyyətinin təmsilçiləri ilə birgə də görüşlər olmalıdır, ayrıca da. Siyasi partiyalarla da görüşlərin nəzərdə tutulub-tutulmadığını deyə bilmərəm". **M.Əliyev Bakıya ünvanlı sərt ritorikanın sonrakı gedişatı barədə də fikrini bölüşdü:** "Əgər nəzərə alsanız ki, Azərbaycan hökuməti nümayəndələri özlərini kifayət qədər prinsipial göstərmək istəyirlər, cığallıq edirlər. Amma bütövlükdə, məsələn, bizim vətəndaş cəmiyyətinin nümayəndələri ilə təmasların kifayət qədər mülayim, konstruktivdirlər. Hiss olunur ki, daxildə narahatlıq, qorxu var. Bu, onu göstərir ki, Qərbin mövqeyi sərtdir və getdikcə sərtləşəcək. Azərbaycan tərəfi də ortalığa ciddi bir arqument qoya bilmir, bu, iclasların gedişində də bilindi". **Ekspertin fikrincə, ATƏT təmsilçiləri müxalifətlə təmasların olmaması haqda bir arqument də səsləndirdi:** "Bəlkə də kimlərsə bundan istifadə edib əks təbliğat aparacaqdı. Bu mənada bəlkə də müəyyən dərəcədə çəkinirlər və bu, diplomatik gedişlərdir. Amma bütövlükdə mövqeləri kifayət qədər sərtdir. Qəbul olunan qərarlar da onu göstərir ki, ortalıqda prinsipial mövqe var, yeni alver yoxdur".

❑ **Cavid TURAN**

# ATƏT Bakı ofisinin fəaliyyətini bərpa etməyə çağırdı

**"Turan" xəbər verir ki, ATƏT Parlament Assambleyasının demokratiya, insan hüquqları və humanitar məsələlər üzrə ümumi komitəsi iyunun 30-da Bakıda qətnamə qəbul edib. Müzakirələr zamanı qətnaməyə Azərbaycanla bağlı 3 düzəliş olunub.**




Bir düzəlişə əsasən, Parlament Assambleyası ATƏT iştirakçısı olan bir çox dövlətlərdə, o cümlədən Azərbaycan, Belarus, Qazaxıstan və Rusiyada hüquq müdafiəçilərinin saxlanması, həbsi, qorxudulması və ya başqa şəkildə susmağa məcbur edilməsi məqsədilə inzibati prosedurlar və qanunvericilikdən sui-istifadədən narahatlığını ifadə edir.

İkinci düzəlişdə vətəndaş cəmiyyəti nümayəndəsi, hüquq müdafiəçisi Anar Məmmədlinin həbsindən dərin narahatlıq ifadə olunur. Assambleya Azərbaycan hakimiyyətini Anar Məmmədli barəsində ədaləti bərqərar etməyin yollarını axtarmağa, ona və siyasi məhkəmə işlərinin qurbanı olmuş digər vətəndaşlara insan hüquqlarının və qanunun aliliyinin müdafiəsi fəaliyyəti ilə məşğul olmaq hüququ verməyə çağırır.

Üçüncü düzəlişdə Azərbaycan hökuməti seçkiləri müşahidə edən missiyanın dilə gətirdiyi narahatlıqların məntiqi nəticəsi kimi ATƏT-ə Bakıda regional büro açmağa çağırılır *(1 may 2014-cü ildən ATƏT-in Bakı ofisinin statusu layihə koordinatoru səviyyəsinə qədər azaldılıb)*.

# Amerika istəyinə nail oldu




# Bakıda Rusiya əleyhinə qətnamə qəbul edildi

## Amerikalı senatorun hazırladığı sənəd gərgin müzakirələrə səbəb oldu; hakimiyyət Moskva-Vaşinqton duelində riskli mövqe sərgiləməkdən yayındı

**Dünən ATƏT Parlament Asambleyasının 23-cü plenar sessiyası öz işinə başlayıb. Bir neçə gündür komitələr səviyyəsində gedən və əsasən də sessiyanın gündəliyini müəyyənləşdirmək məqsədi güdən çoxtərəfli müzakirələr yekunlaşdıqdan sonra nəhayət, təşkilatın əsas işlək orqanı - Parlament Assambleyasının zirvə toplantısı start götürüb.**

Sessiyaya qədər isə komitələrin toplantıları davam edib. APA-nın məlumatına görə, ATƏT-in Siyasi məsələlər və təhlükəsizlik komitəsinin iclasında Rusiyanın müəllifi olduğu "Terrorçuluğa qarşı mübarizə" adlı qətnamə layihəsi müzakirə edilib. Layihəyə Latviya, Litva və İsveç parlamentarları tərəfindən Ukrayna hadisələri ilə əlaqədar düzəliş təklif olunub. Latviya nümayəndə heyətinin rəhbəri xanım Vineta Porina çıxışında bildirib ki, Rusiya bu gün faktiki olaraq ATƏT məkanında - Ukraynanın şərqində terrorçuluğu dəstəkləyir: "Biz bunun qarşısını almalıyıq".

Ermənistan nümayəndə heyətinin rəhbəri Artaşes Geqamyan Rusiyanın müəllifi olduğu qətnaməni dəstəkləsə də, düzəlişin əleyhinə çıxıb: "Rusiyada 1,5 milyon erməni yaşayır və onlar heç vaxt millətçilik zəmində təzyiqə məruz qalmayıb". **Öz növbəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova bildirib ki, terrorçu qruplara ayrı-ayrı dairələr tərəfindən dəstək verilir:** "Onlar istədikləri sərhədi maneəsiz keçə bilirlər. Azərbaycan hər zaman terrora qarşı aparılan mübarizədə iştirak edib, Azərbaycan qanunvericiliyi də buna tam dəstək verir. Amma bəzi ölkələr terrordan öz məqsədləri, qanuni hakimiyyətin devrilməsi və iqtisadi maraqları üçün istifadə edirlər. Ona görə də biz təklif edirik ki, bu məsələ təkcə müzakirə mövzusu olmamalıdır, əməli işlər görülməlidir".

**Rusiyadan olan deputat Aleksey Puşkov isə düzəlişdə Rusiya ilə bağlı hissəni əsassız adlandırıb:** "Bu gün Ukraynanın şərqində vuruşanlar, Rusiyadan gedənlər deyillər, yerli xalqın nümayəndələridir. Amma Əfqanıstanda, İraqda, Suriyada, Liviyada və sair yerlərdə minlərlə terrorçu qruplaşmalar cəmləşib. Niyə onlarla bağlı heç nə qəbul edilmir?"

Müzakirələrdən sonra təklif edilən düzəliş qəbul edilməyib. Azərbaycan düzəlişlərlə bağlı səsvermədə iştirak etməyib, Ermənistan isə əleyhinə səs verib. Daha sonra qətnamənin özü səsə qoyulub və qəbul edilib. Azərbaycan və Ermənistan sənədin lehinə səs verib. Həmçinin komitə rəhbərliyinə seçkilər keçirilib. Azərbaycanlı deputat Azay Quliyev yenidən komitəyə sədr müavini seçilib.

Demokratiya, insan hüquqları və humanitar məsələlər komitəsi isə "Təhlükəsizliyin təminatı üzrə dövlət və özəl sektorlara demokratik nəzarət" adlı qətnamə qəbul edib. Layihəni sloveniyalı deputat Roberto Battelli təqdim edib.

Sənədin bəndlərindən birində təhlükəsizlik və kəşfiyyat orqanlarına demokratik nəzarət sahəsində parlamentlər arasında qabaqcıl praktika mübadiləsinin qurulması tövsiyə edilir. ATƏT PA həmçinin iştirakçı dövlətləri jurnalistləri və onların mənbələrini qorumağa çağırır.

***

Günün ikinci yarısında isə ATƏT PA-nın sessiyası öz işinə başlayıb. Xatırladaq ki, sessiyada 500-dən çox nümayəndə - deputatlar, siyasətçilər, jurnalistlər, 68-dən çox ölkənin nümayəndə heyəti *(57 üzv-ölkə, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlət)* iştirak edir. Tədbir "Helsinki Yekun Aktı"nın 40 illiyi ərəfəsində "Helsinki + 40" devizi altında keçirilir və ilk dəfə olaraq ona Azərbaycan ev sahibliyi edir.

Ali toplantının ölkəmiz üçün ikinci böyük əhəmiyyəti, gözlənildiyi kimi, ATƏT PA-nın gündəliyinə bir sıra digər məsələlərlə yanaşı, Ukrayna ilə bağlı məsələnin də salınması idi. Əslində toplantının mərkəzi mövzusu elə bu sənəd və ona münasibətlə əlaqəli idi. Arayış üçün bildirək ki, layihə ABŞ-ın ATƏT PA-dakı nümayəndə heyəti rəhbərinin müavini, konqresmen Bencamin Kardinin müəllifliyi ilə hazırlanıb və "Rusiya tərəfindən Helsinki prinsiplərinin açıq, kobud və ədalətsiz şəkildə pozulması" adlanır.

Sənəddə Rusiyanın Ukraynaya münasibətdə "Helsinki prinsipləri"ni, o cümlədən Ukraynanın ərazi bütövlüyünü və suverenliyini açıq, kobud və ədalətsiz şəkildə pozması pislənir. Eyni zamanda Ukraynanın ərazi bütövlüyü və müstəqilliyinə dəstək ifadə olunur və ATƏT ölkələrindən beynəlxalq platformalarda Ukraynanın ərazi bütövlüyünü dəstəkləmək istənilir.

Qətnamə layihəsində qeyd olunur ki, 2014-cü il martın 16-da Krımda keçirilən referendum qeyri-legitim, qeyri-qanunidir və heç bir hüquqi qüvvəsi yoxdur. ATƏT-ə üzv dövlətlər Rusiyanın Krımı zorla ilhaq eləməsini tanımamağa çağırılır; həmçinin Rusiya Ukraynaya müdaxiləni dayandırmağa çağırılır. Sənəddə habelə ATƏT-in böhranın aradan qaldırılması yönündə səyləri dəstəklənir, təşkilatın Krım da daxil olmaqla, bütün Ukrayna ərazisində öz fəaliyyətini həyata keçirməsinin müdafiə edilməsi istənilir.

***

Hələ sessiyadan öncə bir sıra analitiklər hesab edirdi ki, yekun sənəddə Rusiyanı mühakimə edən bəndlər əksini taparsa, o halda Kreml ABŞ, Qərblə yanaşı, Azərbaycanı da hədəf seçə bilər. O üzdən ortaq təxminlər belə idi ki, rəsmi Bakı Kremli ifrat qıcıqlandırmamaqdan ötrü bu ilin martında BMT Baş Məclisindəki səsvermədən fərqli olaraq bu dəfə Ukrayna ilə bağlı məsələdə neytrallıq göstərə bilər.

**O sırada politoloq Zəfər Quliyevin belə bir maraqlı şərhi olmuşdu:** "Sessiya rəsmi Bakıdan ötrü növbəti sınaq olacaq. Ancaq Strasburqdakı AŞPA sessiyasındakı kimi demokratiyaya sadiqlik testi yox, bu dəfə "Ukrayna məsələsi"ndə öz mövqeyini dəqiqləşdirmək və Qərblə Rusiya arasında hazırkı geosiyasi dueldə öz yerini müəyyənləşdirmək testi olacaq. Bakı isə BMT-də Ukrayna ilə bağlı məlum səsvermədən sonra Moskva ilə münasibətlərdəki gərginliyi təzə-təzə səngidə bilib. Nəzərə alanda ki, separatizmin və üzücü Qarabağ probleminin bəlalarını öz üzərində hərtərəfli hiss edən Azərbaycan bütün belə analoji hallarda daim ölkələrin ərazi bütövlüyü və suverenliyinin müdafiə edir, o zaman bu məntiq çərçivəsində o, faktiki surətdə Amerika qətnaməsini dəstəkləməyə məhkumdur. Lakin o zaman Bakı yenidən Kremlin sərt reaksiyası və proqnoza yatmayan hədələri ilə üzləşə, uzun müddətə Moskva ilə münasibətlərin pozulmasına rısklənə bilər. Ancaq Azərbaycan iqtidarı ABŞ qətnaməsi əleyhinə də gedə bilməz, çünki belə mövqe açıq-aşkar milli-dövlət maraqlarımızla ziddiyyət təşkil edə, Azərbaycanın özü üçün təhlükəli bumeranq effekti yaradardı. Odur ki, rəsmi Bakı bu dəfə yəqin ki, səsvermə zamanı bitərəf qalmaqla ehtiyatlı və neytral mövqe tutmağa çalışacaq. Bununla belə, hətta o halda da sessiya hakimiyyət üçün olduqca qalmaqallı nəticələr doğura bilər. Çünki Azərbaycanın tutacağı mövqedən asılı olmayaraq yekun sənəddə Rusiyanı mühakimə edən bəndlər əksini taparsa, bu hadisə tarixdə Bakı bəyannaməsi kimi qalacaq. O zaman Moskva öz neqativliyini ATƏT və ABŞ-a deyil, həm də qismən foruma ev sahibliyi edənə, yəni rəsmi Bakıya yönəldəcək".

***

Gözlənildiyi kimi, sessiyanın birinci günündə müzakirəyə çıxarılan Ukrayna sənədi ətrafında müzakirələr olduqca gərgin atmosferdə keçib.

**Öncə ATƏT PA-nın prezidenti Ranko Kirovkapiç Ukraynadakı böhranın həlli ilə bağlı Bakı Qrupu yaradıldığını elan edib. Krivokapiç bildirib ki, Ukrayna ilə bağlı proseslər apreldən başlayıb və Ukrayna və Rusiya parlamentarlarının iştirakı ilə birgə müzakirələr aparılıb:** "Orada yaradılan ATƏT PA-nın Vyana Qrupu indiyədək müəyyən müsbət irəliləyişlərə nail olub. Amma daha irəli getmək üçün biz Bakıda keçirilən bu toplantıda Ukrayna böhranının aradan qaldırılması üçün Bakı Qrupu yaratdıq. Bu qrupa Vyana Qrupundan fərqli olaraq, digər ölkələr də daxil ediləcək. Qrup böhranın aradan qaldırılması və sülh danışıqlarının bərpası üçün lazımi işləri görəcək". ATƏT PA prezidenti onu da qeyd edib ki, Ukraynadakı hadisələrə operativ reaksiya vermək və fəlakətin qarşısını almaq lazımdır.




**Qətnamə müəllifi, amerikalı konqresmen Kardin: "Region dondurulmuş münaqişələrdən inildəyir, onların sayı nə qədər artacaq ki, dünya ayılsın?! Azərbaycan, Gürcüstan, Moldova, indi də Ukrayna... Gözümüzün qabağında ölkələr ərazisini itirir, dövlətlər əriyib gedir, nəyi gözləyirsiniz?.."**

**Sənəd layihəsi barədə danışan vitse-spiker Bahar Muradova** əvvəlcə Dağlıq Qarabağ münaqişəsinin 22 ildir həll edilməməsinə diqqət çəkib. Problemin indiyədək yoluna qoyulmamasının səbəblərinə toxunub və bunu təşkilat adına ciddi nöqsan sayıb. Eyni zamanda Ukrayna böhranının bir səbəbini də məhz ATƏT-in vaxtında Qarabağ məsələsinə yetərli diqqət ayırmaması ilə əlaqələndirib və bir daha Azərbaycanın Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib. Lakin Bakının Ukrayna böhranının yalnız dinc yollarla aradan qaldırılmasına tərəfdar olduğunu söyləyib.

**O, təəssüflə qeyd edib ki, ötən gün ABŞ konqresmenləri ilə plenar iclasda Dağlıq Qarabağ münaqişəsinin də müzakirəyə çıxarılması ilə bağlı razılıq əldə olunsa da, bu razılaşma yerinə yetirilməyib:** "Amma buna baxmayaraq, biz ümid edirik ki, növbəti sessiyalarda bu məsələ də qətnamə halında müzakirəyə çıxarılacaq".

**B.Muradova yeni yaradılan Bakı Qrupunun taleyinin Minsk Qrupunun taleyinə bənzəməsini arzulamadığını vurğulayıb:** "Biz arzu edirik ki, Bakı Qrupu işini tezliklə yekunlaşdırsın. Biz iki qardaş xalqın - rusların və ukraynalıların bir-birinə qarşı çıxmasını, nifrət bəsləməsini istəmirik. Biz artıq neçə ildir ki, belə konfliktli hadisələri müşahidə edirik və artıq bunun acı nəticələri bizdə arzulamadığımız immuniteti yaradıb".

**B.Muradova Azərbaycanın yeni yaradılan missiya ilə bağlı təklifini də səsləndirib:** "Biz Ukrayna böhranının tezliklə həllini görmək üçün Bakı Qrupunda yaxından iştirak etmək niyyətindəyik. Ukraynanın ərazi bütövlüyünü tanıyırıq və böhranın sülh yolu ilə həllini istəyirik".

Nümayəndə heyətinin digər üzvü Azay Quliyev də bənzər rakursda çıxış edib və çıxışını daha çox ATƏT məkanında konfliktlərin həll yolları və təşkilatın prinsiplərinin reallaşmasının vacibliyi üzərində qurub.

**Sənəd müəllifi, konqresmen Bencamin Kardin dünya birliyini, o cümlədən ATƏT-i sərt tənqid edib. APA-nın məlumatına görə, B. Kardin dünya birliyini və Qərbi Rusiyanın qarşısında aciz qalmaqda qınayıb, bildirib ki, region dondurulmuş münaqişələrdən inildəyir:** "Dondurulmuş münaqişələrin sayı nə qədər artacaq ki, dünya ayılsın?! Azərbaycan, Gürcüstan, Moldova, indi də Ukrayna... Dağlıq Qarabağ münaqişəsi 22 ildir ki, inildəyir, sağaldan yoxdur. Siyahıda daha hansı ölkə var? Biz Minsk Qrupuna böyük ümidlər bəsləyirdik, amma özünü doğrultmadı. Bəs ədaləti kim bərpa edəcək? Axıdılan insan qanlarına, itirilən torpaqlara göz yumacağıq?! Gözümüzün qabağında ölkələr ərazisini itirir, dövlətlər əriyib gedir. Siz nəyi gözləyirsiniz?.."

Çıxışçılardan Belarus nümayəndəsi sənədi ədalətsiz adlandırıb və açıq şəkildə işarə vurub ki, onu dəstəkləməyəcək.

***

Qeyd edək ki, sənədin qəbulu üçün 300 deputatın dəstəyi tələb olunurdu. Çıxışlardan sonra qətnamə layihəsi Rusiya təmsilçilərinin əngəl yaratmaq səylərinə baxmayaraq bənd-bənd səsə qoyulub və sonda bütövlükdə qəbul edilib. Qətnamə layihəsi səsə qoyulub və lehinə 92 səs, əleyhinə 30 səs, bitərəf 27 səs olmaqla, qəbul edilib. Yekun səsvermə zamanı bəzi xəbərlərə görə, Azərbaycan nümayəndələri bitərəf qalıblar.

Assambleya öz işini bu gün yekunlaşdıracaq. Ali tədbir Bakı Bəyannaməsinin qəbulu ilə başa çatmalıdır.

❑ **Siyasət şöbəsi**



# Pislərin ən yaxşısı...

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Əslində xoşbəxtliyin nə ölçü vahidi, nə də meyarı var. İnsanlar öz ailələrindəki ab-havanı cəmiyyətə daşıyır, cəmiyyətdəki durum isə ölkədəki əhvalı müəyyən edir... Sonra buna bər-bəzək vurulur, susmaq "sabitlik", güzəranından narazı olmaq "dövlətə xəyanət", bütün pisliklərə göz yummaq, utanmadan, qızarmadan ucuz tərifləri yan-yana düzmək isə vətənsevərlik sayılır... Bu rənglərin hamısı var Azərbaycanda...**

Hansı rəng daha çoxdursa, insanlar ona uyğunlaşır, o rəngə, "o palaza bürünür"...

Nə qədər qəribə olsa da, məmurlar statistik göstəricilərlə fantastik sürətlə qabağa gedən bir ölkədə yaşadığımızı təkidlə bizə anlatmaq istəsələr, biz də səsimizi içimizdə boğur, dünyanın gedişatını öz arşınımızla ölçürük. Nə yaxşı ki, özlərinin cəmiyyətə sırımaq istədiyi yalanı elə özləri də puça çıxarırlar. Bir yanda statistik xoşbəxtlik ucaldan məmuru, başqa birisi ifşa edir... Bəlli olur ki, bu ölkədə qəribə bir eyforiya var... Azərbaycanlı məmurun vəzifəsi isə görüntü yaratmaqdır...

Biz "iqtisadi tərəqqiyə", yeni "iş yerlərinin" açılmasına, əmək haqqının artmasına, inflyasiyanın aşağı həddə qərarlaşmasına... görə dünyanın lider dövlətiyik. Bu "birinciliyi" Azərbaycan qorumaq əzmindədir, bu gedişlə onu heç kimlə bölüşməyəcək də... Amma nədənsə, sıravi azərbaycanlı bunu öz güzəranında hiss etmir... Aldığı maaş ən minimal tələbləri belə ödəmir...

Bilmirəm, diqqət yetiribsinizmi: əgər yüz dolları bir ölçü bilib, onunla Türkiyədə, Gürcüstanda, Rusiyada və Azərbaycanda bazarlıq etsəniz, onda bizim inkişafımızın üstündəki qaranlığa "işıq düşəcək" - siz bu qonşu ölkələrdəki qiymətlərlə Azərbaycandakı fərqi görəcəksiniz və o ölkələrdə yüz dollara aldığınızı bizim manata çevirəndə mat qalacaqsınız. Tərəziyə qoyanda bəlli olur ki, Azərbaycan manatının alıcılıq gücü aşağıdır... Demək, bizim aldığımız maaşın da qədri-qiyməti o qədərdir...

Bu cür tərs mütənasibliyə yeni manat dövriyyəyə buraxılanda - 2006-cı ildə start verildi... Köhnə manatın tutumu mexaniki olaraq yeninin üstünə yükləndi - ondan sonra ölkədə inflyasiya bir neçə il ərzində 15-25% həddində qərarlaşdı. Bütün sahələrdə qiymət artımı oldu, manatın kursu isə sabit qaldı və hətta "bahalaşdı" da...

Beləliklə, biz son 8 ildə aldığımız zəruri mallar üçün gizlədilən inflyasiyanın da əvəzini ödədik... İndi haqlı olaraq yaşamaq meyarını hər kəs götür-qoy edəndə, təəssüflə düz 14 il ən ağır dövrlərin yükünü çəkən manatı - "şirvanı" yana-yana xatırlayırıq... Onda o pul zamanın yükünü çəkirdi... Yeni manatın isə elə ilk günlərdən dəyəri ağır, özü yüngül oldu, süni şəkildə bahalı pulla öyünmək üçün dövlət qurumları əllərindən gələni əsirgəmədi...

Belə hallar dünya dövlətlərində dəfələrlə müşahidə olunub: qiymətlərə sərt nəzarətin mövcud olduğu Çin qiymətlərlə məzənnə arasındakı uyğunsuzluğu aradan qaldırmağa məcbur oldu, yuan süni zirvədən aşağı endi və bu Çin iqtisadiyyatında əhəmiyyətli iz qoydu, əhalinin də, dövlətin də xeyrinə oldu...

Bir neçə ay öncə analoji iqtisadi addımı Qazaxıstan dövləti də atdı... Ölkənin milli valyutası olan tengenin məzənnəsi 20% aşağı salındı... Pulla mal atasındakı uyğunsuzluq təkcə insanların maddi rifahı yolunda maneə deyil, həm də istehsalçı ilə istehlakçı arasında süni ədavət yaradır...

Biz gileylənirik ki, nədən xidmət sahəsindəki, mənzil tikintisindəki qiymətlər hətta dünyanın ən bahalı ölkələrini də kölgədə qoyur, bunun böyük payı alıcılıq qabiliyyəti aşağı olan bahalı manatın boynuna düşür... Orta hesabla əlimizi nəyə uzadıb alırıqsa, dərhal onun dəyərin ən azı yarısı qədər artıq pul ödəyirik... Biz yüz dollara gürcü, rus, türk qədər ət-yağ, kartof-soğan ala bilmirik, amma onların hər birindən "xoşbəxt" yaşayırıq, ən azından belə öhdəliyi bizim hökumətimiz boynumuza yük eyləyir. Bu minnətli xoşbəxtliyin hər il çəkisi daha yüngülləşir, bir o qədər qiyməti qalxır...

Hökumətin bizə olan "qayğısını" dəyərləndiririk: aldığımız təqaüdü, maaşı bir neçə gün ərzində xərcləyəndən sonra başımızı yelləyirik... Ehtiyaclar sıralanır, amma öz haqqını tələb edən toplumlardan fərqli olaraq susuruq. Biz sıralanan pisliklərin sırasında birini yaxşı sayıb ənənəyə sadiq qalırıq: buna da min şükür!

# "SerbAz" Avropadan Azərbaycana necə qul daşıyırmış?

## Səmayə Məmmədova: "Problem var idisə, bizə vaxtında məlumat verilməli idi"

**Bosniya prokurorluğu 2007-2009-cu illər arasında yüzlərlə fəhlənin Azərbaycana aparılıb qul kimi istismar edilməsinə görə mütəşəkkil cinayətkar qruplaşmanın 13 üzvünün həbs edildiyini açıqlayıb. Virtualaz.org saytı Bosniya mənbələrinə istinadən xəbər verir ki, həmin şəxslər Bosniya, Serbiya və Makedoniyadan 600-dən çox fəhlənin qul kimi Azərbaycana satılmasını təşkil ediblər.**



Bosniya prokurorluğu bəyan edib ki, həmin şəxslər yüzlərlə fəhləni iş adı altında aldadıb Azərbaycana aparıblar. "Azərbaycana gələndən sonra fəhlələr qeyri-insani şəraitdə saxlanılıblar. Onlara vəd edilən əmək haqqı ödənilməyib və ağır şərtlər altında işlədilib" deyə, prokurorluq bildirir. Şübhəlilər bu insan alverindən 3 milyon avro, yaxud 4,1 milyon dollar qazanıblar. Həbs edilənlərin adları açıqlanmır, ancaq prokurorluq həbs əməliyyatına dair foto yayıb. Xatırladaq ki, bosniyalı fəhlələrin Azərbaycanda qul kimi işlədilməsini vaxtilə AzadlıqRadiosu üzə çıxarıb. Radionun araşdırması nəticəsində məlum olmuşdu ki, həmin qullar Azərbaycanın İdman və Gənclər Nazirliyinin sifarişi ilə inşa edilən obyektlərin tikintisində işlədiliblər. Tikintini "SerbAz" Layihə və Tikinti MMC adlı podratçı şirkət həyata keçirib. Bosniyalı qullar həmin şirkət tərəfindən ölkəyə gətirilib. Aylardır əmək haqqı almayan, yarıac, qeyri-insani şəraitdə saxlanılan və səhərdən axşamadək işləməyə məcbur edilən fəhlələr qorxusundan başlarına gələnlər barədə danışmayıblar. Nəhayət, onlardan biri AzadlıqRadiosunun Bosniya xidməti ilə əlaqə yarada və adının açıqlanmaması şərti ilə Azərbaycanda başlarına gələnlər haqda danışmağa imkan tapıb. Bu faktın izi ilə aparılan araşdırma göstərib ki, Bosniya, Serbiya və Makedoniyadan Azərbaycana "SerbAz" şirkəti tərəfindən 700-ə yaxın qul gətirilib. Onlar Mingəçevir Olimpiya Mərkəzinin, "Buta Palace" sarayının, "28 May" ticarət mərkəzinin və digər obyektlərin tikintisində işlədiliblər.

"SerbAz" şirkətinin Gənclər və İdman Nazirliyinin rəhbərliyinə bağlı olduğunu göstərən dəlillər aşkar edilib. Şirkətin ofisinin nazirliyin Azadlıq prospekti, 128 ünvanında, milli olimpiya komandaları üçün təlim-məşq mərkəzində yerləşdiyi üzə çıxıb. Fəhlələrdən 90-a yaxını Badamdar qəsəbəsindəki iki mərtəbəli villada saxlanılırdı. AzadlıqRadiosunun müxbiri onlarla söhbət etməyə imkan tapmışdı. Məlum olmuşdu ki, bosniyalı qullar 6 aydır bir qəpik də əməkhaqqı almırlar və üstəlik 13 gündür ac-susuz qalıblar. Villada onlar əsir düşərgəsində olduğu kimi çoxmərtəbəli çarpayılarda saxlanılıb, hər çarpayıda qulun adı yazılıb. Qeyri-insani şəraitdə yaşayan və amansızcasına istismar edilən fəhlələrdən ən azı ikisi ölüb. Onların harada basdırıldığı da məlum olmayıb. Məlum olub ki, Badamdar qəsəbəsində daha bir neçə yerdə hərəsində 100-120 nəfərin saxlanıldığı evlər var. Yüzlərlə bosniyalı fəhlənin Azərbaycanda qul kimi işlədilməsi faktı böyük rezonans doğurmuşdu. Bosniya-Herseqovinanın xarici işlər naziri Sven Alkalaj bu məsələ ilə bağlı azərbaycanlı həmkarı Elmar Məmmədyarova zəng etmişdi. Habelə Bosniya tərəfi məsələni araşdırmaq üçün öz nümayəndəsini Bakıya göndərmişdi. Məsələnin böyüməsindən sonra bosniyalıların pullarının bir qismini ödənmiş və onları polisin müşayiəti ilə ölkədən deportasiya etmişdilər. Lakin "SerbAz" şirkətinin sahiblərinin və himayəçilərinin cəzalandırılması barədə heç bir məlumat verilmədi.

Azərbaycanda qul əməyinin istismarı və yüzlərlə xarici ölkə vətəndaşının qul kimi işlədilməsi faktı beynəlxalq hesabatlara da düşüb. İndi Bosniyada qulların Azərbaycana daşınmasını təşkil edən mütəşəkkil cinayətkar qrupun üzvlərinin yaxalanması məsələnin yenidən böyüməsinə, bu qrupun Azərbaycandakı şəriklərinin kimliklərinin üzə çıxmasına səbəb ola bilər.

**İdman və Gənclər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədova "Yeni Müsavat"a "SerbAz" şirkətinin təmsil etdiyi nazirliyin elan etdiyi tenderdə qalib olduğunu deyib:** "Nazirliyin elan etdiyi tenderdə "SerbAz" şirkəti qalib olub və Mingəçevirdəki Kür Avarçəkmə Olimpiya Bazasını tikib. Biz tenderi udan şirkətə maliyyəni vaxtında ödəmişik və işlərin icrasına nəzarət etmişik. Orada adları qeyd olunan digər tikililərin nə nazirliyə, nə də dövlətə aidiyyəti var".

**Xidmət rəhbəri deyib ki, tenderdə qalib olan şirkətin fəhlələrin pulunu verməməsindən, onların qul kimi ölkəyə gətirilməsindən məlumatsız olublar:** "Orada problem vardısa, bizə vaxtında məlumat verilməli idi".

S.Məmmədova "Hazırda "SerbAz" şirkəti İdman və Gənclər Nazirliyinin elan etdiyi tenderlərdə iştirak edirmi" sualına "bizdə bu haqda məlumat yoxdur" cavabını verdi.

E.MƏMMƏDƏLİYEV

# Uşağın xarici ölkəyə aparılması: qanun nə deyir?

**Valideynlər boşandıqdan sonra uşaqların müalicə, yaxud səyahət məqsədilə ölkədən çıxarılması zamanı problemlər yaranır. Tərəflərdən birinin himayəsində olan uşağın xarici ölkəyə aparılması zamanı qarşı tərəf çox halda buna icazə vermir. Bəs qanunvericilik bu məsələni necə tənzimləyir? Bakı Hüquq Mərkəzinin əməkdaşı, vəkil Dünyamin Novruzov bildirir ki, qanunvericiliyin tələbinə görə, yetkinlik yaşına çatmayan vətəndaş ölkədən valideynləri, övladlığa götürəni, himayəçisi və ya qəyyumu ilə gedə bilər:**



"Miqrasiya Məcəlləsində qeyd olunur ki, yetkinlik yaşına çatmayan vətəndaş ölkədən valideynlərinin biri ilə getdikdə digər valideynin notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur. Yetkinlik yaşına çatmayan vətəndaş ölkədən tək getdikdə valideynlərinin, valideyn himayəsindən məhrum olduqda isə onu övladlığa götürən şəxsin, himayəçisinin və ya qəyyumunun notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur. Həmin şəxslərdən birinin razılığı olmadıqda yetkinlik yaşına çatmayan vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı əsasında həll edilir. Məhkəmə bu halda uşağın mənafelərinin təmin edilməsinə yönələn qərar çıxarmalıdır.

**Hüquq məsləhətçisi bildirib ki, uşaq ölkədən gedərkən müəyyən hallarda digər valideynin razılığı tələb olunmur:** "Valideynlik hüququndan məhrum edilməsi barədə məhkəmənin qərarı və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş doğum haqqında akt qeydində ata barədə məlumatın ananın göstərişi üzrə yazılması haqqında arayış olduqda digər valideynin razılığı tələb olunmur.

Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülmüş Azərbaycan Respublikasının vətəndaşı olan uşaq yalnız onun övladlığa götürülməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və övladlığa götürmə haqqında şəhadətnamə təqdim edilməklə qanunla nəzərdə tutulmuş qaydada ölkədən gedə bilər.

Azərbaycan Respublikasından gedən yetkinlik yaşına çatmayan vətəndaşın həyat və sağlamlığına, ölkə hüdudlarından kənarda onun hüquqlarının və qanuni maraqlarının qorunmasına görə məsuliyyət həmin şəxsin valideynlərinin, onu övladlığa götürən şəxslərin, himayəçi və ya qəyyumlarının üzərinə düşür".

YENİ MÜSAVAT
N 168 (5877) 2 iyul 2014

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanovanın Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) rəhbəri Anar Məmmədli barəsində dediyi fikirlərə sərt reaksiya verilib.**


Anar Məmmədli

# "Rəbiyyət xanımın nəzərinə çatdırmaq istəyirəm ki..."

## SMDT rəhbərliyindən Rəbiyyət Aslanovaya sərt sözlər

SMDT-nin koordinatoru Samir Kazımlı "Yeni Müsavat"a yolladığı müraciətində bildirib ki, "ATƏT-in Parlament Assambleyasının (PA) demokratiya, insan hüquqları və humanitar məsələlər üzrə Ümumi Komitəsinin Bakıda keçirilən 23-cü sessiyasında Norveçli parlamentari Bekkevoldun təklif etdiyi 44-cü düzəliş müzakirə edilərkən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova düzəlişin əleyhinə olduğunu deyib. Onun bildirdiyinə görə, adəçəkilən düzəlişdə "bu yaxınlarda açıq-aşkar siyasi motivli məhkəmə işi çərçivəsində həbs cəzasına məhkum edilmiş Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndəsi və hüquq müdafiəçisi, Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədlinin vəziyyəti ilə bağlı dərin narahatlıq ifadə olunur" kimi fikirləri yer alıb. Bundan əlavə, ATƏT PA Azərbaycan hakimiyyətini Məmmədli barəsində ədaləti bərqərar etməyin yollarını axtararaq, ona və siyasi məhkəmə işlərinin qurbanı olmuş digər vətəndaşlara insan hüquqlarının və qanunun aliliyinin müdafiəsi fəaliyyəti ilə məşğul olmaqda davam etmək hüququ verməyə çağırır: "Bu düzəliş müzakirə edilən zamanı Rəbiyyət xanım Anar Məmmədlinin fəaliyyətində cinayət tərkibinin, onun sahibkarlıq fəaliyyətində nöqsanların olduğunu deyib və cinayət törətdiyinə görə həbs edildiyini söyləyib. O bildirib ki, düzəlişin müəllifi Anar Məmmədli ilə bağlı obyektiv məlumata malik deyil. Rəbiyyət Aslanova deyib ki, Anar Məmmədlinin işinə obyektiv qiymət vermək üçün bu işi dəqiq, doğrudan öyrənmək lazımdır. Öncə onu bildirmək istəyirəm ki, bu, Rəbiyyət xanımın siyasi və vicdan məhbusları haqda dediyi ilk əsassız ifadələr deyil. Rəbiyyət xanım bundan öncə də dəfələrlə siyasi və vicdan məhbusları haqda bu kimi əsassız fikirlər deyib. Təəssüf edirik ki, o, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri ola-ola əsassız danışmaqda davam edir. Bu, artıq bir vicdan məsələsidir. Günahsız ola-ola siyasi motivlərlə həbs edilən şəxslərə cinayətkar deməyin özü mənəvi cinayətdir. Rəbiyyət xanıma bundan sonra günahsız insanlar haqda bu kimi ifadələr işlətməməyi tövsiyə edirik və onun Anar Məmmədli ilə bağlı dediklərini də əsassız sayırıq".

**S.Kazımlı R.Aslanovanın diqqətinə çatdırıb ki, Anar Məmmədlinin işi üzrə dəqiq məlumat əldə etmək üçün beynəlxalq təşkilatların, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusların nümayəndələri dəfələrlə Anar Məmmədlinin məhkəmə proseslərində iştirak ediblər və prosesi birbaşa özləri izləyərək məlumatlar əldə ediblər:** "Əgər Milli Məclisin İnsan hüquqları komitəsinin sədri kimi Rəbiyyət xanımın da belə bir niyyəti olsaydı və o, bu vəzifəsinin mahiyyətini anlasaydı, yəqin o da Anar Məmmədlinin məhkəməsində iştirak edərdi və indi belə danışmazdı. Anar Məmmədli ona qarşı irəli sürülən ittihamları qondarma və əsassız hesab etdiyini dəfələrlə bildirib və bu məhkəmə prosesində də hamının gözü qarşısında sübut edildi. Bir sıra demokratik dövlətlər, yerli və beynəlxalq hüquq müdafiə təşkilatları Anar Məmmədlinin günahsız olduğunu bəyan ediblər. Hər kəs bilir ki, Anar Məmmədlinin, Bəşir Süleymanlının həbsi onların təmsil etdikləri təşkilatın - SMDT-nin seçkiləri müşahidə etməsi və bu haqda hesabatlar yayması ilə bağlıdır. O ki qaldı sahibkarlıq fəaliyyətinə, Anar Məmmədli məhkəmədəki çıxışında bəyan etdi ki, o, həyatı boyu heç vaxt nə qanuni, nə də qanunsuz sahibkarlıqla məşğul olmayıb. Milli Məclisin İnsan hüquqları komitəsinin sədrinin də istintaq orqanları kimi QHT fəaliyyəti ilə sahibkarlıq fəaliyyətini qarışıq salması sadəcə gülüş doğurur. Rəbiyyət xanıma ən yaxşı cavabı düzəlişin qəbul edilməsinin lehinə olan şəxslər verdi və bu düzəliş qəbul edildi".


Rəbiyyət Aslanova

### "Bu, artıq vicdan məsələsidir"

❑ **Sevinc TELMANQIZI**

# QAT-ın aksiyası baş tutmadı

**Qarabağ Azadlıq Təşkilatının (QAT) iyulun 1-də aksiya keçirmək istəyi baş tutmayıb. Musavat.com-un hadisə yerində olan əməkdaşının verdiyi xəbərə görə, QAT üzvləri Bakıda ATƏT Parlament Assambleyasının sessiyası keçirilən "Alov qüllələri" hotelinə növbəti dəfə yürüş etmək istəyiblər.**

Ancaq yaxınlıqdakı avtobus dayanacağına toplaşan ona yaxın şəxsi polis oradan uzaqlaşdırıb. Milli Məclisin qarşısındakı yol boyu düzülən üç polis maşını və çox sayda polis isə əraziyə nəzarət edib.

Qeyd edək ki, QAT-ın aksiya keçirmək istəməsinə səbəb sessiyada iştirak etmək üçün ermənilərin Bakıya gəlməsidir. Qeyd edək ki, onlar bir neçə gün əvvəl də aksiya keçiriblər.

❑ **RÖYA**

**Foto müəllifindir**





# İŞİD-in baş kəsən xilafəti



**Azər RƏŞİDOĞLU**

**Terrorçu İŞİD xilafət qurmaq məqsədinin ciddi olduğunu bəyan edir. Artıq "xilafətin" xəritəsi də hazırlanıb. Vurğulayaq ki, xilafət ideyası heç də eyni məzmunu ifadə etmir. Vaxtilə Şimali Qafqazda da xilafət qurulduğunu elan edənlər peyda olmuşdu.**

Ötən yüzilin 90-cı illərində Şimali Qafqazda Misir, Səudiyyə Ərəbistanı, Suriya, Mərakeş, İordaniya, Əlcəzair, Oman, Sudan, Pakistan və digər dövlətlərdən gəlmiş missionerlər özlərinə geniş şəbəkə qura bildilər. SSRİ-nin 70 il apardığı ateizm təbliğatı nəticəsində dinə yaranmış maraq bir boşluq yaratmışdı. Bundan isə hamıdan çox sələfilər istifadə etməyə və boşluğu doldurmağa başladılar.

Qeyri-ənənəvi dini cərəyanların Şimali Qafqaza gəlişi elə o vaxtdan başladı. Rusiyaya qarşı savaşda mötədil qüvvələri radikal dinçilərin əvəz etməsi və ancaq "cihada çağırış" şüarlarının səsləndirilməsi prosesləri tam başqa istiqamətə yönəldə bildi.

Çeçenistanın o zamankı rəhbəri Mövladi Uduqov Qafqazda ilk dəfə "kafirlərə qarşı cihad", "onların başları kəsilməlidir" təbliğatını gündəmə gətirdi.

Çeçenistan telekanalları o zaman rus əsgərinin başının kəsilməsini, zinaya görə gənc kişi və qadının daşqalaq edilməsini yayınlamağa başladı. Gənc rus oğlanın başının kəsilməsini, onun bağırtılarını o zaman dünya telekanalları da gen-bol işıqlandırdılar. Baş verən hadisə o zaman üçün o dərəcədə türkürpədici idi ki, milyonlarla insan islamı tamamilə başqa rakursda görməyə başladı.

İslamı belə rəzil bir simada təqdim etmək istəyənlər elə o zamandan başlayaraq xilafət qurulmasından danışmağa başladılar. Bu çağırışlar insanlarda qıcıq yaradırdı. Başı kəsilən gəncin bağırtılarını çoxları unutmamışdı.

1999-cu ildə Çeçenistan-Dağıstan İslam Dövləti, Qafqaz İslam Cəbhəsi, Dağıstan İslam Ordusu və digər daha böyük hərbi birliklər yaradıldı. M. Uduqov bu hərbi birliklərin əlaqələndiricisi rolunda çıxış edirdi.

2007-ci ildə isə "Qafqaz Xilafəti Hərəkatı" yaradıldı. O zamandan başlayaraq xilafət ideyasını digər bölgələrdə, o cümlədən Azərbaycanda yaymaq təşəbbüsü göstərildi. Həmin qruplara rəğbəti olan vətəndaşlarımızın bir hissəsi bu gün Suriyada, İraqda terrorçu qrupların tərkibində savaşır.

İŞİD və digər təkfirçi qruplarda cəmləşən Azərbaycan vətəndaşları əslində gələcəkdə ölkəmizdəki təxribatlarda istifadə olunmaq üçün hazırlanırlar. Bu təkfirçi və radikal qrupların ən başlıca məqsədi öz sıralarını artırmaqdan ibarətdir.

Bu baxımdan, sələfilərin, xəvariclərin, təkfirçi dini qrupların nəzarətə götürülməsi vacib görünür. Azərbaycanda isə bunun tam əksi baş verir. Mötədil dini qruplar sıradan çıxardılır. Radikal, təkfirçi qruplar isə gələcək təxribatlar üçün hazırlanır.

Bu gün İŞİD sıralarında qafqazlılar da savaşır. Azərbaycanlılarla yanaşı, çeçenlər, inquşlar da bu terrorçu təşkilatlarda toplaşıblar. Onlar özlərini Qafqaz xilafətinin əsgərləri hesab edirlər.

Ona da diqqət yetirək ki, xilafət quracağını elan edən İŞİD - in komandirləri sırasında da azərbaycanlıların olduğu iddia olunur. İŞİD tərkibində olan soydaşlarımız açıq şəkildə bəyan edirlər ki, Azərbaycan tezliklə qurulacaq xilafətin daxilində olacaq.

İŞİD - in hədəfləri və əməlləri qorxunc bir mənzərə yaradır. Başkəsən, ağılsız, qaragüruh, zombiləşmiş bir quldur dəstəsi sanki hakimiyyətləri qəsb edə-edə gedir və bütün dünyanı qorxu imperiyasında - "xilafətdə" birləşdirir.

Absurd və qeyri-real ideya olmasına baxmayaraq, bir qrup psixi pozuntusu olan banditin əməlləri İslam dininə aid edilir və dinə qarşı böyük bir nifrət hissi oyadılır. Bu da təsadüfi deyil. Baş verənlər bəlkə də elə bu məqsədə xidmət edir. Qərb dünyasında, elə Şərqin özündə də İslama nifrət hissi oyatmaq üçün İŞİD-in fəaliyyətini izləmək kifayət edir. Bir qrup banditin, rəzilin əməlləri İslam dininə şamil olunur.

Bir terror təşkilatı insanların din barəsindəki təsəvvürlərini darmadağın etməyə müvəffəq oldu.

Özü də bütün bunlar o zaman baş verdi ki, İslam ideyaları dünyada özünə dayaq tapmaqda idi. Yaxın Şərqdə, Türkiyədə, Cənubi Qafqazda islamçılar siyasi qüvvəyə çevrilmək üzrə idilər. Proseslərin təhlili onu deməyə əsas verirdi ki, bölgədə islamçıların nüfuzu arta bilərdi. Bu isə o anlama gəlirdi ki, istənilən seçkilərdə islamçıların qələbəsi real görünür.

İslam dinini gözdən salmaq üçün İŞİD kimi terrorçu təşkilata ehtiyac var idi. İŞİD-in iyrənc və alçaq vəhşiliklərini müşahidə edən insanların böyük əksəriyyəti nə xilafət adına iddia edən bu quldurları, nə də ki mötədil islamçıları qəbul edə bilmirlər. "İslam" sözü artıq bir çox kənar insanda vahimə hissləri yaradır.

Qərb xüsusi xidmət orqanları radikal İslam qruplarını qıcıqlandıraraq, onları müxtəlif qanlı aksiyalara təhrik edirlər. Bununla da həm beynəlxalq ictimaiyyətə, həm də yerli əhaliyə qərbpərəst rejimlərin vacibliyi aşılanır. Təkfirçi qrupların böyük əksəriyyəti bir alət rolunu oynayırlar. Ancaq tarix göstərir ki, dindən siyasi məqsədlər üçün istifadə edənlər sonda özləri qurbana çevrilirlər.

Bu gün baş kəsib, insanları qətlə yetirən, eyforiya vəziyyətində olan İŞİD və onların Azərbaycandakı pərəstişkarları anlamalıdırlar ki, ciddi qüvvələrin planında adi alətdən başqa bir nəsnə deyillər.

Plan başa çatdıqdan və istifadədən sonra onlar atılacaqlar.

Təkfirçi təşkilatların əksəriyyətinin taleyi acınacaqlı olub. Vaxtilə ABŞ-ın SSRİ-yə qarşı Əfqanıstanda yerləşdirdiyi Taliban öz missiyasını icra etdikdən sonra elə Vaşinqton tərəfindən də "unuduldu".

Yuxanda söz açdığımız çeçenistanlı təkfirçilərin də karyerası uzun müddətli olmadı. M. Uduqov, Şamil Basayev istifadə müddətləri bitdikdən sonra tərk edildilər. Livanda əl Fəth təşkilatının və bu qurumun liderlərinin taleyi də eyni dərəcədə məyusedici oldu.

Heç şübhəsiz ki, İŞİD-çilər da istifadə edildikdən sonra qurban veriləcəklər. İŞİD və digərləri tarixin arxivinə gömüləcək. Lakin bu məsələdə ən narahatedici məqam odur ki, Azərbaycan vətəndaşları bu çirkin oyunun girovuna və qurbanına çevrilirlər...

YENİ MÜSAVAT
N 168 (5877) 2 iyul 2014

**Bakıdakı mağaza və marketlərdən məşhur "Hell" içkisi yığışdırılır. Enerji içkisinin marketlərdən yığışdırılması ilə bağlı göstərişi isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov verib. Baş çəkdiyimiz bir neçə marketdə öyrəndik ki, yeni enerji içkisi olan "Hell" rəqiblərini sıradan çıxararaq, onların bazarını bağlayıb. Ona görə də Bakıdakı marketlərə "Hell" içkisinin satışı ilə bağlı qadağa qoyulub. Aldığımız məlumata görə, artıq Bakıda Vasif Talıbovun himayə etdiyi iş adamlarına məxsus böyük marketlərdən bu içki markası yığışdırılıb.**







# Vasif Talıbovdan marketlərə "Hell" qadağası

## Naxçıvan Ali Məclisinin sədri "Red Bull"una rəqib enerji içkisinin bazarını bağlayır







### "Red bull"la eyni tərkib, fərqli qiymət

Bakıdakı bir neçə marketə baş çəkib faktın doğru olub-olmadığını öyrənməyə çalışdıq. Olduğumuz marketlərin çoxunda bu içki satılmırdı. Söhbətləşdiyimiz satıcılar isə "Hell" əvəzinə bizə yalnız "Red Bull" təklif etdilər.

Bəs qısa zaman içində populyarlaşan "Hell" markasının sirri nədədir?

"Hell"ə qədər Azərbaycandakı enerji içkisi bazarında ən populyar marka "Red Bull" sayılırdı. "Hell" markasının "Red bull"un bazarına girməsinin və alıcı rəğbəti ilə qarşılaşmasının bir neçə səbəbi var. Onlardan biri "Hell"in "Red Bull"la eyni tərkibə malik olmasıdır. Bu içkidən istifadə edənlər yaxşı bilər: hər iki içkinin dadı demək olar ki, eynidir. İkinci səbəb "Hell"in "Red Bull"dan dəfələrlə ucuz satılmasıdır. Məsələn, 250 ml-lik "Red Bull" 2 manata satıldığı halda, eyni ölçülü "Hell" 1 manatdır.

### "Hell" Naxçıvanda "şeytan" içkisidir

Əldə etdiyimiz məlumatda deyilir ki, "Hell"lə bağlı qadağa təkcə Bakıdakı mağaza və marketlərdə deyil. Naxçıvan Muxtar Respublikasında bu içki üstündəki şeytan loqosuna görə "şeytan" içkisi kimi təqdim olunaraq satışdan çıxarılıb. Eyni zamanda bildirilib ki, bu içki müsəlmanların səhhətinə ciddi ziyan vurmaq istəyən xristian və yəhudi missionerlərin sifarişi əsasında hazırlanıb. Elə buna görə də Şərur, Babək və Sədərək rayonlarındakı əksəriyyəti dindarların olan marketlərdə bu içkinin satışına qadağan olunub.

Qeyd edək ki, "Yeni Müsavat"ın ötən saylarında enerji içkilərindən sayılan "Red Bull"un tərkibində narkotik maddə sayılan kokain aşkarlandığı ilə bağlı məlumat vermişdik. Məlumatda qeyd olunurdu ki, bu içkinin vətəni hesab edilən Almaniyada alimlərin araşdırmaları nəticəsində məlum olub ki, enerji içkisinin tərkibini təşkil edən kimyəvi komponentlər içərisində xeyli miqdarda kokain var. Alimlər belə bir qənaətə gəliblər ki, içkinin hazırlanmasında xüsusi kokain ekstraktından bolluca istifadə edilir. Məhz bu səbəbdən Almaniyanın bəzi əyalətlərində "Red Bull"un satışına qadağa qoyulub.

Tərkibində narkotik maddənin aşkar olunması səbəbindən bəzi ölkələr artıq "Red Bull"un qadağan olunması üçün yollar axtarır. Artıq Çində supermarket piştaxtalarından "Red Bull" markalı energetik içki yığışdırılıb. Çin alimlərinin fikrincə isə "Red Bull"un tərkibində insan sağlığına zərərli maddələrdən sayılan natrium benzoat var. Natrium benzoat psixi xəstəliklərin müalicəsində istifadə edilir. Bu maddədən istifadə etdikdə insanda baş ağrısı, stress və digər əlamətlər müşahidə edilməyə başlayır.

**Məlumat üçün nəzərinizə çatdıraq ki, "Red Bull"un Azərbaycanda rəsmi satış distribütoru "Cahan Holdinq"dir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbova məxsus holdinq bütün ölkə ərazisində bu içkinin satışını təşkil edir. Holdinqin rəsmi internet saytında da "Red Bull"la bağlı bu məlumatlar yazılıb:** "Bu gün artıq hamının tanıdığı və çoxlarının sevimli içkisinə çevrilmiş "Red Bull" enerji içkisinin yaradılması ideyası 1984-cü ildə meydana çıxıb və onun yaradılmasına 3 il gərgin əmək sərf olunub. 1987-ci ildə məhsul "bədən və can cürətləndirmək" üçün enerji içkisi - "Red Bull" adı ilə bazara daxil olub və elə həmin vaxtdan da bütün dünyanı müvəffəqiyyətlə istila etməyə başlayıb. Beləliklə, "Red Bull" enerji içkisi əqli və fiziki gərginliyin artdığı vaxtlarda istifadə etmək üçün hazırlanmış funksional içkidir. İndi mövcud olduğu şəkildə bu məhsul Avstriyada yaranıb, 1994-cü ildə isə "Red Bull" ilk dəfə "Vətən"dən kənarda, Almaniyada peyda olub. 1997-ci ildə isə bu məhsul bütün Avropa bazarlarına çıxır və okeanları üzüb keçərək, Şimali və Cənubi Amerikanı və Avstraliyanı fəth edir. Azərbaycana isə "Red Bull" 2004-cü ildə gəlib. Burada sınaq satışları keçirdikdən sonra "Red Bull GmbH" ilə Azərbaycanda 4 il rəsmi nümayəndəsi olan "Cahan Red" şirkəti arasında distributor müqaviləsi imzalanıb. Reklam layihələrini reallaşdırmaq üçün 2005-ci ildə kompaniyada marketinq şöbəsi yaradılıb və onun qarşısında duran əsas vəzifə bu və ya digər məqsədli auditoriyanın maraqlarına yönəlmiş tədbirlər təşkil etməklə, istehlakçıları "Red Bull" brendi ilə tanış etməkdir. Şirkətin Azərbaycanın bir sıra şəhərlərində, o cümlədən Naxçıvanda, Gəncədə, Lənkəranda, Şəkidə və Qubada nümayəndəlikləri var. Bütün bunların sayəsində "Cahan Red" şirkəti "Red Bull" enerji içkisinin satış tempini yerli bazarda illik 100 faiz artırmağa nail olur.

Lakin "Cahan Red" şirkətinin fəaliyyət dairəsi, sadəcə, məhsulun istehlakçıya təqdim olunması ilə məhdudlaşmır. "Red Bull GmbH" ekstremal idman növlərinin inkişafına imkan yaradan tədbirlərin daim təşkilatçısı və ya rəsmi sponsorudur və bütün dünyada 500 ekstremal idmançıya dəstək verir. "Red Bull GmbH"-nin tərəfdaşı olaraq «Cahan Red" şirkəti bu cür tədbirləri Azərbaycanda da keçirir".

❑ **Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**

# Üç "pilot nazir"in fəaliyyətinə çarpaz baxışlar...

**Üzeyir Cəfərov:** "Zakir Həsənov daha çox uğursuz kadr təyinatları ilə yadda qalıb"
**Vahid Məhərrəmov:** "Heydər Əsədov qeyri-peşəkar və bu sahədə təcrübəsi olmayan kadrdır"
**Məhəmməd Talıblı:** "Bizdə islahatlar əvvəlki nazirin dövründəki komandanın təmizlənməsindən ibarətdir"

**Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov redaktorlarla görüşdə hamını təəccübləndirib. Nazirin açıq çıxışı, bütün məsələlərə şəffaf yanaşması, müasir texniki imkanlardan istifadəsi möcüzə kimi qarşılanıb.**

Çünki prezidentin son təyinatları içərisində S.Müslümov daha reformist nazir təsiri bağışlayır. Bu mənada Müslümov redaktorlarla görüşdə onları şoka salmağı bacarıb. Doğrudur, regionlarda bu nazirliyin şöbələri ilə bağlı şikayətlərin ardı-arası kəsilməyib, rüşvət yığılması, sosial müavinətlərin mənimsənilməsi faktlarına rast gəlinir.

Lakin digər təyinatlar - kənd təsərrüfatı və müdafiə nazirləri ilə müqayisədə S.Müslümova pozitiv qiymət vermək olar. Hər halda, daxil olan şikayətlər araşdırılır. Məsələn, KTN rəhbəri Heydər Əsədov gəldiyi gündən bu sahədə xüsusi bir irəliləyiş gözə dəymir.

Təkcə son bir fakt - Masallı və Ağcabədi rayonlarında subsidiyaların bir hissəsinin saxta rəqəmlərlə mənimsənilməsi xəbərləri var. Mia.az yazıb ki, Masallıda icra başçısının aqrar məsələlər üzrə müavini Nəsir Muxtarlının atası Muxtar Muxtarovun adına yardım yazılıb.

Və yaxud müdafiə naziri Zakir Həsənov təyin olunduğu tarixdən əsgər ölümlərinin sayında azalma müşahidə olunmur. "Doktrina" Jurnalistlərin Hərbi Araşdırmalar Mərkəzinin həyata keçirdikləri monitorinqin nəticələrinə əsasən 2014-cü ilin geridə qalan dövründə təhlükəsizlik və müdafiə sektorunun itkiləri 47 nəfər təşkil edib.

Dünyalarını dəyişənlərin 10-u döyüş, 3-ü mina partlayışı, 34-ü isə qeyri-döyüş itkiləridir. Əslində hər üç "pilot" nazir xalqla iqtidar arasında bir sərhəd nöqtəsi hesab olunur. Onlar bu uçurumu bərpa etmək, körpüləri birləşdirmək vəzifəsini yerinə yetirir. Bəs geridə qalan dövr ərzində üç nazirin fəaliyyətini ekspertlər necə qiymətləndirir?

***

Təhlükəsizlik və müdafiə sektorunda görülən işləri təhlil edən ehtiyatda olan **leytenant-polkovnik Üzeyir Cəfərovun** fikrincə, Z.Həsənova birmənalı qiymət vermək olmaz. Onun fikrincə, mənfiliklərlə yanaşı nazirin müsbət xarakterizə ediləcək qərarları da var.


Zakir Həsənov


Heydər Əsədov


Səlim Müslümov

**Ekspert qeyd edir ki, Z.Həsənov daha çox uğursuz kadr təyinatları ilə yadda qalıb:** "Eyni zamanda onun dövründə korrupsiya ilə bağlı şikayətlər çoxalıb. Nazirin arxasındakı işbazlar vəzifə təyinatı aparırlar. Müdafiə Nazirliyinə yönəlik məhkəmə qətnamələri icra olunmayıb. Ümumilikdə Zakir Həsənovun 1 ili tamam olmayıb və yeknəsəq fikir söyləmək olmaz".

**Ü.Cəfərov döyüş bölgəsində xidmət edən əsgərlərin təminatının yaxşılaşdırılması, onların su və qida təchizatının normallaşdırılması hallarını müsbət qiymətləndirir:** "Əli əyri generalları uzaqlaşdırıb, təcrübəli şəxslərin rəhbərliyə gətirilməsi faktları da var. Ədalət naminə demək lazımdır ki, onun müsbət işləri var. Ancaq hələ çalışmalıdır".

***

**Aqrar sektor üzrə ekspert Vahid Məhərrəmov deyir ki, kənd təsərrüfatı naziri qeyri-peşəkar və bu sahədə təcrübəsi olmayan kadrdır. Onun sözlərinə görə, Heydər Əsədov nazir təyin olunduğu gündən başı köhnə işləri araşdırmağa qarışıb:** "Guya bəzi sənədlər hazırlanır, gurultulu adlar qoyulur, strategiya müəyyən edilir. Əslində bu sahədə heç bir yenilik yoxdur. Heydər Əsədov nazir təyin olunduğu vaxtda payızlıq buğda səpimi həyata keçirilirdi.

Başı köhnə işləri araşdırmağa qarışdı deyə taxılçılıq üzrə məhsuldarlıq aşağı düşəcək. Bu il 600 min ton az taxıl məhsulu olacaq. Çünki bu nazir qeyri-peşəkardır, müavinləri də təcrübəsizdir. Bu şəkildə kənd təsərrüfatını inkişaf etdirmək olmaz. Aqronomlar, zootexniklər, iqtisadçılar bu sahəni iradə etməlidir".

**V.Məhərrəmov hesab edir ki, subsidiyaların verilməsində aradan qaldırılan problemlərin həllini yeni nazirin ayağına yazmaq, onun uğuru kimi qələmə vermək olmaz:** "Çünki o, nazir olmamışdan qabaq Maliyyə Nazirliyi yoxlamalar aparırdı. Ölkə başçısı də çıxışında bu sahədəki vəziyyəti tənqid etmişdi, subsidiyaların talan edildiyini açıqlamışdı. Yoxlamalar başlandı və subsidiyaların ayrılmasında yeyintilər aradan qaldırılır.

Bunu indiki nazirin fəaliyyəti ilə bağlamaq olmaz. Ondan danışmaq lazımdır ki, ölkədə 1 milyon 600 min əkin sahəsi var, 600 min ton az məhsuldarlıq gözlənilir. Nazir bu işlə məşğul olmalıydı. Fermerlərin suya, gübrəyə tələbi ödənməlidir, aqrotexniki qaydalara əməl olunmalıdır, müxtəlif proqramlar həyata keçirilməlidir".

***

**İqtisadçı ekspert Məhəmməd Talıblı isə S.Müslümovun rəhbərlik etdiyi nazirlik haqda danışarkən qeyd etdi ki, şəxslərin edə biləcəyi təşəbbüslər, reformlar sistem daxilində böyük dəyişikliklərə təsir etmir. Onun sözlərinə görə, nazirliklərdə yerdəyişmələrlə dəyişikliyə nail olmaq mümkün deyil.**

**Ekspert S.Müslümovun bundan qabaq da Dövlət Sosial Müdafiə Fonduna rəhbərlik etdiyini yada saldı:** "Onu komitədən uzaqlaşdırıb başqa bir nazirliyə təyin etmək islahat deyil. Onun rəhbəri olduğu fonddan çoxsaylı şikayətlər var idi. Bu cür dəyişikliklər dekorasiya xarakteri daşıyır. Əgər reputasiyası zədəli məmur sistemdən uzaqlaşdırılsaydı, bu işin faydalılıq əmsalı olardı.

Bizdə isə islahatlar əvvəlki nazirin dövründəki komandanın təmizlənməsindən ibarətdir. Komandanı tamamilə dağıtmaq və yeni gələn nazirin öz seçdiyi adamları vəzifələrə gətirməsi islahat kimi qiymətləndirilə bilməz. Sistemin daxilindəki qaydaları dəyişməklə islahatlar aparmaq lazımdır. Ona görə də bu dəyişikliklərdən pozitiv nəticə gözləmirəm. Hətta iqtisadi bilikləri yüksək olsa belə, sistemin qaydalarından irəli gələrək nəticə mümkün deyil".

❑ **E.SALAMOĞLU**



# Rəsmi Bakıdan Ermənistana aeroport xəbərdarlığı

## Azərbaycan XİN: "Erməni tərəf anlamalıdır ki, bu cür təxribatlar yalnız və yalnız münaqişənin həllini olduqca təhlükəli bir məcraya yönəldir"

**Azərbaycanın Ermənistanla bütün təmasboyu nöqtələrində gərginliklərin yaşandığı bu günlərdə həm Rusiya, həm də Qərbin danışıqların növbəti raunduna start verilməsi istiqamətində cəhdləri diqqət çəkir. Sanki bu gün məlum hadisələr səbəbindən bir-birinə qarşı duran sözügedən tərəflər Qarabağ məsələsində əsas söz sahibi, təşəbbüsçü olmaq üçün yarışa başlayıblar. Belə ki, Rusiya XİN-in başçısı S.Lavrovun bölgəyə səfərinin ardınca Vaşinqtondan çağırış gəlib. ABŞ Bakı və İrəvanı Qarabağda sülh prosesini canlandırmağa çağırıb.**

Yüksək vəzifəli amerikalı diplomat Azərbaycanla Ermənistanı Qarabağ nizamlanması üzrə danışıqları canlandırmağa çağırıb. "Turan"ın Vaşinqton müxbirinin məlumatına görə, bu bəyanatla ABŞ dövlət katibinin köməkçisinin müavini Brent Hartli çıxış edib. "Ümid edirik ki, Ermənistan və Azərbaycan prezidentləri Fransa prezidenti Ollandın təklifini qəbul edərək yaxın vaxtlarda Parisdə görüşəcəklər. İsveçrə prezidenti Burkhalterin danışıqları daha konkret etmək barədə çağırışı "tərəflərin sülh prosesini irəlilətməsinə imkan verir", - Hartli Vyanada ATƏT-in illik konfransında bildirib.

Tərəflər arasında xalq diplomatiyası üzrə səylər də "davamlı nizamlanmaya, iki ölkə vətəndaşlarının sülhə hazırlanmasına yardım edə bilər", - o qeyd edib. Sonra Hartli vəziyyətin nizamlanmasında ATƏT-in təcrübəsini qeyd edib. "Ukraynada böhran bu təşkilatın ATƏT məkanında münaqişələrin həllindəki rolunu təsdiqləyib. Bundan əlavə, aradan qaldırılması vacib olan zəif tərəfləri göstərib. Biz Avropa təhlükəsizliyi üçün ən aktual problemlərin həlli məqsədilə vacib olan addımları atmağa hazırıq", - o bildirib və ATƏT-i münaqişələrin həlli məsələsində fəaliyyətini canlandırmağa çağırıb.

Özünün sülh çağırışlarının və Bakıya Avrasiya İttifaqı ilə bağlı təzyiqlərinin ardınca Moskva yenə də Ermənistanın əli ilə Azərbaycanı təhdidə başlayıb. Bu arada Rusiyanın Ermənistandakı 102-ci hərbi bazasında genişmiqyaslı komanda qərargah təlimlərinə başlanıb. "Trend"in "Mediamaks" agentliyinə istinadən verdiyi xəbərə görə, təlimlər həftənin sonuna qədər davam edəcək. Təlimlərdə 200-dən çox hərbi texnika və 600 hərbçi iştirak edir. Alagəz və Kamxud təlim-məşq komplekslərində keçirilən təlimlərə tanklar, piyadaların döyüş maşınları, zirehli transportyorlar və artilleriya cəlb olunub. Hərbi təlimlərdə HHM BUK-M1-2 və S-300V kompleksləri, həmçinin MiQ-29 təyyarələri və pilotsuz uçuş aparatlarının eskadrilyası da iştirak edir.

**Situasiyanı Azərbaycan XİN-in mətbuat katibi Elman Abdullayevlə müzakirə etdik:**

***- Elman bəy, ABŞ diplomatının dedikləri yüksək səviyyədə görüşlərin anonsu sayıla bilərmi? Belə demək olarmı ki, növbəti görüşə prinsipial razılıq verilib?***

- Biz dəfələrlə bildirmişik ki, görüşü görüş xətrinə keçirmirik. Biz görüşlərdə nəticə olmasını istəyən tərəfik. Təbii ki, keçirilən görüşlərdə məqsədyönlülük, hədəfyönlülük bizim üçün önəmlidir. Ermənistan tərəfindən fərqli olaraq biz görüşlərdə konkret təkliflərlə və istiqamətlərlə çıxış edirik, həmsədrlər də bunun şahididir. Biz dəfələrlə konkret olaraq bildirmişik ki, münaqişənin həllində yenilənmiş Madrid prinsipləri baza kimi götürülə bilər. Bu baxımdan münaqişənin həlli prosesinin yerindən tərpədilməsi üçün ilk növbədə Ermənistan Silahlı Qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır.

***- Bu yaxınlarda Xocalı aeroportunda ilkin uçuşlara start verilməsinin görüntüləri yayıldı. Rəsmi Bakı bununla bağlı hansı addımlar atıb?***

- Ermənilər dəfələrlə bu cür təxribatları mətbuat vasitəsilə yayır. Ancaq erməni tərəf anlamalıdır ki, bu cür təxribatlar yalnız və yalnız münaqişənin həllini olduqca təhlükəli bir məcraya yönəldir. Bir daha bəyan edirik ki, bu, təhlükəli prosesdir, təxribatdır və münaqişənin həllinə xələl gətirməyə yönəlib.

***- Ancaq Ermənistan istənilən halda bu təxribata getməyə qərarlı görünür. Elə isə Bakı qanunsuz uçuşların qarşısını almaqdan ötrü hansı təsir rıçaqlarına malikdir?***



- Əgər xatırlayırsınızsa, bir müddət öncə də uçuşlarla bağlı məsələ qaldırılmışdı. Biz bu məsələni beynəlxalq təşkilatlar səviyyəsində müzakirə etdik, bu təxribatların nə qədər təhlükəli olduğunu həmsədrlər vasitəsilə rəsmi İrəvanın diqqətinə çatdırdıq. Minsk Qrupunun həmsədrləri də öz bəyanatlarında Ermənistan tərəfini bu cür addımlardan çəkinməyə çağırıb. Təbii ki, bu məsələ bizim diqqətimizdədir və müvafiq addımlar olacaq.

***- Azərbaycanın genişmiqyaslı hərbi əməliyyatlar keçirməsinin ardınca Ermənistan və Rusiya birgə hərbi təlimlərə start verib. Bu gərginlik bölgədə savaşın növbəti mərhələsinin başlamasına gətirib çıxara bilərmi?***

- Birincisi, istənilən ölkələr arasında istənilən münasibətlər ola bilər. Amma Azərbaycanın işğal olunmuş ərazisindən keçən cəbhə xətti boyunca hər hansı bir gərginliyin yaranmasının məsuliyyəti bilavasitə Ermənistanın üzərindədir. Çünki bu gərginliyin səbəbkarı yalnız Ermənistandır.

### Elman Abdullayev: "Ermənistanın Silahlı Qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərində olmasaydı, belə bir gərginlik, insan tələfatı mövcud olmaz, belə təhlükəli vəziyyət yaranmazdı"

Ermənistanın Silahlı Qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərində olmasaydı, belə bir gərginlik, insan tələfatı mövcud olmaz, belə təhlükəli vəziyyət yaranmazdı. İrəvan həm bu vəziyyətin gərginliyindən, həm də beynəlxalq ictimaiyyətin mövqeyindən nəticə çıxartmalıdır.

***- Bugünlərdə növbəti dəfə 3 rayonun - Ağdam, Füzuli və Cəbrayılın işğaldan azad ediləcəyi xəbəri yayıldı. Bu istiqamətdə hansısa proses varmı?***

- Mənim bundan məlumatım yoxdur. Amma Azərbaycanla Ermənistan arasındakı danışıqlar prosesi barədə mütəmadi şəkildə mətbuat məlumatlandırılır. Bizim mövqeyimiz bu barədə çox aydındır və şəffaf şəkildə ictimaiyyətə təqdim olunur. Danışıqların əsası kimi Madrid prinsipləri götürülə bilər, biz bunu baza prinsipləri kimi qəbul etmişik. Bunun üçün də Ermənistanın Silahlı Qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərini tərk etməlidir. Bundan sonra təbii ki, etimad yarana bilər. Cənab prezident qeyd etdiyi kimi, etimad tədbirləri Ermənistanın Silahlı Qüvvələrinin Azərbaycan ərazilərini tam şəkildə tərk etməsi ilə başlamalıdır.

***- Bu arada Ermənistandan Azərbaycanın Qazax rayonuna da iddialar başlayıb. Bununla bağlı XİN-in beynəlxalq təşkilatlara çağırışı olacaqmı?***

- Rəsmi İrəvanın bəlası və problemi ondadır ki, regiondakı bütün ölkələrə qarşı ərazi iddiası ilə çıxış edir. Ancaq bu ərazi iddialarının heç bir əsası yoxdur. Əgər Ermənistan bu torpaqların kimə mənsub olmağını bilmək istəyirsə, tarixə baxması kifayətdir. Ermənistanın bugünkü əraziləri Azərbaycanın tarixi torpaqlarıdır. Təbii ki, biz bu cür məsələləri beynəlxalq səviyyədə qaldırırıq, xüsusilə də həmsədrlər vasitəsilə. Bu gün də beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir, Azərbaycanı da işğal olunmuş əraziləri ilə birgə qəbul edib. Bu gün beynəlxalq ictimaiyyətin qətiyyətsiz və biganə mövqeyi nəticəsində təbii ki, vəziyyət bu həddə gəlib çatıb. Bu durumun səbəblərindən biri də beynəlxalq ictimaiyyətin biganə münasibətidir.

# Almaniyada erməni cinayətləri ifşa olundu

**Almaniyada nəşr olunan "Bakış" jurnalında "Qaranlıqları aydınladan tarixi faktlar" adlı məqalədə qondarma erməni soyqırımı yalanları ifşa olunur. Yazıda qeyd olunur ki, Şərqi Anadolu bölgəsində Daşnak və Hnçak birləşmələrinin qətl etdiyi müsəlman-türklərə aid 185 toplu məzar mövcuddur: "Bu toplu məzarların əksəriyyəti Qarsın Subatan kəndindədir. Qeyd edək ki, 1918-ci ildə Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılıb, yandırılıb və talan edilib ki, onlardan da biri Subatan kəndidir. Müxtəlif vaxtlarda Subatandakı toplu məzarlar beynəlxalq jurnalistlərin iştirakı ilə açılıb".**

Məqalədə 1918-ci il hadisələrini görən *(120 yaşındakı Faranıq Türk ilə 95 yaşındakı Dayanacağa Öztüryün)* şahid ifadələrinə istinadən Subatandakı məzarlıqlardan danışılır: "Əvvəl geniş səthdə davam etdirilən qazıntı daha sonra A-I və B-I açmalarının iç kəsişən nöqtəsində sıxlaşdırıldı. Üstdəki 40 sm.-lik plomb torpağın qaldırılmasından sonra ilk skeletlərlə qarşılaşıldı. Qarışıq olaraq ələ keçən skeletlərin əksəriyyətinin 1 yaşında olan uşaqlara aid olduğu izlənildi. A-I açmasında təxminən 80 sm. dərinlikdə ələ keçən bir skelet qrupu olduqca maraqlı bir quruluş göstərirdi. Şimal-cənub istiqamətində olan bu skeletlər bir ana və qız uşağa aid olduğu görünürdü. Qadın sağ yanı üzərinə düşüb və sol qoluyla qucağındakı uşağa sarılıb. Qadının kəlləsində təyin olunan iki zərbə izi, bunların xüsusilə başlarına, ehtimal ki, balta, ya da kəsici alətlərlə vurularaq qətl edildiyini göstərirdi. İlk hərəkətdə çox təsirli olmayan balta, ikincisində kəlləni dərininə ikiyə ayırıb. Gərək ki, qadın və uşağı üzərindəki geyimlərlə basdırılıb . A-I açmasının cənub küncündə ələ keçən bir başqa skelet qrupunun yalnız çox az bir qismi açıla bilib. Buradakı ilk işlər sonrasında 12 uşaq və 3 yetkin skeleti ortaya çıxarılıb". **F.Öztürk və D.Öztüryün arxiv sənədləri ilə dəstəklənilən ifadələrinə görə, 25 aprel 1918-ci ildə ermənilər tərəfindən edilən qırğın bu şəkildə meydana gəlib:** "Qars və Sarıqamışdan geri çəkilən daşnak-erməni birləşmələri, o zamanlar türk, erməni və rumların birlikdə yaşadığı Subatan kəndinə də hücum ediblər. Hər yana təsadüfi atəş açan birləşmələr, qarşılarına çıxan kəndliləri də getdikləri yerdə amansızcasına öldürüblər. Arxiv sənədlərindən əldə edilən fotoşəkillərə və qazıntı sonrası məlum olanlara görə başlarına baltalarla vurularaq və ya qarınlarına süngü soxularaq öldürülən qadın, uşaq, yaşlı kişi cəsədlərini küçələrdə buraxırdılar. Sənədlərə əsasən Subatan kəndində cəmi 570 adamın qətl edildiyi ifadə edilib. Erməni birləşmələrinin çəkilməsinin ardından bölgə yenidən türk əsgəri birliklərinin əlinə keçib. Küçələrdə iy verən qətl edilmiş insan cəsədləri, sağ qalanlar əsgərlər tərəfindən kəndin müəyyən nöqtələrində toplanaraq samanlıqlara (merek) doldurulublar. Dövrün qeyri-mümkünlükləri və ölü sayının çoxluğu səbəbi ilə dəfn üçün bir "məzar" olaraq düşünülən samanlıqlar "dam çökdürmə" yoluyla da bu günahsız insanlara bir "toplu məzar" olub". Məqalə müəllifi Diaspor Jurnalistləri Birliyinin idarə heyətinin üzvü Əli Zülfüqaroğlu bu tipli kütləvi məzarlıqların Azərbaycanda da mövcud olduğunu qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY



## 8 yaşlı uşağa kömək edək

Balaxanı qəsəbəsində yaşayan Xatirə Muradzadə musavat.com-a müraciət edərək oğlu üçün kömək istəyib. Onun sözlərinə görə, ailədə 4 nəfərdilər, həyat yoldaşının və 8 yaşlı oğlunun gözündə anadangəlmə qüsur var: "Onların xəstəliyi Blefarofimoz sindromudur. Oğlum 2-ci sinifdə oxuyur. 4 nömrəli məktəbdə sinif ələçısıdır. Hələ 2 yaşında olarkən Bakıda ABU Göz Klinikasında türk cərrahı Pelin Kaynak tərəfindən əməliyyat olunub. İndi isə ikinci dəfə əməliyyat olunmalıdır. Türkiyədə Beyoqlu Xəstəxanasında Pelin Kaynak tərəfindən əməliyyat olunmalıdır. Bu əməliyyat üçün 12 000 AZN tələb olunur. Bizim də bu əməliyyata imkanımız çatmır. İmkanlı şəxslərdən kömək istəyirik".

Bankdakı hesab nömrəsi aşağıdakı kimidir: Bank Respublika 38029440021030910I AZN, 381284000210309102 usd. Guseinaliyev Ajdar Samandar oqlu adina. Tel: 0554417959 Əjdər

### Elan

01.07.2014 tarixi, səhər 09:30-09:45 radələrində Nərimanov ərazisində (böyük ehtimalla 155 N avtobusda) Sevinc Süleymanovaya məxsus çəhrayı rəngdə pul kisəsi itib. Pul kisəsində şəxsiyyət vəsiqəsi, tələbə bileti, kart, flaşkart və s. olub. Tapanı mükafat gözləyir.

Əlaqə vasitələri:
055 345 62 35
sevincxanqizi@gmail.com
Facebook ünvanı: Sevinc Xan Qızı


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34


### Elan

Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.

Əlaqə tel: 070-611-64-15


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara**, keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


# Oruclu olanda ən çox bu səhvləri edirik

## Ramazan ayında yol verməməli olduğumuz hərəkətlər barədə ilginc siyahı

**Son bir neçə ildə olduğu kimi bu il də oruclu̇q yay fəslinə, ilin ən isti dönəminə təsadüf edir. Bu səbəbdən də inanclı kəsimə oruc zamanı daha diqqətli olmaq lazımdır. Türkiyənin habertürk.com saytı oruclu olanda insanların yol verdiyi səhvlər barədə maraqlı yazı hazırlayıb. Mütəxəssislərin rəyi əsasında hazırlanan məqalədə qeyd olunub ki, Ramazan ayında etdiyimiz səhv hərəkətlər, imtina edə bilmədiyimiz vərdişlər sağlamlığımızı təhlükə altına alır.**

Həkimlər bildirir ki, oruc zamanı insan bədəni daha az enerji xərclədiyi üçün metabolizmanın sürəti də aşağı düşür. Əgər insanlar düzgün qaydada oruc tutarsa - ölçülü, qədərində qidalanmağa davam edərsə, kökəlmək yerinə əlavə çəkidən də qurtula bilər. Amma insan bədəni aclıq müddətinə görə proqramlandığı üçün iftar və sahurda ölçüsüz qidalanma çəki artımına təsir göstərir.

İfratla sahur arasında az, amma tez-tez yemək yemə prinsipinə riayət etmək lazımdır. Sahur və iftar zamanı iki dəfə əsas yemək, iftardan sonra isə 1-1.5 saat fasilə ilə 2 dəfə yemək yeyilməlidir. Bundan başqa, mütəxəssislər deyir ki, Ramazan ayının ideal qidalanma qaydasına sahura xüsusi önəm verib, iftarı iki hissəyə bölmək aiddir. Bu, insanın səhhəti baxımdan da yararlı sayılır. Orucun su və xurma ilə açılması, şorba içəndən sonra 10-15 dəqiqə fasilə verilib, əsas yeməyi bu müddətdən sonra yemək də faydalı məsləhətlərdən sayılır. İftardan sonra 1-2 saatlıq fasilələrlə meyvə, südlü şirniyyat, süd kimi 2 və 3 dəfə ara qidalanma vacibdir.

Bu isti yay günlərində insanların hərarətini azaldacaq qida və içkilər isə aşağıdakılardır: su, ayran, qazlı su, qarpız, kompot, bitki çayları.

Keçək əsas səhvlərə. Mütəxəssislər müəyyənləşdirib ki, bunlardan birincisi iftardan sonra idman meydançasında idman etməkdir. Bol Ramazan süfrəsindən sonra doyan insanın idman etməsi infarkt, ritm pozuqluqları və ya huşunu itirmə kimi mənfi nəticələrə səbəb ola bilir. Ürək xəstələri üçünsə vəziyyət daha da acınacaqlıdır. Çünki ürək damarları tıxalı olan bir adamda, ürəyə gedən qan miqdarı onsuz da az olur. Yeməkdən sonra qanın bir miqdarı həzm sisteminə doğru yer dəyişdirəcəyi üçün bu miqdar daha da azalır. Buna əlavə olaraq ürəyin qan ehtiyacını qat-qat artıran futbol kimi ağır idmanlar edilsə, sinə ağrısı, nəfəs darlığı və ritim pozuqluqları da yarana bilər. Bu kimi hallar insanın öz həyatını itirməsinə də səbəb ola bilər.

Həddən artıq çox qidalanma da edilən səhvlərdən ikincisidir. Hədsiz yemək yemə nəticəsində qan həzm sisteminə hücum edir. Bu da ürəyə və beynə gedən qanın nisbətən azalmasına, bunun nəticəsində də sinə ağrısına, hətta bayılmalara yol aça bilir.

Orucu açarkən su yerinə qazlı, duzlu və ya şəkərli içki içmək insanların etdiyi üçüncü əsas səhvdir. Bir çox adama elə gəlir ki, susuzluğu ən yaxşı qazlı içkilərlə yatızdırmaq olur. Amma mütəxəssislər deyir ki, iftarda yeməyə başlamazdan əvvəl 1 və ya 2 stəkan su içmək lazımdır. Bütün gün itirilən mayenin yerinə qoyulması və doyma hissinin meydana gəlməsi baxımından bu çox əhəmiyyətli. Qazlı içkilər isə diafraqmanın ürəyə basqı etməsinə, bunun nəticəsində də ritim pozuqluqlarına və nəfəs darlığına səbəb ola bilir. Duzlu içkilər də qan təzyiqində yüksəlmələrə yol aça bilir. Şəkərli içkilər qan şəkərində oynamalara səbəb olub, mübadilənin pozulmasına gətirib çıxarır.

İftar süfrəsində mütləq şorba, tərəvəz və zeytun yağlı yeməklər olmalıdır.

Daha bir stereotip isə ramazan ayında daha çox ət və xəmir yeməkləri ilə bəslənmənin orqanizmə müsbət təsir etməsidir. Halbuki bütün gün istirahət edən həzm sistemini birdən yükləmək həm maddələr mübadiləsini pozur, həm də qan dövranına mənfi təsir edir. Bu da qan təzyiqi dəyişiklikləriнə bağlı arzuedilməz, kəskin ürək ağrıları ilə müşayiət olunur. Bu səbəbdən həzmi nisbətən daha asan olan tərəvəz növü qidaları, xüsusilə qırmızı ət və xəmir qidalar tərcih edilməlidir.

İnsanların iftar zamanı yol verdikləri daha bir səhv isə əsas yeməkdən sonra şirniyyata, xüsusən də xəmirli şirniyyata üstünlük verməloridir. Bundan başqa, iftar süfrəsində kolbasa, sosiska və basdırma kimi məhsulları qəbul etmək, gərəksiz yerə duz istehlak etmək xüsusilə hiper təzyiq və ürək çatmazlığı olan xəstələrə mənfi təsir edir. Yenə şəkərli və xəmirlə zəngin qidalar qəbul etmək xüsusilə diabet xəstəliyi olanlarda şəkər koması kimi arzuedilməz hallar meydana gələ bilər.

**Və son yanlış.** İnsanlara elə gəlir ki, iftar süfrəsində uzun müddət oturub söhbət etmək çox gözəl ənənədir. Təbii, söhbətin şirinliyi öz yerində, amma orqanizm bundan ancaq ziyan çəkir. Çünki süfrədə nə qədər uzun müddət oturulursa yenilən qida miqdarı da buna paralel olaraq o qədər artır. Bu vəziyyətdə artıqdan alınan duz və kalorilər, ürək-damar sağlamlığına mənfi təsir edir.

**Sevinc TELMANQIZI**





## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- Danışarkaq sürətli qrammatika bilgisi əldə etmək!
- Əla tələffüz və güvənlə danışmaq
- Real ingiliscə söhbətlər

BONUS English EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2, (012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63 (İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

ORİJİNAL AKSESUARLAR

Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



ünvan "SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ
3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza






# Brazìlìya serìalı: anti-qəhrəmanlar, pul və göz yaşları...

## XX dünya çempionatında ən maraqlı faktlar

**Braziliyada keçirilən futbol üzrə XX dünya çempionatında ikigünlük "tufanqabağı sakitlik" hökm sürməkdədir. Cənubi Amerika çempionatı öz sürprizləri, sevinc və kədərləri ilə dünya futbol tarixinə düşüb. Fürsətdən istifadə edib mundialla bağlı bəzi yekunları və maraqlı faktları oxuculara çatdırırıq.**

### Ronaldo ən pislər siyahısında

Bu dünya çempionatında bəzi oyunçuların ulduzu parlasa da, bəzi ulduzlar "söndü". Məhz bu səbəbdən Britaniyanın "Eurosport" kanalı Braziliya mundialının qrup mərhələsində ən zəif çıxış edən 11 oyunçunu müəyyənləşdirib. Onların sırasında Portuqaliya millisinin hücumçusu Kriştiano Ronaldo, İspaniyanın və İngiltərənin ulduz oyunçuları da yer alıb.

Beləliklə, mundialın qrup mərhələsinin ən zəif oyunçularından ibarət rəmzi komandası belədir:

Qapıçı: İqor Akinfeyev (Rusiya);

Müdafiəçilər: Serxio Ramos (İspaniya), Pepe (Portuqaliya), Con Boy (Qana), Leyton Beyns (İngiltərə);

Yarımmüdafiəçilər: Aleks Sonq (Kamerun), Uilson Palasios (Honduras), Stiven Cerrard (İngiltərə), Andres İnyesta (İspaniya);

Hücumçular: Kriştiano Ronaldo (Portuqaliya), Dieqo Kosta (İspaniya).

### Pul davası

XX dünya çempionatında ən çox dartışılan mövzulardan biri də puldur. Əvvəl Kamerun millisi onlara vəd edilən pulu ödəmək istəmədiyi üçün mundiala iki gün qalmış Braziliya getməkdən imtina etmişdilər. Amma FİFA Kamerun Futbol Federasiyasının 5 illik sanksiya ilə hədələdikdən sonra milli komanda mundiala gəldi. Başqa bir Afrika təmsilçisi Qana millisinin oyunçuları da onlara vəd olunan mükafatın verilmədiyini əsas gətirərək Portuqaliya ilə qrup oyunundan imtina edəcəklərini bildirmişdilər. Bundan sonra Qana hökuməti təcili surətdə Braziliyada olan futbolçulara üç milyon dollar göndərmişdi. Yalnız pulların aldıqdan sonra qanalı oyunçular Portuqaliya ilə matça çıxdılar.

Nigeriya millisinin futbolçuları da ölkələrinin futbol rəhbərliyi ilə pul davası aparırdılar və komanda Fransa ilə oyuna çıxmayacaqlarını bəyan etmişdi. Buna səbəb Nigeriya Futbol Federasiyasının (NFF) 1/8 finala çıxan millinin futbolçulara vəd etdiyi mükafatı vermək istəməməsi səbəb olmuşdu.

Onlar mükafatlarının qısa bir zamanda ödənilməyəcəyi halda həm məşqlərə, həm də iyunun 30-da Fransaya qarşı keçiriləcək DÇ-2014-ün 1/8 final oyununa çıxmayacaqlarını bəyan edibər.

Nigeriya millisinin oyunçuları dörd il öncə CAR-da keçirilən mundialda da eyni problemlə üzləşmişdilər. Federasiya qrupda iştiraka görə mükafat vəd etsə də, Nigeriya pley-off-a çıxmadığı üçün pullar ödənilməmişdi. İddia edilir ki, nigeriyalı oyunçular oxşar hadisənin bu dəfə Braziliyada təkrarlanacağından ehtiyat edibər.

### Məşqçi istefaları

Braziliya çempionatı baş məşqçi istefaları ilə də yadda qaldı. Bosniya və Hersoqovina millisinin baş məşqçisi Safet Suşiç komandasının "F" qrupunda mübarizəni dayandırmasından sonra istefa verdi. Yaponiya millisinin baş məşqçisi Alberto Zakkeroni də komandasının uğursuzluğuna görə özünü günahkar saydı və tutduğu vəzifədən getdiyini bəyan etdi.



İstefaya gedənlər sırasında Fil Dişi Sahili millisinin baş məşqçisi Sabri Lyamuşi də var. Komandasının Yunanıstana məğlub (1:2) olduğu oyundan sonra o da bəyan etdi ki, milli ilə başa çatan müqaviləsini yenilməyəcək. Qeyd edək ki, Fil Dişi Sahili Yunanıstanla heç-heçə etsəydi, tarixində ilk dəfə dünya çempionatında 1/8 finala yüksələcəkdi. Amma onlar uduzmaqla bu şansı əldən verdi.







Uruqvayla oyunda məğlub olaraq evə qayıdan İtaliya millisinin baş məşqçisi Çezare Prandelli də karyerasına Braziliyada nöqtə qoydu. İran millisinin baş məşqçisi 61 yaşlı portuqaliyalı Karluş Keyruş da istefa verənlər sırasındadır. Çempionatda üç ağır məğlubiyyətə uğrayan Honduras millisinin çalışdırıcısı Luis Fernando Suares də bu mundialda başçılıq etdiyi millidən gedib.







Braziliyanı erkən tərk edən İngiltərə millisinin baş məşqçisi Roy Hocson isə uğursuzluğa görə istefa verməyəcəyini deyib. **"İstefa vermək üçün heç bir səbəb görmürəm. Futbolçularımla və məşqçi heyəti ilə birgə məşqlərə davam edirik. İngiltərə Futbol Federasiyasının dəstəyi ilə burada işləməyə davam edəcəm. Komandanı çalışdırmaq üçün ən doğru insanın özümün olduğunu düşünürəm".**

Portuqaliya millisinin baş məşqçisi Paulo Bentu da komandasının uğursuzluğa baxmayaraq istefa verməyəcəyini bildirib.

### İki qapıçı, iki rekord

Braziliya çempionatında ən yaşlı oyunçu rekordu təzələnib. Kolumbiya millisinin qapıçısı Ali Fərid Mondraqon Yaponiya ilə matçda meydana çıxmaqla dünya çempionatlarının final mərhələsində forma geyən ən yaşlı futbolçu olub.

43 yaşlı *(daha, dəqiqi 43 yaş, 3 gün)* qapıçı oyunun 85-ci dəqiqəsində David Ospinanı əvəzləyib. Bununla da o, kamerunlu futbolçu Roje Millanın rekordunu qırıb. R.Milla ABŞ-da keçirilən dünya çempionatında Rusiyaya qarşı oyuna çıxanda 42 yaş 1 ay 8 günlük olub.

İtaliya millisinin qapıçısı Canluici Buffon da dünya çempionatının tarixinə düşüb. Kosta-Rika ilə görüşdə komandasının qapısını qoruyan Buffon bununla da beşinci dəfə dünya çempionatında iştirak edib. Bu nəticə ilə o, Antonio Karbaxal (Meksika) və Lotar Matteusdan (Almaniya) sonra beş dünya çempionatında oynayan üçüncü futbolçu olub. Qeyd edək ki, C.Buffon bundan əvvəl 1998, 2002, 2006 və 2010-cu illərdə keçirilən dünya çempionatında İtaliya millisinin şərəfini qoyub.



### Kütləvi dopinq test

Braziliya mundialı futbolçuların kütləvi dopinq testi ilə də yaddaşlarda qalacaq. FİFA 800 futbolçunun (91 faiz) keçdiyi testdə heç bir oyunçunun qanında dopinq tapılmayıb. Dopinq-testindən keçməyən bəzi futbolçular isə turnir başa çatana qədər qanında dopinq olub-olmadığı yoxlanacaq. Kosta-Rika millisinin yeddi futbolçusundan götürülən dopinq-testin nəticəsini də hamı maraqla gözləyirdi. Uruqvay və İtaliyaya qalib gələn komandanın üzvlərindən götürülən testin nəticəsi mənfi olub. Xatırladaq ki, adətən, dopinq-test prosedurunu FİFA iki oyunçunu cəlb edir. Amma Kosta-Rikanın İtaliyaya qalib gəldiyi qrup matçından sonra ali futbol qurumu daha beş futbolçudan qan analizi götürmüşdü. FİFA bunu çempionatdan əvvəl bəzi futbolçuları testdən keçirməməsi ilə izah etmişdi.



### Braziliya da göz yaşlarına inanmır...

Bu çempionatda da meydanda sevinc və kədər gözyaşları müşahidə edilir. Braziliya-Meksika qarşılaşmasından əvvəl hər iki ölkənin dövlət himni səslənərkən azarkeşlər maraqlı mənzərənin şahidi olublar. Meydan sahiblərinin oyunçusu Neymar ölkəsinin himni səslənən zaman göz yaşlarını saxlaya bilməyib.



Braziliya millisinin oyunçusu Çiliya qarşı keçirilən 1/8 final oyunu (1:1, penaltilər seriyasında 3:2) bitən kimi də ağlamağa başlayıb. Amma bu dəfə başqa səbəbdən...

Oyundan sonra o, jurnalistlərə deyib ki, 120 dəqiqə, bundan başqa, penaltilər seriyası zamanı çox çətinlik çəkiblər. **"Əslində sevincimdən ağladım. Bu, bizim ən yaxşı oyunlarımızdan deyildi. Amma mərhələ adlamaq üçün göstərdiyimiz səylər məni də heyrətləndirdi. Hələ heç vaxt bu qədər ağrılarım olmamışdı. Zərbələr aldım, belimdə ağrı ola-ola oynadım. İndi ancaq istirahət haqda düşünürəm"** deyə, o bildirib.

"G" qrupunda Portuqaliya millisi Qanaya 2:1 hesabı ilə qalib gəlsə də, 1/8 finala yüksələ bilməyib. Qana ilə oyunda komandasının qələbə qoluna imza atan Kriştiano Ronaldo qrup mərhələsini adlaya bilmədikləri üçün hönkür-hönkür ağlayıb.

"C"qrupunda Kolumbiya ilə matçdan öncə Fil Dişi Sahili millisinin futbolçusu Serey Di ölkəsinin himni çalınanda ağlayıb. 29 yaşlı yarımmüdafiəçinin ağlaması himnlə əlaqədar olmayıb. S.Di oyundan iki saat əvvəl atasının ölüm xəbərini öyrənib və buna görə də himn çalınan zaman göz yaşlarını saxlaya bilməyib.

### Kuriyoz

A qrupunda keçirilən Braziliya - Meksika matçını Pele avtomobilində radiodan canlı dinləyib. Buna səbəb oyunun keçirildiyi şəhərin yollarında tıxacın yaranması səbəb olub. Dünya futbolunun canlı əfsanəsi Pele də tıxac səbəbindən Braziliya - Meksika görüşünün ilk hissəsini izləyə bilməyib.

Argentina milli komandasının Braziliyada keçirilən məşqi başa çatan kimi azarkeşlər kütləvi şəkildə meydana axışıblar. Xəbərə görə, fanatlar bu zaman özlərini dinc aparıblar və sadəcə, futbolçularla söhbət etmək istəyiblər.

Bir azarkeş isə millinin lideri Lionel Messiyə yaxınlaşaraq onun qarşısında diz çöküb və futbolçunun butslarını silməyə başlayıb. Bundan sonra Messə həmin azarkeşi qucaqlayıb və öz formasını ona hədiyyə edib.



### Ən yaşlı jurnalist

Dünya çempionatında təkcə futbolçular və məşqçilər deyil, yarışın gedişatını işıqlandıran jurnalistlər də diqqət mərkəzinə düşür.

Yaponiyalı Xiroqişi Kaqava da belələrindəndir. 89 yaşı olmasına baxmayaraq, Xiroqişi Kaqava dünya çempionatında akkreditasiyadan keçib.

Onu yəqin ki, hazırda peşə fəaliyyətini davam etdirən dünyanın ən yaşlı jurnalisti də saymaq olar.

❑ **Orxan ƏLİYEV**

YENİ MÜSAVAT
Son səhifə
N 168 (5877) 2 iyul 2014

# 2 yaşında böyük iş bacardı



Anasının ağıllı telefonundan istifadə edərək ambulans çağıran Eve Neaton adlı uşaq anasının həyatını xilas edib. Amerikanın Minnesota ştatında baş verən hadisə hər kəsi təəccübləndirib. Anasının evin içində huşunu itirdiyini görən qız onun telefonundan istifadə edərək təcili yardım maşını çağırıb. İlk çağırışda ambulansın gəlmədiyini görən uşaq yenidən zəng edib. O, təcili tibbi yardım işçilərinə çətinliklə də olsa adresi başa sala bilib. Qısa müddət ərzində xəstəxanaya çatdırılan qadının səhhəti yaxşılaşıb. 2 yaşlı qızın anası jurnalistlərə müsahibəsində qızına təcili tibb yardım çağırmağı öyrətdiyini deyib.



## Çox çalışmaqdan öldü

Çində yaşayan 48 yaşlı kişinin ölümü hər kəsi şoka salıb. Li Jianhua adlı kişi iş üçün önəmli bir sənəd hazırlayarkən kreslosunda həyatını itirib. Kişinin iş yoldaşları onun ölümünə çox işləməyin və stressli həyat tərzinin səbəb olduğunu deyiblər. Linin çalışdığı iş yerinin sahibləri mediaya açıqlama verərkən bu sözləri deyiblər: "O, işin keyfiyyətini artırmaq üçün çox çalışmaqdan çəkinmirdi. Gecə-gündüz çalışırdı və işini bəlli bir qrafik çərçivəsində ən yaxşı şəkildə yerinə yetirirdi".

Linin adının açıqlanmasını istəməyən bir iş yoldaşı onun çalışdığı bölümdəki hər kəsin gecə-gündüz çalışdığını deyib. Məhz bu səbəbdən də həmin işdə çalışan hər kəsi eyni aqibət gözləyir. Həmin işdən çalışan işçilərin bir çoxu ürək ağrılarından əziyyət çəkir. Lakin heç kəs vaxtı olmadığı üçün həkimə getmir.

"China Youth Daily" qəzetinin xəbərinə görə, Çində hər il 600 min nəfər çox çalışdığı üçün ölür. Yalnız aprel ayında ölkədə çox çalışan 1600 nəfər həyatını itirmişdi.

# Anasının qucağında canlandı



Ölü doğulmuş uşağın anasının qucağında ağlamağa başlaması görənləri şoka salıb. Əkiz uşaqlar dünyaya gətirən qadın onlardan birinin cansız bədənini gördüyü zaman hər şeyin bitdiyini düşünüb. Dünyaya gələn əkizlərdən biri ağlayarkən, o birinin səsi gəlməyib. Göz yaşları içində ölmüş övladını qucağına alan qadın şoka düşüb. Çünki uşaq anasının nəfəsini hiss etdiyi anda ağlamağa başlayıb. Doğuşda iştirak edən həkimlər də uşağın dirilməsini təəccüblə və göz yaşları ilə qarşılayıblar.

## Limonlu suyun 10 faydası



Limonun özü də, qabığı da çox faydalıdır. İçinə limon suyu əlavə etdiyiniz ılıq su səhərləri günə təzə bir başlanğıc etməyinizə kömək olacaq. Özünüzü daha yaxşı hiss edəcəksiniz.

1. Həzmə kömək olur.
2. Arıqlamağa kömək olur.
3. Kofein ehtiyacını azaldır.
4. Dəriyə xeyirdir (ləkələri aparır) .
5. Viral infeksiyalarla mübarizə aparır.
6. Sinir sistemini sakitləşdirir.
7. Ph dəyərini tarazlaşdırır.
8. Ürək və beyin funksiyalarına xeyirdir.
9. Bədənə enerji verir.
10. Boğaz ağrısının qarşısını alır.



## Sevdiyini yandırdı

Pakistanda evlilik təklifini rədd etmək qıza baha başa gəlib. Pəncab əyalətində tükürpədici cinayət işlənib. Toba Tek Singh şəhərində 18 yaşlı qız yandırılıb. Polisin məlumatına görə, Fayyaz Aslam adlı 22 yaşlı gənc 18 yaşlı Sidra Şaukatla evlənmək istəyib. Lakin qız onunla ailə qurmaq istəməyib. Nəticədə qızın ailəsi evdə olmayanda oğlan evə girərək onun üzərinə benzin töküb və od vurub. Qızın atasının sözlərinə görə, Aslam qızını uzun müddət narahat edib. "Ona bir daha bizə yaxınlaşmamaq barədə xəbərdarlıq etmişdik. Lakin o bu xəbərdarlığa məhəl qoymayıb evimizə gələrək bizi təhdid edirdi".

Qeyd edək ki, gənc qızı dərhal xəstəxanaya çatdırsalar da, onun həyatını xilas etmək mümkün olmayıb.




QOÇ - Qarşınızda olduqca məhsuldar bir gün durur. Qərarlarınızda qəti olun. Aldığınız təkliflər müsbət nəticələr verəcək. Axşam uzaq olmayan ünvanlara qonaq gedə bilərsiniz.

BUĞA - Yaxşı olar ki, günün əsas hissəsini ailə-sevgi məsələlərinə həsr edəsiniz. Başqalarını özünüzdən incik salmayın. Mənasız məsələlərə görə, risk etməyə lüzum yoxdur.

ƏKİZLƏR - Sürprizlərlə dolu bir gün yaşayacaqsınız. Çox güman ki, bir neçə sevindirici hadisənin şahidinə çevriləcəksiniz. Nahar ərəfəsində isə müqəddəs ziyarətgahlarımızdan birinə baş çəkin.

XƏRÇƏNG - Hiss olunur ki, maddi durumunuz ürəkaçan deyil. Bu səbəbdən də ümumi ovqatınız aşağı səviyyədədir. Lakin ulduzlar axşama doğru kisənizdə dəyişiklik olacağına eyham edir.

ŞİR - Ətafınızda baş verən hadisələrin üreyinizcə getməməsi ümumi ovqatınızı aşağı salmaqdadır. Lakin ruhdan düşməyə heç bir əsas yoxdur. Sadəcə, bir qədər səbr edib, yeni perspektivə hazırlaşmaq lazımdır.

QIZ - İyul ayının ən düşərli günlərindən birini yaşayacaqsınız. Hər mənada uğurlu məqamlarla üzləşəcəksiniz. Yeni təkliflər, xoş xəbərlər, maddi irəliləyiş - bir sözlə, ətrafda hər şey gözəl olacaq.

TƏRƏZİ - Təxminən saat 15-ə qədər mübahisəli situasiyalara cəlb olunma ehtimalınız var. Özünüzü ələ almağı bacarsanız, sonrakı saatlarda şəxsi işlərinizdə müsbət dönüş baş qaldıracaq. Qohumlara sayqı göstərin.

ƏQRƏB - Digərləri ilə müqayisədə bu gün daha çox sizin bürcünüz başıdinc yaşayacaq. Əsas enerjinizi məhəbbətə həsr edin ki, bu proses uzun sürsün. Sövdələşmələrdə təşəbbüskarlığı əldən verməyin.

OXATAN - Bir qədər gərgin ərəfədir. Lazımsız məqamlarda, günahsız adamlarla mübahisələrə girişməyin. Əks təqdirdə, özünüzə qarşı rəğbəti itirə, həmçinin sevgidə təklənə bilərsiniz. Səfərə çıxmaq yaxşıdır.

OĞLAQ - Göy qübbəsi maddi durumunuzun yaxşılaşacağını bəyan edir. Belə ki, nahar ərəfəsində varlanma ehtimalınız var. Lakin boş məsrəflərə xərc çəkməkdən yayınmalı, "yamangünlük" saxlamalısınız.

SUTÖKƏN - Həddindən ziyadə yorğun və gərgin gündür. Qarşınızda duran vəzifələrin öhdəsindən gələcəyinizə inamsızsınız. Amma bədbinləşməyə dəyməz. Çünki gözəl günlər yaxınlaşmaqdadır.

BALIQLAR - Şəxsi işlərinizdə müsbət dönüş baş qaldırmaqdadır. Özünüzü tənzimləməyə çalışın. Müvəffəqiyyət başınızı gicəllən dirməməlidir. Vaxtilə həyatınızda rol oynayan insanları yada salın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Üstündən 3 qatar keçdi



Nyu-Yorkda yaşayan Mary Dovner adlı qız üzərindən üç qatar keçməsinə baxmayaraq həyatını itirməyib. Gənc qız bazar günü evindən çıxıb metroya stansiyasına gəlib. Qatarın gəlməsini gözləyərkən huşunu itirərək relslərin arasına düşüb. Çiyni qırılan Dovner yerindən qalxa bilmədiyini gördüyü üçün relslərin arasındakı boşluğa uzanıb. Metro stansiyasının işçiləri qızın relslərin arasında olduğunu üzərindən üç qatar keçdikdən sonra başa düşüblər. Buna baxmayaraq, qız relslərin arasında düzgün uzandığı üçün möcüzəvi şəkildə xilas olub.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 10.565